RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 269 (10014) 23 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə bağlı paylaşım edib




# Humanizm prinsiplərinə sadiqlik

## İlham Əliyevin sosial dövlət modeli həmrəyliyi daha da gücləndirir



Dövlət başçısının rəhbərliyi dövründə ölkənin hüquq-mühafizə sistemində islahatlar aparmaqla yanaşı, humanizm prinsiplərinə sadiqlik, məhbusların bağışlanması məsələsinə də xüsusi diqqət ayrılır. Hər il qeyd olunan dövlət bayramlarında və xüsusi günlərdə, həmçinin bəzən xüsusi humanitar səbəblərlə Prezident bəzi məhbusları əfv edir və onların cəza müddətini azaldır. Bu siyasət yalnız hüquqi və siyasi deyil, həm də humanist yanaşma ilə bağlıdır və dövlətin sosial ədalətə olan bağlılığını əks etdirir.

Prezident İlham Əliyev məhbusları bağışlamaqla cəmiyyətdə humanizm dəyərlərini gücləndirməyi və sosial ədaləti təbliğ etməyi hədəfləyir. Bağışlama siyasəti cəza çəkən insanların ikinci bir şans almasına, yenidən cəmiyyətə inteqrasiya olunmasına və həyatlarını düzəltmələri üçün bir fürsət yaradır. Amnistiya aktları cəmiyyətin inkişafına və sosial harmoniya yaradılmasına xidmət edir.

İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bağışlama siyasəti dövlətin məhbuslara qarşı göstərdiyi insani münasibətin nümunəsidir. Dövlətin bu yanaşması həm daxili, həm də beynəlxalq müstəvidə ölkənin hüquqi və sosial humanizm sahəsindəki nüfuzunu artırır. Əfv edilən şəxslər cəmiyyətin normal üzvünə çevrilmək üçün müxtəlif dəstək və təlimatlarla təmin edilir, beləliklə, onların yenidən cinayətə meyil etmələri ehtimalı azalır.

İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək bayram və əlamətdar günlərdə əfv sərəncamları imzalayıb. Azərbaycan Prezidentinin son 22 ildə imzaladığı əfv sərəncamları, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş amnistiya aktları minlərlə insanı əhatə edib.

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında ötən həftə Milli Məclis tərəfindən qəbul olunmuş qərarın artıq icrasına başlanılıb. Bu amnistiya tətbiq ediləcək şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən genişmiqyaslı amnistiyadır. Amnistiya ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcək. Onlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad olunacağı, 3 mindən artıq şəxsin cəzasının azaldılacağı gözlənilir. Bununla yanaşı, 7 mindən çox şəxs azadlığın məhdudlaşdırılması cəzasından, 3 minə yaxın şəxs digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, mindən artıq şəxs isə cinayət məsuliyyətindən azad edilir. Bu rəqəmlər amnistiyanın miqyasını və sosial əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.

5

## Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq,mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz - qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın - Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi,Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada"yaşıl enerji"zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT-nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq,Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2025-ci il*

## Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə **qərara alıram:**

1. 2025-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 200 (iki yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.6.1.1-ci yarımbəndində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitdən 15 300 000 (on beş milyon üç yüz min) manat ayrılsın.

2.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan ailələrə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2025-ci il*

## Avropa Parlamenti bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsinə zərbə vurmağa çalışır

AP Azərbaycana qarşı qondarma "siyasi məhbus" iddiası ilə çıxış edir, milli zəmində qarşıdurma yaratmaq kimi çirkin məqsəd güdür: "Azərbaycanda siyasi motivli və yaxud da hansısa etnik kimliyə malik olma faktı üzrə məhbus yoxdur. Bundan heç söhbət də gedə bilməz.

9



## Prezident İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB Dövlət Başçılarının qeyri-rəsmi Zirvə Görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 21-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB Dövlət Başçılarının dekabrın 22-də keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb.



Prezident Administrasiyasından AZƏRTAC-a bildirilib ki, Azərbaycan Avrasiya İqtisadi İttifaqına üzv olmadığına görə Prezident İlham Əliyev Ali Avrasiya İqtisadi Şurasının dekabrın 21-də keçirilmiş iclasında iştirak etməyib.

Dövlətimizin başçısı dekabrın 22-də MDB Dövlət Başçılarının Sankt-Peterburq şəhərində keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə isə iş qrafikinin sıxlığına görə iştirak edə bilməyib.

Xatırladaq ki, Azərbaycan Respublikası üzv dövlət kimi MDB-nin rəsmi Zirvə görüşlərində mütəmadi olaraq iştirak edir və MDB çərçivəsində əməkdaşlığa, o cümlədən üzv dövlətlərlə ikitərəfli əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.

Prezident İlham Əliyev bu il oktyabrın 9-10-da Tacikistanın Düşənbə şəhərində keçirilmiş MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib. İclas çərçivəsində istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə keçirilmiş görüşlər səmərəli olub.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı, həm şəxsi həyatınızda, həm də dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Əminəm ki, Xorvatiya və Azərbaycan xüsusi əhəmiyyət kəsb edən iqtisadi əməkdaşlığın inkişafı istiqamətində birgə səylərimizlə qarşılıqlı dostluğu və ikitərəfli əlaqələri möhkəmləndirməyə və dərinləşdirməyə davam edəcəkdir.

Sizə ən xoş arzularımı çatdırır, ölkənizin vətəndaşlarına tərəqqi və firavanlıq diləyirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu sevincli günlə əlaqədar ən xoş arzularımı qəbul edin.

Sizə bu əlamətdar gündə ilk növbədə möhkəm cansağlığı, xoşbəxtlik və qardaş Azərbaycan xalqının bundan sonra da tərəqqisi və ölkənizin beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Sevindirici haldır ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə davamlı və hərtərəfli inkişaf yolu ilə inamla irəliləyir.

Dövlət başçısı vəzifəsində nailiyyətləriniz ölkə daxilində və onun hüdudlarından kənarda Sizə böyük nüfuz və hörmət qazandırıb.

Fürsətdən istifadə edərək Tacikistan ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin müxtəlif aspektlərinin daha da möhkəmləndirilməsinə göstərdiyiniz daimi diqqətli münasibətinizi xüsusi olaraq qeyd etmək istərdim.

Əminəm ki, aramızda yaranan etibarlı siyasi dialoqa və sıx dostluğa əsaslanaraq, ölkələrimizin strateji tərəfdaşlıq çərçivəsində qarşılıqlı münasibətlərinin bundan sonra da birgə təşviqini davam etdirəcəyik.

*Səmimiyyətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Gürcüstan hökuməti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. İcazə verin, bu əlamətdar gündə Sizə öz dərin ehtiramımı ifadə edim. Qeyd etmək istərdim ki, Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası əhəmiyyətli uğurlara nail olmuşdur.

Gürcüstanı və Azərbaycan Respublikasını tarixi dostluq və sarsılmaz strateji tərəfdaşlıq bir-birinə bağlayır və bu da regionda sabitliyin və rifahın təmin olunmasına öz töhfəsini verir. Mən qətiyyətlə inanıram ki, birgə səylərimiz nəticəsində ölkələrimiz arasında mövcud olan əlaqələr daha da dərinləşəcək və möhkəmlənəcəkdir.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edərək, Sizə bir daha öz dərin ehtiramımı izhar edir, möhkəm cansağlığı, rifah və məsuliyyətli fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Məmnunluqla qeyd etmək istərdim ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası sosial-iqtisadi inkişafda və xalqın həyat səviyyəsinin ardıcıl şəkildə yüksəldilməsində mühüm uğurlara nail olub.

Türk Dövlətləri Təşkilatının Sammitində iştirak etmək məqsədilə Sizin ölkənizə etdiyim səfər çərçivəsində Qəbələ şəhərində keçirilmiş görüşümüzü xüsusi səmimiyyətlə xatırlayıram. Tam əminəm ki, birgə səylərimiz sayəsində Türkmənistan-Azərbaycan əməkdaşlığı bundan sonra da qardaş xalqlarımızın mənafeyi naminə inkişaf edəcək və dərinləşəcəkdir.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi və inkişafına verdiyiniz böyük şəxsi töhfəyə və göstərdiyiniz dərin diqqətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və məsuliyyətli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və davamlı firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin Sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə öz adımdan və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı - ICESCO adından səmimi təbriklərimizi çatdırmaqdan və ən yüksək ehtiramımızı ifadə etməkdən şərəf duyuram.

Bu əlamətdar gün Sizin müdrik liderliyinizi və Azərbaycan Respublikasının tərəqqisinə, sabitliyinə, beynəlxalq mövqeyinin möhkəmlənməsinə sarsılmaz sadiqliyinizi qeyd etmək üçün yaxşı fürsət yaradır. Zati-alinizin rəhbərliyi ilə Azərbaycan mədəniyyətlərarası dialoqa, sülhə, əməkdaşlığa və davamlı inkişafa böyük töhfələr verməklə islam dünyasında və onun hüdudlarından kənarda fəal rol oynamaqda davam etmişdir.

ICESCO Azərbaycan Respublikası ilə xüsusilə təhsil, süni intellekt, mədəniyyət və irs sahələrində sıx və məhsuldar əməkdaşlığa böyük əhəmiyyət verir. Ortaq məqsədlərimizə və dəyərlərimizə nail olmaq üçün bu tərəfdaşlığı daha da möhkəmləndirməyə sadiq qalırıq.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə və hörmətli ailənizə möhkəm cansağlığı, davamlı uğurlar və rifah arzulayıram. Həmçinin Sizin rəhbərliyinizlə dost Azərbaycan xalqına bundan sonra da tərəqqi və firavanlıq diləyirəm.

Zati-aliləri, icazə verin, Sizə ən yüksək hörmət və ehtiramımı bildirim.

***Səlim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun baş direktoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin gərgin əməyiniz sayəsində qardaş Azərbaycan sosial-iqtisadi sahədə, dövlət quruculuğunda və beynəlxalq aləmdə əhəmiyyətli uğurlar qazanıb.

Çoxillik səmərəli fəaliyyətiniz, yüksək peşəkarlığınız və Vətənə sədaqətlə xidmətiniz həm həmvətənləriniz arasında, həm də ölkənin hüdudlarından kənarda Sizə böyük ictimai rəğbət və nüfuz qazandırıb.

Dağıstanda Azərbaycan Respublikası ilə əsrlərboyu davam edən dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan tarixi səmərəli əməkdaşlıq yüksək dəyərləndirilir.

Hörmətli İlham Heydər oğlu, qarşıdan gələn 2026-cı ildə Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi, möhkəm cansağlığı və Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz doğma Vətəninizə yorulmadan və sədaqətlə xidmət göstərir, onun sistemli sosial-iqtisadi və ictimai-siyasi inkişafını, sabitliyini təmin edir, ardıcıl olaraq mühüm strateji təşəbbüslər həyata keçirirsiniz.

Qoy bütün planlarınız bundan sonra da həmvətənlərinizin yekdil dəstəyi ilə səmərəli şəkildə reallaşsın, Azərbaycan Respublikasında və beynəlxalq aləmdə sahib olduğunuz yüksək nüfuz əhəmiyyətli məqsədlərinizə çatmağınıza kömək olsun!

Çoxşaxəli Rusiya-Azərbaycan tərəfdaşlığı və qlobal sülh naminə Tatarıstan və Azərbaycan xalqları arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə ümidvar olduğumu bildirirəm.

Sizə və yaxınlarınıza xoşbəxtlik diləyir və ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya - İslam dünyası" Strateji Baxış Qrupunun sədri***



❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sankt-Peterburq Hökuməti və şəhərin sakinləri adından Sizi doğum gününüz münasibətilə təbrik edirik.

Siz parlaq siyasi xadim kimi atanızın - Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin böyük işini ləyaqətlə və inamla davam etdirirsiniz.

Sizin rəhbərliyinizlə Azərbaycan dövlət quruculuğu, iqtisadi rifah və beynəlxalq nüfuz sahələrində mühüm nailiyyətlər qazanıb, tarixi ədaləti və ərazi bütövlüyünü bərpa edib, Cənubi Qafqazda və Avrasiyada əsas güc mərkəzlərindən birinə çevrilib.

Sankt-Peterburq və Bakını uzun illərdir səmərəli əməkdaşlıq, ümumi tarixə, mədəniyyətə və insan talelərinə söykənən əsl qardaşlıq telləri bağlayır.

Biz Neva sahilində yerləşən şəhərdə böyük və fəal Azərbaycan diasporunun yaşaması, təhsil alması və işləməsi ilə qürur duyuruq. Muzeylərimiz, teatrlarımız, universitetlərimiz və müəssisələrimiz çoxsaylı birgə layihələrlə bir-birinə bağlıdır.

Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Qoy Sankt-Peterburq ilə Azərbaycan arasında dostluq əlaqələri hər il daha da möhkəmlənsin və dərinləşsin!

*Dərin hörmətlə,*

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi doğum gününüz münasibətilə şəxsən öz adımdan və Türk Dövlətləri Təşkilatının Katibliyinin heyəti adından səmimi-qəlbdən təbrik edim.

Bu il oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının Azərbaycanın tarixi və gözəl şəhəri olan Qəbələdə keçirilən 12-ci Zirvə görüşü çərçivəsində görüşümüzü məmnuniyyətlə xatırlayıram. İnanıram ki, Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatına sədrliyi dövründə təşkilatımız daha da güclənəcək və inkişaf edəcəkdir.

Təşkilatımız çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinə verdiyiniz töhfələrə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, zati-alinizə cansağlığı və Azərbaycan Respublikasının inkişafı naminə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Kubanıçbek ÖMÜRALIYEV***
***Türk Dövlətləri Təşkilatının baş katibi***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Uzaqgörən siyasi xadimin parlaq keyfiyyətləri və məqsədlərə çatmaqda nümayiş etdirilən əzmkarlıq ali dövləti vəzifənizdəki uğurlu fəaliyyətinizi əvvəlcədən müəyyənləşdirir.

Sizin rəhbərliyinizlə aparılan islahatlar sayəsində Azərbaycan Respublikası dövlət institutlarının təkmilləşdirilməsi, davamlı sosial-iqtisadi tərəqqiyə nail olunması, regionda və dünyada mövqelərinin möhkəmləndirilməsi yolunda inamla irəliləyir.

Fürsətdən istifadə edərək Müstəqil Dövlətlər Birliyi məkanında inteqrasiya əməkdaşlığının qorunması və dərinləşdirilməsi məsələlərində ardıcıl mövqeyinizə, MDB dövlətləri arasında dostluq münasibətlərinin inkişafına verdiyiniz şəxsi töhfəyə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Çox hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı, rifah diləyir, bütün planlarınızın və təşəbbüslərinizin həyata keçməsində uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, zati-alinizə ən xoş arzularımı çatdırıram.

Siz Azərbaycanın yeni tarixini yazırsınız. Müxtəlif ölkələrə səfərləriniz, xüsusən ABŞ Prezidenti tərəfindən Ağ Evə dəvət və orada Sizin fəaliyyətinizə verilən yüksək qiymət bunu bir daha təsdiq edir. Sizin həyata keçirdiyiniz konstruktiv və praqmatik siyasət ölkəmizin inkişafına və insanların rifahına öz bəhrələrini verməkdədir.

Möhtərəm cənab Prezident, Sizin xalqa arxalanaraq, bir an olsun belə dayanmadan apardığınız siyasət ölkəmizin ərazi bütövlüyünün bərpa olunması ilə nəticələndi. Azərbaycan yeganə ölkədir ki, İkinci Dünya müharibəsindən sonra öz ərazi bütövlüyünü tam bərpa etdi. Əminəm ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcək.

Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, ailə səadəti və ölkəmizi daha yüksək zirvələrə aparan yolda böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Türk Mədəniyyəti və İrsi Fondunun kollektivi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Sizin uzaqgörən və məqsədyönlü rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik inkişaf yolu keçərək regional və beynəlxalq miqyasda nüfuzunu daha da möhkəmləndirmiş, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Şübhəsiz ki, bu amil bütün türk dünyasını qürurlandırır və sevindirir.

Türk dünyasının gündən-günə güclənməsinə göstərdiyiniz daimi diqqət və dəstək təşkilatımızın ortaq türk irsinin öyrənilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində fəaliyyətinin daha da genişlənməsinə mühüm töhfə verir.

Zati-aliləri, bu əlamətdar gündə Sizə bir daha ən xoş arzularımı çatdırır, Azərbaycan Respublikasının rifahı naminə həyata keçirdiyiniz ali missiyada yeni-yeni uğurlar diləyirəm.

Sizi həmçinin qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

*Dərin hörmətlə,*

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsindəki çoxşaxəli fəaliyyətiniz Sizin görkəmli dövlət, siyasi və beynəlxalq xadim kimi böyük istedadınızı üzə çıxarıb.

Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi, sosial və mədəni inkişaf strategiyasının ardıcıl və qətiyyətlə həyata keçirilməsi Sizə nüfuz, eyni zamanda xalqın hörmətini, etimadını, məhəbbətini qazandırıb.

Yüksək peşəkarlığınız, zəngin həyat təcrübəniz, ən mürəkkəb vəziyyətlərdə siyasi kompromislər tapmaq bacarığınız, çoxmillətli Azərbaycan vətəndaşlarının maraqlarına xidmət edən sosial siyasətin ardıcıl şəkildə həyata keçirilməsi beynəlxalq aləmdə yüksək nüfuz qazanmağınıza imkan verib.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanın rifahı naminə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsində yeni uğurlar, əmin-amanlıq, sülh və tərəqqi arzulayır, həmçinin yaxınlarınıza ən xoş diləklərimi yetirirəm.

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti,***
***Sovet İttifaqı Qəhrəmanı***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və bütün xeyirxah təşəbbüslərinizdə Uca Allahdan xeyir-dua diləyirəm.

Rusiya müsəlmanları hörmətlə və ən səmimi arzularla Sizə ünvanlanan çoxsaylı təbriklərə qoşulurlar.

Sizin rəhbərliyinizlə qardaş xalqımızın qazandığı uğurları və nailiyyətləri, siyasi kursunuzun müdrikliyini və uzaqgörənliyini, Azərbaycan Respublikasının iqtisadiyyatının, elminin və mədəniyyətinin hərtərəfli inkişafını sevinclə qeyd edirik.

Bu nailiyyətlər Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutduğunu, ölkənin və onun xalqının gələcəyinin də təhlükəsiz olacağını bəyan etməyə imkan verir.

Sizin rəhbərliyinizlə Azərbaycan monolit cəmiyyətin bərabər hissələri olan müxtəlif dinləri və mədəniyyətləri birləşdirən bir ölkəyə çevrilib. Ölkənin möhkəmlənməsinə töhfə verəcək dinlərarası və millətlərarası dialoqa şəxsi diqqətinizi sevinc hissi ilə vurğulayırıq. Azərbaycan Respublikası və Rusiya Federasiyasında müsəlman xalqların ənənəvi dini olan islamın dirçəldilməsi işinə göstərdiyiniz davamlı qayğıya görə xüsusi minnətdarlığımızı bildiririk. Azərbaycan xalqının mütləq lideri kimi arzularınız və qayğılarınız bizim üçün çox əzizdir.

Ümidvaram ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası bundan sonra da iqtisadiyyatını və beynəlxalq mövqelərini ardıcıl, məqsədyönlü şəkildə gücləndirməyə davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Uca Allahdan Sizə və bütün Azərbaycan xalqına firavanlıq və rifah, tükənməz enerji, mühüm işlərinizdə Yaradanın xeyir-duasını diləyirəm.

*Hörmətlə və xoş dualarla,*

***Baş müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Beynəlxalq Müsəlman Forumunun baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının müasir inkişafı, dövlətçiliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun yüksəldilməsi və davamlı sosial-iqtisadi tərəqqisi Sizin liderliyinizlə sıx bağlıdır.

Sizin rəhbərliyinizlə Azərbaycan milli maraqlara, suverenliyə və ardıcıl inkişafa əsaslanan strateji kursu davam etdirir.

Vətəndaşların rifahının daha da yaxşılaşdırılmasına, idmanın inkişafının dəstəklənməsinə və inklüziv cəmiyyətin təşviqinə yönəlmiş ardıcıl sosial siyasətiniz xüsusilə təqdirəlayiqdir. Paralimpiya hərəkatına, eləcə də əlilliyi olan şəxslərin hüquqlarının qorunmasına və sosial inteqrasiyasına göstərilən diqqət dövlət siyasətinə irəliyə doğru istiqamətlənmiş və insan mərkəzli yanaşmanı əks etdirir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlqar RƏHİMOV,***
***Beynəlxalq Gözdən Əlillər İdman Federasiyasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident, türk dünyasının fəxri və qalib sərkərdəsi!

Sizi doğum gününüz münasibətilə Türk Dünyası Mediatorlar Birliyi adından səmimi-qəlbdən təbrik edirəm. Türkdilli dövlətlərin mediasiya birlikləri və mediatorları adından Sizə, ailə üzvlərinizə uzun ömür, möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikasında bütün istiqamətlərdə həyata keçirdiyiniz islahatlar, o cümlədən mediasiya sahəsindəki yeniliklər yalnız ölkə daxilində deyil, dünya miqyasında və türkdilli dövlətlərdə də müsbət əks-səda doğurur və öyrənilir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasındakı tarixi imzanız təkcə türk dünyasının deyil, bütün bəşəriyyətin tarixinə qızıl hərflərlə yazılmışdır.

Türk Dövlətləri Birliyi çərçivəsində gördüyünüz işlərin nəticəsində türkdilli dövlətlər arasında iqtisadi, hüquqi və digər sahələrdə əməkdaşlıq imkanları genişlənmişdir. Sizin siyasi iradəniz və davamlı siyasətiniz bu gün türkdilli dövlətlərin peşə birlikləri üçün böyük motivasiya mənbəyidir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla dostluq münasibətləriniz və türk dünyası siyasətindəki vahid mövqeyiniz bizim peşə fəaliyyətimizin inkişafına mühüm töhfələr verir. Sizin siyasətinizdə Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" ideyası bu gün də uca tutulur.

Məhz bu işlərin nəticəsidir ki, Türkiyə Respublikasının Prezidenti Türk Dünyası Mediatorlar Birliyinin təsis edilməsi və beynəlxalq səviyyədə fəaliyyət göstərməsi ilə bağlı sərəncam imzalamışdır.

Möhtərəm cənab Prezident, bu nailiyyətlərin əldə olunmasında Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən hüquqi islahatların mühüm rolu vardır. Xüsusilə Sizin imzaladığınız "Mediasiya haqqında" qanun bu işlərə əlavə dəyər qatmışdır. Bu qanun əsasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Mediasiya Şurası türk dünyasında və beynəlxalq arenada nümunəvi qurum kimi təqdim olunur. Azərbaycanın təcrübəsi artıq Özbəkistan və Qırğızıstan tərəfindən öyrənilərək bu ölkələrin qanunvericiliyində də tətbiq edilmişdir. Türkiyədə isə 45 minlik mediasiya icması Azərbaycan modelini diqqətlə izləyir və gələcəkdə bu təcrübənin Türkiyə qanunvericiliyinə gətirilməsi planlaşdırılır.

Sizin gördüyünüz işlər sayəsində Azərbaycan istinad edilən mərkəzə çevrilmişdir. Bütün tədbirlərimizdə Azərbaycan türk dünyasının əsas dayaqlarından biri kimi qəbul olunur.

Möhtərəm cənab Prezident, türk dünyasında belə bir atalar sözü vardır: "Əgər bir insan qızmar günəş altında bir ağacın kölgəsində rahatlıq tapırsa, deməli yüz il, min il əvvəl bu ağacı kimsə əkmişdir". Bu hikmətdən çıxış edərək xüsusi vurğulayıram ki, Sizin doğum gününüz bütün türk dünyası üçün əlamətdardır. Sizin varlığınız və liderliyiniz bütün istiqamətlərdə yol açmış və bu yola işıq salmışdır. Biz hamımız bu işıqla irəliyə doğru addımlayırıq.

Biz türk dünyasının dahi liderlərindən olan Ulu Öndər Heydər Əliyevin xatirəsini hər zaman uca tuturuq. Onun tarixi xidmətləri bizim üçün nümunədir. Türk Dünyası Mediatorlar Birliyi bütün tədbirlərində Heydər Əliyevin xatirəsini hörmətlə yad edir. Bu, bizim keçmişimizə və dahi şəxsiyyətlərimizə verdiyimiz dəyərin bariz nümunəsidir. Siz qədim türk ənənələrində olduğu kimi, ailəyə, ata vəsiyyətinə, dostluğa verdiyiniz dəyərlə nümunəvi lider, nümunəvi ata və ailə başçısısınız. Qarabağın işğaldan azad olunması ilə ata vəsiyyətini yerinə yetirməyiniz bizi hər zaman duyğulandırır.

Fürsətdən istifadə edərək, Sizi bir daha əmin etmək istəyirəm ki, biz hər zaman Sizin tutduğunuz yola və apardığınız siyasətə uyğun olaraq fəaliyyətimizi davam etdirəcəyik. Siz təkcə Azərbaycanda deyil, türk dünyasında və beynəlxalq aləmdə yüzlərlə ilklərin müəllifisiniz.

Sizə möhkəm cansağlığı arzulayıram. Sizin liderliyinizlə irəliləmək hər zaman bizim üçün böyük şərəfdir.

*Dərin hörmətlə,*

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan zati-alinizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf duyuruq.

Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı kimi onun vəsiyyətlərini yerinə yetirmisiniz. Sizin liderliyinizlə Azərbaycanımız müasir və uğurlu bir dövlətə çevrilmiş, beynəlxalq aləmdə öz rolunu və nüfuzunu inamla artıraraq mühüm nəticələrə, o cümlədən ərazi bütövlüyünün tam bərpasına və möhkəmləndirilməsinə nail olmuşdur.

Xalqlarımızın dostluğunun və Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı dəstəyə, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın möhkəmləndirilməsinə Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi töhfənizin Ukraynada yüksək qiymətləndirilməsi daim bizdə böyük şərəf və fərəh hissi doğurur.

Zati-aliləri cənab Prezident, icazə verin, Sizi bir daha ürəkdən təbrik edək, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, ailə üzvlərinizə, əziz soydaşlarımız olan Azərbaycan xalqına davamlı rifah, sülh, tərəqqi arzulayaq.

*Dərin hörmət və məhəbbətlə,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının rəhbəri, Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin Konstitusiya, beynəlxalq hüquq və ictimai-hüquqi fənlər kafedrasının professoru, hüquq elmləri doktoru, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə ölkəmiz 2025-ci ildə də qürur mənbəyi olan böyük uğurlar əldə etdi. Xüsusilə avqustun 8-də Vaşinqtonda, Ağ Evdə keçirilmiş tarixi görüşlər, Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması və digər razılaşmaların əldə olunması xüsusi qeyd edilməlidir.

Azərbaycan Respublikasının beynəlxalq müstəvidə öz sözünü qətiyyətlə deməsi, milli maraqlarımızın ardıcıl şəkildə müdafiəsi və ölkəmizin dünya tərəfindən sülhsevər, güclü bir dövlət kimi qəbul edilməsi məhz Sizin siyasi iradəniz nəticəsində mümkün olmuşdur.

Bu il həmçinin tarixi Zəfərimizin beşilliyini də böyük iftixar hissi ilə qeyd etdik.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb, eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız arasında birlik möhkəmlənib, Vətən sevgisi daha da artıb. Biz, ABŞ-də yaşayan azərbaycanlılar bunu xüsusilə hiss edirik. Vətəndən uzaqda olsaq da, Sizin liderliyiniz bizim üçün qürur və güc mənbəyidir. Sizin həyata keçirdiyiniz siyasətə inamımız sarsılmazdır və biz bu yolda hər zaman yanınızdayıq.

Fürsətdən istifadə edərək "Konstitusiya və Suverenlik İli"nin sonu ərəfəsində Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, 2026-cı ildə Sizə yeni zəfərlər, xalqımıza davamlı sülh və firavanlıq diləyirik.

*Hörmətlə,*

***Samir NOVRUZOV,***
***ABŞ-Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq. Bu əlamətdar gündə biz yalnız dövlət başçısına deyil, artıq 22 ildir Azərbaycan xalqı üçün qürur mənbəyinə, güc, iradə və qətiyyət rəmzinə çevrilmiş böyük Liderə ehtiramımızı bildiririk.

Qlobal miqyasda mürəkkəb dəyişikliklərin baş verdiyi, təzyiq və çağırışların artdığı taleyüklü mərhələlərdə Sizin siyasi iradəniz və davranış modeliniz gənc nəsil üçün əsl rəhbərlik nümunəsinə çevrilmişdir. Siz öz mövqeyinizlə göstərdiniz ki, çətinliklər qarşısında möhkəm dayanmaq, Vətənə sədaqəti populist sözlərlə deyil, məsuliyyət və ləyaqətlə ifadə etmək, eləcə də beynəlxalq münasibətlərdə güc nisbətləri dəyişərkən prinsipiallıqdan və mənəvi bütövlükdən geri çəkilməmək milli liderliyin əsas mahiyyətidir.

Qlobal siyasi qüvvələrin ölkəmizin haqq işinə münasibətinin birmənalı olmadığı, həqiqətlərin kölgədə qaldığı dövrlərdə belə Siz ədalətə olan inamınızı heç vaxt sarsıtmadınız, güzəşti prinsipdən üstün tutmadınız. Torpaqlarımızın işğaldan azad olunacağına, tarixi ədalətin bərpa ediləcəyinə olan sarsılmaz inamınız yalnız dövlət siyasətinin əsasını təşkil etmədi, eyni zamanda bütöv bir nəslin dünyagörüşünü formalaşdırdı.

Bu gün Azərbaycanda və dünyanın müxtəlif ölkələrində, o cümlədən Böyük Britaniyada yaşayan azərbaycanlılar üçün Siz strateji uzaqgörənlik və milli məsuliyyət nümunəsinin simvolusunuz. Sizin liderliyiniz sübut etdi ki, rəhbərlik emosional reaksiyalarla deyil, müdrikliklə, güzəştlərlə deyil, qətiyyət və inamla ölçülür. Sizin milli birliyə və tarixi ədalətə sadiqliyiniz xalqımızda öz gücünə və gələcəyinə inam yaratdı. Siz bir daha göstərdiniz ki, Vətəni sevmək onun ləyaqətini qorumaq, insanına sərmayə qoymaq və layiq olduğu mövqeyi dünya miqyasında təmin etməkdir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edib Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də ürəkdən təbrik edirik. Bu müstəsna tarix dünya azərbaycanlılarının milli birliyinin, mənəvi bütövlüyünün və Vətənə sarsılmaz bağlılığının parlaq təcəssümüdür. Məhz Sizin uzaqgörən və məqsədyönlü rəhbərliyiniz sayəsində bu həmrəylik daha da güclənmiş, dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün milli qürur, mənəvi dayaq və güvən mənbəyinə çevrilmişdir.

Yeni ilin ölkəmizə davamlı sülh və əmin-amanlıq, xalqımıza daha yüksək rifah və inkişaf gətirməsini, Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsini diləyirik. Arzu edirik ki, bu Yeni il də Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə dövlətçiliyimizin daha da möhkəmlənməsi, milli maraqlarımızın etibarlı şəkildə qorunması və gələcək nəsillərin firavanlığı naminə yeni və tarixi nailiyyətlərlə yadda qalsın.

*Ən dərin hörmətlə,*

***Fəridə PƏNAHOVA,***
***Britaniya Azərbaycan Cəmiyyətinin rəhbəri və "Qarabağ" məktəbinin təsisçisi***

❖ ❖ ❖

Cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə şərəfli və məsuliyyətli fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizin rəhbərliyinizlə Azərbaycan böyük inkişaf yolu keçmiş, tarixi nailiyyətlər qazanmışdır. Təbii ki, ən böyük uğurlardan biri uzun illər işğal altında qalmış Qarabağın azad edilməsidir. Bu tarixi hadisə Azərbaycan xalqına böyük sevinc və qürur hissi yaşatmaqla yanaşı, dünyada soyqırımına məruz qalmış, torpaqlarını itirmiş bütün çarəsiz insanlar üçün bir ümid işığı olmuşdur.

Sizin Azərbaycan xalqını "dəmir yumruq" kimi ətrafınızda sıx birləşdirərək qətiyyət və iradənizlə bu Zəfəri qazanmağınız Ulu Öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlamının nə qədər dərin məna kəsb etdiyini bir daha göstərdi.

Cənab Prezident, Sizi həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, zati-alinizə cansağlığı, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

Sizə dərin hörmət və ehtiramımı ifadə edirəm.

***Volkan AYDƏMİR,***
***Türkiyədə fəaliyyət göstərən Dərincə Azərbaycan Evi Dərnəyinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim və ən xoş arzularımı çatdırmaqdan böyük şərəf hissi duyduğumu bildirim.

Sizin müdrik siyasətiniz və prinsipial mövqeyiniz nəticəsində Azərbaycanımızın ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Ölkəmizin gündən-günə artan hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun möhkəmlənməsi və dünya siyasi arenasında Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsi bilavasitə Sizin adınızla bağlıdır.

Cənab Prezident, Sizin güclü siyasi iradəniz nəticəsində Ermənistan rəhbərliyi sülhə doğru addımlar atmağa məcbur olmuşdur. Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması Cənubi Qafqazda sabitliyə, inkişafa, əmin-amanlığa və regionda yeni kommunikasiya xətlərinin açılmasına geniş imkanlar yaradır.

"Konstitusiya və Suverenlik İli"ndə, avqustun 8-də, tarixi Zəfərimizin beşinci ildönümü ərəfəsində Ağ Evdə ABŞ Prezidenti ilə keçirilmiş görüş Sizin müdrik liderliyinizin və uzaqgörən siyasətinizin təntənəsi olaraq Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlıq əlaqələrinin yeni mərhələyə yüksəlməsinə zəmin yaratmışdır.

Hörmətli cənab Prezident, biz, Gürcüstanda yaşayan azərbaycanlılar xalqımızın əbədiyaşar lideri, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə sadiq qalaraq Sizin tərəfinizdən daim göstərilən hərtərəfli diqqət və qayğını böyük minnətdarlıq hissi ilə qarşılayırıq. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının qazandığı uğurlar, dövlətimizin beynəlxalq nüfuzunun artması və dünya azərbaycanlılarına göstərilən davamlı dəstək bizi sonsuz dərəcədə qürurlandırır. Biz hər zaman milli kimliyimizi, dilimizi və mədəniyyətimizi qoruyub saxlayaraq Odlar Yurdu Azərbaycanla fəxr edirik.

Əminik ki, Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycan dövləti bundan sonra daha böyük zirvələr fəth edəcək, dünya azərbaycanlılarının həmrəyliyi daha da möhkəmlənəcəkdir.

Cənab Prezident, Sizi bir daha doğum gününüz, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür, məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni-yeni zəfərlər, ailənizə rifah və səadət, müdrik Azərbaycan xalqına isə davamlı sülh, xoşbəxt və firavan həyat diləyirəm.

Biz birlikdə güclüyük!

*Dərin hörmət və ehtiramla,*

***Məhəbbət İMANOV,***
***Gürcüstandakı "Azərbaycan Evi"nin direktoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurası adından səmimi-qəlbdən təbrik edir, zati-alinizə ən xoş arzularımızı çatdırıram.

Sizin qətiyyətiniz, möhkəm siyasi iradəniz, uzaqgörən diplomatiyanız və prinsipial mövqeyiniz nəticəsində Azərbaycanın milli maraqları beynəlxalq müstəvidə ardıcıl şəkildə və uğurla təmin olunur. Zəngəzur dəhlizi ilə bağlı strateji qərarların qəbul edilməsi, ATƏT-in Minsk qrupunun fəaliyyətinə son qoyulması və 907-ci düzəlişin tətbiqinin dayandırılması ölkəmizin ədalətli mövqeyinin möhkəmlənməsinə mühüm töhfədir. Bu uğurlar dünya azərbaycanlıları üçün böyük qürur mənbəyidir.

Cənab Prezident, Sizi, eyni zamanda qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirəm.

Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurasının üzvləri Sizin rəhbərliyinizlə Azərbaycanın daha böyük nailiyyətlər əldə edəcəyinə dərin inam ifadə edir və hər zaman dövlətimizin yanında olduqlarını bildirirlər.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Sahil QASIMOV,***
***Niderland Krallığında fəaliyyət göstərən Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurasının baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Finlandiya Azərbaycanlıları Assosiasiyasının həmsədrləri olaraq Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə dərin hörmət və ehtiramımızı ifadə edirik.

Sizin müdrik rəhbərliyiniz, ardıcıl və prinsipial siyasətiniz nəticəsində Azərbaycan öz suverenliyini və milli maraqlarını beynəlxalq müstəvidə qətiyyətlə qoruyur. Zəngəzur dəhlizi ilə bağlı strateji baxışın formalaşdırılması, ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsi və 907-ci düzəlişin tətbiqinin dayandırılması ölkəmizin haqq işinin beynəlxalq səviyyədə qəbul olunmasının bariz nümunəsidir. Bu nailiyyətlər xaricdəki bütün azərbaycanlılar kimi, Finlandiyada yaşayan soydaşlarımız üçün də böyük qürur mənbəyi və mənəvi dayaqdır.

Biz Sizin rəhbərliyinizlə Azərbaycanın daha güclü və qüdrətli gələcəyə doğru inamla irəlilədiyinə əminik və hər zaman dövlətimizin yanında olduğumuzu bəyan edirik.

Eyni zamanda Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Vasif MURADLI və Arzu OQTAY,***
***Finlandiya Azərbaycanlıları Assosiasiyasının həmsədrləri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Moldova Azərbaycanlıları Konqresi adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq. Azərbaycan Respublikasının müdrik və uzaqgörən rəhbəri kimi Sizə ölkənin suverenliyinin, beynəlxalq nüfuzunun möhkəmlənməsində və davamlı inkişafında əvəzolunmaz xidmətlərinizə görə minnətdarlığımızı bildirir, dərin hörmət və ehtiramımızı ifadə edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan tərəqqi və yenilənmə yolunda inamla irəliləyir: azad edilmiş ərazilərin bərpası və inkişafı üçün genişmiqyaslı proqramlar ardıcıl olaraq həyata keçirilir, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin sosial-iqtisadi inteqrasiyası sürətlənir və müasir infrastruktur qurulur ki, bu da ölkə tarixində yeni bir səhifə açır. Eyni zamanda Azərbaycan regional sabitliyin əsas amili, enerji təhlükəsizliyində etibarlı tərəfdaş və Şərqlə Qərbi birləşdirən beynəlxalq nəqliyyat və logistika dəhlizlərində həyati əhəmiyyət kəsb edən bir əlaqə kimi mövqeyini möhkəmləndirib.

Milli maraqların qorunmasına, ədalət və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ardıcıl xarici siyasətiniz, eləcə də dünyanın aparıcı güc mərkəzləri ilə inamlı və bərabər dialoq aparmaq bacarığınız harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıda qürur hissi yaradır.

Moldovadakı Azərbaycan diasporu Vətənin uğurlarını xüsusi sevinc hissi ilə izləyir və xaricdəki həmvətənlərimizə göstərdiyiniz diqqəti yüksək qiymətləndirir. Bizim üçün Siz güclü, müstəqil və müasir Azərbaycanın simvolu, qürur mənbəyi və birləşdirici qüvvəsisiniz, milli kimliyi və Vətənə mənəvi bağları gücləndirirsiniz.

Hörmətli cənab Prezident, davamlı yüksək sədaqətimiz və səmimi dəstəyimizlə hər zaman yanınızdayıq.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, uzun ömür, Azərbaycanın və xalqımızın rifahı naminə yeni nailiyyətlər arzulayırıq. Qoy yorulmaz fəaliyyətiniz ölkəmiz üçün böyük qələbələr, davamlı sülh, sabitlik və rifahla əlamətdar olsun!

Cənab Prezident, Sizi həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik. 2026-cı ildə Sizə yeni-yeni nailiyyətlər arzulayırıq.

*Səmimi hörmətlə və ən xoş arzularla,*

***Elçin BAYRAMOV,***
***Moldova Azərbaycanlıları Konqresinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikası dövlət quruculuğunda, iqtisadi inkişafda və beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsində böyük uğurlar qazanıb. Ölkənin tərəqqisinə və xalqın rifahına yönəlmiş çoxşaxəli səyləriniz Sizə təkcə Azərbaycanda deyil, həm də onun hüdudlarından kənarda dərin hörmət qazandırıb.

Siz Müzəffər Ali Baş Komandan kimi müasir tarixdə və milyonlarla insanın qəlbində xüsusi yer tutursunuz. Strateji komandanlığınızla 44 günlük Vətən müharibəsində tarixi ədalət və Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Bu möhtəşəm Qələbə yenilməz ruhun, milli birliyin və beynəlxalq hüququn təntənəsinin simvoluna çevrilib, adınızı xilaskar Lider kimi tarix salnaməsinə əbədi olaraq həkk edib.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, tükənməz enerji, xoşbəxtlik və ölkənizin əmin-amanlığı, tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

*Dərin hörmətlə,*

***Lev SPİVAK,***
***"Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının sabiq prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Sizi Avstraliya Azərbaycan Assosiasiyaları Alyansı adından doğum gününüz münasibətilə dərin ehtiramla təbrik etməkdən böyük şərəf duyuruq. Sizin qətiyyətli liderliyiniz, milli maraqların müdafiəsi üçün nümayiş etdirdiyiniz yüksək siyasi iradə və müasir dövrün tələblərinə uyğun olaraq formalaşdırdığınız dövlətçilik strategiyası dünya azərbaycanlıları üçün hər zaman nümunə olmuşdur.

Zati-alinizin həyata keçirdiyi uğurlu siyasət nəticəsində bu il Azərbaycan xalqı Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beşinci ildönümünü xüsusi qürurla qeyd etdi. İkinci Qarabağ müharibəsində əldə edilən tarixi Qələbə, dövlətimizin suverenliyinin bərpası və ərazi bütövlüyünün təmin edilməsi birmənalı şəkildə Sizin adınızla bağlıdır və xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. Bu tarixi Zəfər Azərbaycan diasporunun fəaliyyətinə yeni motivasiya, milli birlik düşüncəsinə isə yeni məna qazandırmışdır. Avstraliyada yaşayan soydaşlarımız bu gün həm dövlətçilik, həm mədəniyyət, həm də milli kimlik baxımından daha mütəşəkkil şəkildə bir araya gəlirlər. Bu proses Sizin rəhbər ideyalarınız, xüsusilə də diaspor işinin institusional səviyyədə inkişafına verdiyiniz strateji dəstək nəticəsində mümkün olmuşdur.

Hörmətli cənab Prezident, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Avstraliya Azərbaycan Assosiasiyaları Alyansı olaraq bildiririk ki, milli maraqlar naminə həyata keçirdiyiniz fəaliyyətlər diasporumuz tərəfindən xüsusi minnətdarlıqla qarşılanır. Azərbaycançılıq ideyasının müasir dövrdə qorunması, inkişafı və beynəlxalq müstəvidə təbliği istiqamətində verdiyiniz töhfələr bizim üçün həm etalondur, həm də məsuliyyət mənbəyidir.

Fürsətdən istifadə edərək, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə zati-alinizə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq. Yeni ilin dövlətimizin daha da güclənməsinə və qüdrətlənməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, xalqımızın rifahının yüksəlməsinə və sülhün möhkəmlənməsinə xidmət edən yeni mərhələnin başlanğıcı olmasını arzu edirik.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, Azərbaycanın daha parlaq gələcəyi naminə ali dövləti fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə və ehtiramla,*

***Fuad AYDINBƏYZADƏ,***
***Avstraliya Azərbaycan Assosiasiyaları Alyansının prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident, cənab Ali Baş Komandan!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə "Konstitusiya və Suverenlik İli"ni uğurla başa vurur. Bu il ölkəmizin qazandığı mühüm nailiyyətlərlə yadda qalır. Bütün uğurların əsasında Sizin əzmkarlığınız, qətiyyətiniz, uzaqgörən siyasətiniz durur. Bu siyasət sayəsində Azərbaycanın regionda, eləcə də dünyada artan nüfuzunu görməkdən böyük məmnunluq duyuruq.

Bu il biz, tariximizin ən parlaq səhifəsi olan şanlı Zəfərimizin beşinci ildönümünü böyük fərəh hissi ilə qeyd etdik. Bu tarixi Qələbəni bizə bəxş etdiyinizə görə Sizə minnətdarıq.

Biz, Kanadada yaşayan azərbaycanlılar Sizinlə fəxr edirik. Azərbaycan xalqının birliyi, xoşbəxt gələcəyi naminə müəyyən etdiyiniz, həyata keçirdiyiniz səmərəli daxili və xarici siyasəti dəstəkləyirik.

Cənab Prezident, Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik. Sizə cansağlığı, ailə səadəti, Azərbaycanın daha parlaq gələcəyi, xalqın rifahı naminə şərəfli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Yaşar Pur ƏLİ,***
***Kanadada fəaliyyət göstərən "Az Media Group"un rəhbəri***

# Bakıda Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın iclası keçirilib





**Dekabrın 22-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasdan əvvəl Azərbaycanın Baş naziri Əli Əsədov və Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz arasında təkbətək görüş olub.

Sonra Ə.Əsədov və C.Yılmazın həmsədrliyi və hər iki ölkənin müvafiq dövlət qurumlarının rəhbərliyinin iştirakı ilə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirilib.

İclasda qeyd olunub ki, Azərbaycan ilə Türkiyəni dərin tarixi və mədəni köklər üzərində qurulmuş möhkəm dostluq, qardaşlıq münasibətləri birləşdirir.

2021-ci il iyunun 15-də prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış tarixi Şuşa Bəyannaməsinin ikitərəfli münasibətləri müttəfiqliyin ən yüksək zirvəsinə qaldırdığı bildirilib.

Dövlət başçıları arasındakı şəxsi münasibətlərin və sıx təmasların strateji tərəfdaşlığın ardıcıl inkişafını təmin edən əsas amil olduğu diqqətə çatdırılıb.

Təkcə bu il prezidentlərin 7 qarşılıqlı səfərinin baş tutduğu vurğulanıb.

Prezident İlham Əliyevin iyunun 19-da Türkiyəyə səfəri zamanı Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılış mərasiminin keçirildiyi, Prezident Rəcəb Tayyib Ərdoğanın isə noyabrın 8-də Bakıda Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi paradda iştirak etdiyi xatırlanıb. Bütün bunların siyasi dialoqun yüksək səviyyəsinin göstəricisi olduğu qeyd edilib.

Azərbaycan ilə Türkiyə arasında beynəlxalq təşkilatlar çərçivəsində mövcud olan ənənəvi sıx əməkdaşlıqdan və qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub.

Türk Dövlətləri Təşkilatının hər iki ölkə üçün xüsusi əhəmiyyətə malik olduğu vurğulanaraq, prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın türk dünyasının birliyi və Türk Dövlətləri Təşkilatının (TDT) beynəlxalq aləmdə nüfuzunun artırılması üçün əzmkar fəaliyyət göstərdikləri bildirilib.

Bu ilin oktyabrında Qəbələdə TDT-nin 12-ci Zirvə Görüşünün təşkil olunduğu və sədrliyin Azərbaycana keçdiyi xatırlanıb, sədrliyimiz dövründə təşkilatın öz inkişafını davam etdirəcəyinə və nüfuzunu daha da artıracağına əminlik ifadə edilib.

Bu il TDT-də yeni formatın - Hökumət başçılarının/vitse-prezidentin görüşünün yaradıldığı, Qırğızıstanda keçirilən ilk görüşdən sonra Azərbaycanın 2026-cı ildə növbəti iclasa evsahibliyi edəcəyi diqqətə çatdırılıb.

İqtisadi-ticari sahədə ikitərəfli əlaqələrə toxunularaq, Türkiyənin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğu qeyd edilib. Bildirilib ki, hər iki ölkənin mövcud iqtisadi potensialı və coğrafi üstünlükləri ticarət dövriyyəsinin həcmini daha yüksək səviyyəyə qaldırmaq üçün real imkanların mövcud olduğunu göstərir.

Preferensial Ticarət Sazişinin nəticələrinin təhlil edilərək əhatə dairəsinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

İnvestisiya sahəsində əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olunub.

Azərbaycanla Türkiyənin enerji sahəsində birgə reallaşdırdıqları meqalayihələrin böyük regional və qlobal əhəmiyyət daşıdığı bildirilib.

"Cənub qaz dəhlizi"nin strateji önəmi vurğulanaraq, son aylarda Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayının 14-ə çatdığı, onlardan 10-nun Avropa ölkəsi olduğu bildirilib.

Birgə səylərlə artıq Suriyaya qaz nəqlinə başlanıldığı, ilk dəfə olaraq Türkiyə ərazisindən keçməklə Azərbaycan qazının Yaxın Şərq regionuna çatdığı vurğulanıb.

Cari ilin martında istismara verilən İğdır-Naxçıvan təbii qaz boru kəmərinin Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyini gücləndirdiyi diqqətə çatdırılıb.

Elektrik enerjisi sahəsində də qarşılıqlı faydalı əməkdaşlığın qurulduğu bildirilərək, bu gün Naxçıvan-Türkiyə enerji qovşağı layihəsi üzərində fəal işin aparıldığı qeyd edilib. Vurğulanıb ki, Naxçıvanın bərpaolunan enerji potensialından istifadə edilərək Türkiyə və Avropa istiqamətində "yaşıl enerji"nin ixracı hədəflər sırasındadır.

Nəqliyyat sahəsi Azərbaycan-Türkiyə əməkdaşlığının prioritet istiqamətlərindən biri kimi dəyərləndirilib. İki ölkə arasında avtomobil və dəmir yolları nəqliyyatı ilə yükdaşımalar sahəsində əməkdaşlıq üzrə aktual məsələlər müzakirə olunub.

Orta dəhlizin mühüm halqası olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyətinin ötən il Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artırıldığı vurğulanıb. Ə.Əsədov BTQ dəmir yoluna əlavə yük axınlarının cəlb olunması üçün səylərin artırılmasının önəmini qeyd edib.

Orta dəhlizin inkişafının hər iki ölkə üçün strateji əhəmiyyət kəsb etdiyi bildirilib.

Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi üzrə Vaşinqtonda əldə edilmiş razılaşmaların əhəmiyyəti qeyd olunub.

İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik olacaq Zəngəzur dəhlizinin Orta dəhlizin əsas xəttinə çevriləcəyi diqqətə çatdırılıb. Avqustda Zəngəzur dəhlizinin bir hissəsi olan Qars-İğdır-Aralık-Dilucu dəmir yolu xəttinin təməlinin qoyulmasının əhəmiyyəti vurğulanıb.

Azərbaycanın və Türkiyənin, həmçinin humanitar əlaqələrə böyük əhəmiyyət verdikləri bildirilib, təhsil sahəsində əməkdaşlığa xüsusi diqqət yetirilib.

2024-2025-ci tədris ilindən fəaliyyətə başlayan Türkiyə-Azərbaycan Universiteti (TAU) təhsil sahəsində uğurlu əməkdaşlığın bariz nümunəsi kimi səciyyələndirilib.

Bu ilin sentyabrında Bakıda Türk Anadolu Liseyinin yeni filialının açılmasından məmnunluq ifadə olunub, növbəti tədris ilindən İstanbulda da Azərbaycan məktəbinin yaradılacağı diqqətə çatdırılıb.

Peşə təhsili sahəsində əməkdaşlığın nəticələri yüksək qiymətləndirilib, bu sahədə Türkiyə təcrübəsinin ölkəmiz üçün faydalı olacağına ümidvarlıq ifadə edilib.

Eyni zamanda ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahələrində də əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Ə.Əsədov Türkiyənin COP31-in ev sahibi seçilməsi münasibətilə C.Yılmaza təbriklərini çatdırıb, tədbirə hazırlıq prosesində Azərbaycanın qardaş ölkəyə hərtərəfli dəstək göstərməyə hazır olduğu diqqətə çatdırılıb.

İclasda hər iki ölkənin nümayəndə heyətlərinin üzvlərinin gündəlikdə duran məsələlərə dair məruzələri dinlənilib.

Sonda Baş nazir Əli Əsədov və vitse-prezident Cevdet Yılmaz Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının protokolunu imzalayıb, ikitərəfli əməkdaşlığın aktual sahələrini əhatə edən 110-bəndlik Fəaliyyət Planını təsdiqləyiblər.

# Milli Məclisin Sədri Monteneqro Baş nazirinin müavini ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 20-də Monteneqro Baş nazirinin müavini, xarici işlər naziri Ervin İbrahimoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Monteneqro arasında mövcud dostluq və tərəfdaşlıq münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Milli Məclisin Sədri bu səfərin iki ölkə arasında qurulmuş səmimi münasibətlərin və fəal siyasi dialoqun daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynadığı vurğulanaraq, ikitərəfli gündəliyin nəzərdən keçirilməsi baxımından əhəmiyyəti qeyd edilib. Bu çərçivədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ildə Monteneqroya rəsmi səfəri, eləcə də Monteneqro Prezidenti Yakov Milatoviçin 2024-cü ilin noyabrında COP29 çərçivəsində ölkəmizə səfəri və Prezident İlham Əliyevlə keçirdiyi görüşün iki ölkə arasındakı dostluq münasibətlərinin inkişafına mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

Görüşdə ikitərəfli gündəliyin müxtəlif aspektləri ilə yanaşı, ölkələr arasında iqtisadiyyat, turizm, investisiya və digər sahələrdə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Aktiv və konstruktiv siyasi dialoqun əməkdaşlığın digər sahələri üçün də yeni imkanlar yaratdığı vurğulanıb. Eyni zamanda xalqları bir-birinə yaxınlaşdıran mühüm istiqamətlər kimi humanitar və mədəni əməkdaşlığın da vacibliyi qeyd olunub.

Parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərin mühüm tərkib hissəsi olduğu vurğulanaraq, parlament diplomatiyasının roluna xüsusi diqqət yetirilib. Parlamentin spikeri 2024-cü ilin aprelində Monteneqroya rəsmi səfərini və bu ölkədə keçirdiyi yüksəksəviyyəli görüşləri məmnunluqla xatırladaraq, Monteneqro parlamentinin sədrlərinin müxtəlif dövrlərdə Azərbaycana səfərlərindən bəhs edib. Parlamentin spikeri, qanunverici orqanlar arasında təmasların, qarşılıqlı səfərlərin və parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının fəaliyyətinin əhəmiyyətini vurğulayıb, belə təmasların parlamentlərarası dialoqun inkişafında mühüm rol oynadığını bildirib. Bununla yanaşı, parlamentlərin profil komitələri arasında qanunvericilik sahəsində təcrübə mübadiləsinin, eləcə də beynəlxalq parlament təşkilatları çərçivəsində qarşılıqlı dəstəyin gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Monteneqro Baş nazirinin müavini, xarici işlər naziri Ervin İbrahimoviç ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirib, iki ölkə arasında sıx siyasi dialoqu yüksək qiymətləndirib. O, ötən il Milli Məclis Sədrinin Monteneqroya səfərinə görə təşəkkürünü bildirərək, bu səfərin ikitərəfli münasibətlərin inkişafına verdiyi töhfəni qeyd edib.

2019-cu ildə Azərbaycanın Monteneqroya ən iri investisiya yatıran ölkə olduğunu bildirən qonaq, dövlətlərarası əlaqələrin inkişafında turizm sahəsinin özünəməxsus yer tutduğunu deyib. Ervin İbrahimoviç bu sahədə əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların mövcud olduğunu vurğulayıb.

***"Azərbaycan"***

# Ceyhun Bayramov Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi ilə görüşüb

**Dekabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Mülki Müdafiə Təşkilatının (ICDO) baş katibi Ərgüc Kələntərlini qəbul edib.**



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov cari ildə Bakı şəhərində keçirilmiş Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası çərçivəsində ilk dəfə olaraq ölkəmizin nümayəndəsi kimi Ərgüc Kələntərlini təşkilatın baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, bu seçimin Azərbaycanın beynəlxalq nüfuzunun və mülki müdafiə sahəsində artan rolunun göstəricisi olduğunu vurğulayıb.

Görüşdə mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, təbii və texnogen fəlakətlərə qarşı mübarizə, humanitar yardımlar sahəsində əməkdaşlıq və təcrübə mübadiləsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Baş katib görüş zamanı təşkilatın fəaliyyəti, prioritet istiqamətləri və planları barədə ətraflı məlumat verib.

# BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisinin ölkəmizdəki fəaliyyəti başa çatır

**Dekabrın 22-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının (BMT) ölkəmizdəki rezident-əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.**



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ceyhun Bayramov Azərbaycanla BMT arasında mövcud münasibətlərin inkişafını məmnunluqla qeyd edib. Nazir bu istiqamətdə göstərdiyi səylərə görə rezident-əlaqələndiriciyə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan və BMT arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə bağlı vəziyyət müzakirə olunub. Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığından məmnunluq ifadə edilib.

Ölkəmizin 2026-cı ildə BMT-nin şəhərsalma üzrə əsas platforması olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyi edəcəyi xatırlanıb. Bu tədbirlərin Azərbaycanın çoxtərəfli diplomatiyada aparıcı rolunu nümayiş etdirdiyi vurğulanıb.

2021-2025-ci illəri əhatə edən Azərbaycan-BMT Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədinin icrasının uğurla yekunlaşdırıldığı, cari ilin oktyabr ayında imzalanmış 2026-2030-cu illər üzrə yeni sənədin Azərbaycan-BMT tərəfdaşlığında yeni mərhələnin başlanğıcını qoyacağı bildirilib.

Ceyhun Bayramov Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra ərazilərimizdə aparılan genişmiqyaslı bərpa, yenidənqurma, Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mühitinin yaradılması istiqamətində atılan mühüm addımlardan danışıb. Bu il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin və əldə edilmiş digər tarixi razılıqların regionda sülh prosesinin irəlilədilməsində əhəmiyyətli mərhələ olduğunu diqqətə çatdırıb. Nazir həmçinin rezident-əlaqələndiriciyə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Kolumbiyanın Azərbaycandakı səfirinin ölkəmizdəki diplomatik fəaliyyəti başa çatır

**Dekabrın 22-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Kolumbiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayala ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud münasibətlərin inkişafını məmnunluqla qeyd edərək, bu istiqamətdə göstərdiyi səylərə görə səfirə təşəkkürünü bildirib.

Söhbət zamanı ölkələrimiz arasında mövcud siyasi dialoqun qorunub saxlanılması və inkişaf etdirilməsində qarşılıqlı səfər və təmasların, eləcə də siyasi və konsulluq məsləhətləşmələrinin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyası (COP29) çərçivəsində Kolumbiya Respublikasının xarici işlər naziri Luis Gilberto Muriyo ilə keçirdiyi görüşü məmnunluqla xatırladaraq, bu cür təmasların ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafında mühüm rol oynadığını vurğulayıb. Azərbaycan ilə Kolumbiya arasında ikitərəfli əsasda, habelə BMT, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli müstəvidə əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Nazir Ceyhun Bayramov səfir Luis Fernando Kuartas Ayalanın Azərbaycan-Kolumbiya münasibətlərinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirərək ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Azərbaycana səfərə gəlib

**Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz dekabrın 22-də Azərbaycan Respublikasına səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmazı Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Ümummilli Liderin məzarını, Şəhidlər xiyabanını və Zəfər parkını ziyarət edib







Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 22-də Fəxri xiyabanı ziyarət edib. AZƏRTAC xəbər verir ki, əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla anılıb, məzarı önünə əklil qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üstünə gül dəstələri düzülüb.

* * *

Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 22-də Şəhidlər xiyabanına gəlib.

Nümayəndə heyəti Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər güllər düzüb. Həmçinin "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Daha sonra Şəhidlər xiyabanında 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət olunub, abidə önünə əklil qoyulub, gül dəstələri düzülüb.

* * *

Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti Zəfər parkını ziyarət edib. Ziyarət zamanı qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Nümayəndə heyəti torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin xatirəsini dərin ehtiramla yad edib, Zəfər abidəsinin önünə əklil qoyub.

Mərasimdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi anılıb.

# Arzu Əliyeva "Harmoniya" sənədli filminin təqdimatında iştirak edib

**Dekabrın 21-də Nizami Kino Mərkəzində Azərbaycanda müxtəlif dinlərin nümayəndələri arasında mövcud olan birgəyaşayış və tolerantlıq ənənələrini əks etdirən "Harmoniya" sənədli filminin təqdimatı keçirilib.**







Film Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Mənəvi Dəyərlərin Təbliği Fondunun və Bakı Media Mərkəzinin birgə layihəsidir. AZƏRTAC xəbər verir ki, filmin təqdimatında Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak edib.

Əvvəlcə film nümayiş etdirilib. Sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov film haqqında fikirlərini bölüşüb. O, ekran işində üç müxtəlif dini təmsil edən rəfiqələrin timsalında Azərbaycan xalqının müxtəlif din və xalqlara yanaşmasının ortaya qoyulduğunu bildirib: "Əsrlər, minilliklər boyu bu coğrafiyada Azərbaycan xalqı multikultural dəyərləri, bir-birinə hörməti, çiyin-çiyinə yaşamağı, adət-ənənəni növbəti nəsillərə ötürmək kimi çox möhtəşəm bir xüsusiyyəti özündə yaşadır. Bu gün Azərbaycanda müxtəlif dinlərin nümayəndələri birlikdə yaşayır, fəaliyyət göstərir, yaradırlar. Təbii ki, bu, Azərbaycan xalqının müdrikliyinin ən bariz nümunələrindən biridir". Komitə sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin apardığı siyasət nəticəsində multikultural dəyərlər Azərbaycan xalqının, sadəcə, adət-ənənəsi kimi qalmadı, bu gün də uğurla davam edən dövlət siyasətinə çevrildi. O, işğaldan azad edilən ərazilərdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın birgə səyləri nəticəsində bütün ibadət yerlərinin bərpa olunduğunu da diqqətə çatdırıb.

Ekran işinin quruluşçu rejissoru və ssenari müəlliflərindən biri Fuad Məmmədzadə filmin əsas qəhrəmanları olan Nigar, Cəmilə və Sofiya obrazlarının əsasında Azərbaycan üçün təbii olan bir reallığı çatdırmaq istədiklərini deyib.

"Azərbaycan dünyada nadir ölkələrdəndir ki, burada eyni zamanda müsəlman, yəhudi və xristianlar vahid ailə kimi yaşayırlar. Biz həmin xanımların timsalında bir mesaj vermək istəyirik ki, bu, həqiqətən də mümkündür", - deyə o bildirib.

Qeyd edək ki, Bakı Media Mərkəzinin istehsal etdiyi sənədli film Azərbaycanda müxtəlif din mənsublarının birgəyaşayışı üçün yaradılmış imkanlar, dinlərarası harmoniyanın təbliği məqsədilə hazırlanıb. Filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, quruluşçu rejissoru Fuad Məmmədzadə, ssenari müəllifləri Fuad Məmmədzadə və Ramil Ələkbərov, quruluşçu operatoru Ziya Babayev və bəstəkarı Hafiz İbrahimlidir.

Çəkilişlər Azərbaycanın müxtəlif bölgələrindəki dini ibadətgahlarda, eyni zamanda ölkəmizdə formalaşmış nümunəvi tolerantlıq və multikulturalizm mühitini, dinlərarası harmoniyanı, həmrəyliyi, mədəni müxtəlifliyi, birgəyaşayış dəyərlərini təbliğ və təşviq etmək məqsədilə noyabrın 5-də Bakıda keçirilən "Fərqliliyin rəngi" festivalında aparılıb.

Film fərqli din mənsubu olan üç rəfiqənin gündəlik həyatı və qarşılıqlı münasibətlərinin nümunəsində ölkəmizdəki tolerant mühiti işıqlandırır. Onların yaşayış tərzi, ailə münasibətləri, dini ibadətləri və dostluq əlaqələri fonunda Azərbaycanda hökm sürən qarşılıqlı anlayış, etimad və mədəni müxtəliflik mühiti tamaşaçıya çatdırılır.

Qəhrəmanların ailə həyatları, ibadətləri və illərlə davam edən münasibətləri onların mədəni müxtəliflik və sülh şəraitində yaşadıqlarını nümayiş etdirir. Sənədli film vasitəsilə cəmiyyətdə tolerantlıq, qarşılıqlı hörmət və multikultural dəyərlərin təbliği, eyni zamanda ölkəmizin dinlərarası harmoniyanın qorunması və inkişafı istiqamətində həyata keçirdiyi dövlət siyasətinin mahiyyəti diqqətə çatdırılır.

Azərbaycan tarixini yaşatmaq, həqiqətləri olduğu kimi çatdırmaq Bakı Media Mərkəzi üçün yarandığı ilk gündən böyük önəm daşıyır. Mərkəz bu müddət ərzində ölkəmizin ən müxtəlif tarixi dövrlərini özündə əks etdirən "Hədəf Bakıdır", "Miras", "Tağıyev", "Son iclas", "Əbədi ezamiyyət", "Biz" və "Şuşa, sən azadsan!" kimi ictimaiyyət tərəfindən geniş marağa səbəb olan filmlər istehsal edib. "Harmoniya" sənədli filmi də "Bir günəş altında" sənədli filmindən sonra Azərbaycanda multikulturalizm ənənəsinin gündəlik həyatdakı təzahürlərini real insan hekayələri ilə əks etdirən ekran işidir.

# "Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası"

**Dekabrın 22-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Memarlıq və İnşaat Universitetinin birgə təşkilatçılığı ilə "Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası" adlı tədbir keçirilib.**







Tədbirdən öncə universitet ərazisində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova diqqətə çatdırıb ki, dövlət idarəçiliyində liderin rolu təkcə inkişafın təmin olunması ilə məhdudlaşmır, eyni zamanda cəmiyyətdə sabitliyin möhkəmlənməsi və milli tərəqqinin davamlı xarakter alması baxımından mühüm əhəmiyyət kəsb edir: "Xalqa verdiyi sözlərə sadiqliyini əməli fəaliyyəti ilə təsdiqləyən, hər bir azərbaycanlının Prezidenti olduğunu sübut edən cənab İlham Əliyevin fəaliyyəti ölkəmizin gücünün daha da artmasına yönəlmiş ardıcıl strateji xətt üzərində qurulub. Dövlət başçısı Azərbaycanın inkişafını təmin etməklə xalqın dərin etimadını qazanıb. Milli maraqları daim prioritet hesab edən dövlət başçısının siyasəti xalqımızın birliyini daha da möhkəmləndirib".

G.Məmmədova vurğulayıb ki, dövlət başçısının düşünülmüş siyasəti ölkənin sosial-iqtisadi inkişafında, eləcə də milli maraqların qorunmasında öz ifadəsini tapır: "Uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan dünyada nüfuzlu dövlət, tolerantlıq nümunəsi, mühüm beynəlxalq tədbirlərin keçirildiyi etibarlı tərəfdaş kimi tanınır".

Dövlət başçısının təhsilin inkişafını daim diqqət mərkəzində saxladığını vurğulayan rektor ölkədə həyata keçirilən uğurlu gənclər siyasətinin də müasir Azərbaycanın gələcəyinə xidmət etdiyini söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxışında qeyd edib ki, qüdrətli və qalib Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları və tükənməz dövlətçilik irsi ilə bağlıdır: "Ulu Öndərin milli maraqlara əsaslanan uzaqgörən siyasəti Azərbaycanın müstəqil dövlət kimi tərəqqisini təmin edib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Ümummilli Liderin dövlətçilik irsini müasir dövrün çağırışlarına uyğun zənginləşdirərək uğurlu siyasət həyata keçirməklə ölkəmizə tarixi nailiyyətlər qazandırıb".

Tahir Budaqov bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan öz iqtisadi, siyasi, hərbi gücü və xalqımızın əzmkar mövqeyi sayəsində möhtəşəm Zəfərə imza atıb: "Ölkəmizin ərazi bütövlüyü və tam suverenliyinin bərpası Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, diplomatik məharətinin real nəticəsidir. Heydər Əliyev ideyalarına sadiq qalaraq məqsədyönlü siyasət həyata keçirən, xalqın inam və etimadını doğruldan və ata vəsiyyətini şərəflə yerinə yetirən, sözünün imzası qədər dəyərli olduğunu hər zaman təsdiq edən qətiyyətli Lider - Prezident İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımıza yeni zəfərlər bəxş edəcəkdir".

Sonra çıxış edənlər Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində qazanılan uğurlardan bəhs ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş universitet əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

Sonda bədii hissə təqdim olunub və xatirə şəkli çəkdirilib.

*"Azərbaycan"*

# Daxili işlər naziri gənclərin sırasından seçim edib





**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 22-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 120 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 13 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il ərzində respublikanın şəhər və rayonlarında ümumilikdə 21 sıra baxışı keçirilib.

Xidmətə qəbul üçün Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət edərək sıra baxışlarında iştirak etmiş gənclərdən 4392 nəfər seçim turunun növbəti mərhələlərinə buraxılıb ki, onlardan da 435 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

*"Azərbaycan"*

# Humanizm prinsiplərinə sadiqlik

## İlham Əliyevin sosial dövlət modeli həmrəyliyi daha da gücləndirir

**İstənilən ölkənin sosial-iqtisadi inkişafı sabitliyin qorunub saxlanılmasından, eləcə də xalqın rifah halının yaxşılaşdırılması yönündə atılan mütərəqqi addımlardan keçir. Tarixində heç vaxt indiki qədər güclü olmayan Azərbaycanda da məhz bu siyasət yürüdülür. Ölkədə həyata keçirilən siyasətin fövqündə ilk növbədə Azərbaycan vətəndaşı dayanır.**



Azərbaycan sosial dövlət anlayışını öz Konstitusiyasına daxil edərək bu prinsipi ölkənin dövlət idarəçiliyində və siyasətində əsas prioritetlərdən biri kimi qəbul etmişdir. "Sosial dövlət" anlayışı sadəcə olaraq iqtisadiyyatın inkişafı ilə bağlı deyil, həm də əhalinin rifahının yüksəldilməsi, bərabər imkanların yaradılması və sosial ədalətin qorunması ilə bağlıdır.

Prezident İlham Əliyev ölkənin siyasi və iqtisadi inkişafını yalnız müasir dünyanın tələbləri ilə uyğunlaşdırmaqla kifayətlənməyib, eyni zamanda humanizm prinsiplərini əsas götürərək insanların hüquqlarını qorumağa və sosial ədaləti təmin etməyə yönəlik genişmiqyaslı siyasət həyata keçirmişdir. Bu humanist siyasət Azərbaycan cəmiyyətində sosial rifahın artırılması, bərabər imkanların təmin edilməsi və vətəndaşların hüquqlarının qorunması sahəsində bir çox mühüm islahatı əhatə edir.

Bu günlərdə Azərbaycan Prezidentinin imzaladığı sərəncam da bir daha təsdiq etdi ki, dövlətin sosial siyasətində əsas prioritet vətəndaşların rifahının yüksəldilməsi və sosial təminat mexanizmlərinin daha da gücləndirilməsidir.

Ünvanlı dövlət sosial yardımı alan ailələrə birdəfəlik maddi yardım göstərilməsi də sosial dəstək mexanizmlərinin ardıcıl və məqsədyönlü şəkildə genişləndirildiyini nümayiş etdirir. Sözügedən sərəncam 76 mindən çox ailəni əhatə edir və ailə üzvləri nəzərə alındıqda bu yardım 335 mindən artıq vətəndaşı əhatə etmiş olacaq. Ünvanlı sosial yardım alan ailələr sosial baxımdan daha həssas kateqoriyaya aiddirlər və onların dövlət tərəfindən davamlı şəkildə dəstəklənməsi xüsusi əhəmiyyət daşıyır. Bu addım həmin ailələrin sosial təminatının daha da yaxşılaşdırılmasına real töhfə verəcək.

Onu da vurğulayaq ki, 2025-ci ildə Azərbaycan Prezidentinin tapşırıqlarına uyğun olaraq, geniş sosial paket həyata keçirilib və bu paket 3 milyondan artıq vətəndaşı əhatə edib. İlin sonunda isə ünvanlı sosial yardım alan ailələrə birdəfəlik maddi dəstəyin verilməsi ölkədə sosial təminat sisteminin dərinləşdiyini və bu siyasətin davamlı xarakter daşıdığını göstərir.

İlham Əliyevin humanizm siyasətinin əsas prinsiplərindən biri insan hüquqlarının və azadlıqlarının qorunmasıdır. Azərbaycanın insan hüquqları ilə bağlı beynəlxalq konvensiyalara qoşulması bu sahədəki islahatları dəstəkləyir və dövlətin qlobal müstəvidəki mövqeyini gücləndirir.

Dövlət başçısının rəhbərliyi dövründə ölkənin hüquq-mühafizə sistemində islahatlar aparmaqla yanaşı, humanizm prinsiplərinə sadiqlik, məhbusların bağışlanması məsələsinə də xüsusi diqqət ayrılır. Hər il qeyd olunan dövlət bayramlarında və xüsusi günlərdə, həmçinin bəzən xüsusi humanitar səbəblərlə Prezident bəzi məhbusları əfv edir və onların cəza müddətini azaldır. Bu siyasət yalnız hüquqi və siyasi deyil, həm də humanist yanaşma ilə bağlıdır və dövlətin sosial ədalətə olan bağlılığını əks etdirir.

Prezident İlham Əliyev məhbusları bağışlamaqla cəmiyyətdə humanizm dəyərlərini gücləndirməyi və sosial ədaləti təbliğ etməyi hədəfləyir. Bağışlama siyasəti cəza çəkən insanların ikinci bir şans almasına, yenidən cəmiyyətə inteqrasiya olunmasına və həyatlarını düzəltmələri üçün bir fürsət yaradır. Amnistiya aktları cəmiyyətin inkişafına və sosial harmoniya yaradılmasına xidmət edir.

İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bağışlama siyasəti dövlətin məhbuslara qarşı göstərdiyi insani münasibətin nümunəsidir. Dövlətin bu yanaşması həm daxili, həm də beynəlxalq müstəvidə ölkənin hüquqi və sosial humanizm sahəsindəki nüfuzunu artırır. Əfv edilən şəxslər cəmiyyətin normal üzvünə çevrilmək üçün müxtəlif dəstək və təlimatlarla təmin edilir, beləliklə, onların yenidən cinayətə meyil etmələri ehtimalı azalır.

İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək bayram və əlamətdar günlərdə əfv sərəncamları imzalayıb. Azərbaycan Prezidentinin son 22 ildə imzaladığı əfv sərəncamları, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş amnistiya aktları minlərlə insanı əhatə edib.

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında ötən həftə Milli Məclis tərəfindən qəbul olunmuş qərarın artıq icrasına başlanılıb. Bu amnistiya tətbiq ediləcək şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən genişmiqyaslı amnistiyadır. Amnistiya ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcək. Onlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad olunacağı, 3 mindən artıq şəxsin cəzasının azaldılacağı gözlənilir. Bununla yanaşı, 7 mindən çox şəxs azadlığın məhdudlaşdırılması cəzasından, 3 minə yaxın şəxs digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, mindən artıq şəxs isə cinayət məsuliyyətindən azad edilir. Bu rəqəmlər amnistiyanın miqyasını və sosial əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.

Bu, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiyanın 30 illiyi, Vətən müharibəsində qazandığımız tarixi Zəfərin 5-ci ildönümü, ölkəmizin suverenliyinin tam bərpa olunması və "Konstitusiya və Suverenlik İli" münasibətilə Prezident İlham Əliyev tərəfindən elan edilən növbəti humanizm təşəbbüsüdür. Bu Amnistiya aktı 2023-cü ildə Qarabağda separatizmə birdəfəlik son qoyulmasından, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam təmin edilməsindən sonra irəli sürülmüş ilk sənəddir. Bu fakt onun siyasi, hüquqi və mənəvi baxımdan xüsusi əhəmiyyətini daha da artırır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması bu sahədə tarixi ənənələrin yaşadılmasına və mütərəqqi yanaşmaların tətbiqinə çağırışdır

**Azərbaycan zəngin tarixi və mədəni irsi ilə şəhərsalma və memarlıq sahəsində unikal tikililər ölkəsidir. Coğrafiyamızın müxtəlif bölgələrində qədim dövrlərdən qalma memarlıq nümunələri ilə birlikdə müasir dövrdə inşa edilmiş tikililər bir araya gələrək həm estetik, həm də funksional cəhətdən şəhər mühitinin inkişafına töhfə verir.**

Şəhərsalma yalnız binaların yerləşdirilməsi və yolların planlaşdırılması deyil. O, insanların yaşayış keyfiyyətini artıran sosial, mədəni və ekoloji aspektləri əhatə edir. Bu gün Azərbaycanın şəhərlərinə baxarkən keçmişlə gələcəyin bir nöqtədə qovuşduğunu görmək mümkündür. Qədim qala divarları ilə əhatələnmiş İçərişəhərdən tutmuş şüşə və metal konstruksiyaları ilə seçilən müasir binalara qədər hər detal şəhərsalmanın inkişaf etdiyini göstərir.

Şəhər insanların gündəlik həyat tərzini, dünyagörüşünü və mədəniyyətini formalaşdıran canlı bir orqanizmdir. Danılmaz bir həqiqət də var ki, ölkəmizdə şəhərsalma və memarlıq ənənələri əsrlərin sınağından çıxmış zəngin tarixə söykənir. İpək yolunun üzərində yerləşən Azərbaycan tarixən ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi kimi tanınıb. Şərq ölkələri ilə qurulan sıx iqtisadi, siyasi və mədəni əlaqələr iri şəhərlərimizin formalaşmasına güclü təsir edib. Məhz bu əlaqələrin nəticəsində yaranan memarlıq abidələri şəhərlərimizin simasını müəyyənləşdirən əsas amillərdən birinə çevrilib.

Azərbaycan şəhərləri tarix boyu təbii-coğrafi şəraitə və sosial tələbatlara uyğun şəkildə formalaşıb. Dar küçələr, kölgəli həyətlər və milli memarlıq üslubu insan rahatlığını ön plana çəkib. Zaman keçdikcə artan əhali, nəqliyyat sıxlığı və urbanizasiya yeni şəhərsalma yanaşmalarını zəruri edib. Geniş prospektlər, abadlaşdırılan parklar və müasir yaşayış kompleksləri həmin dəyişikliklərin nümunəsidir.

Son illər həyata keçirilən yenidənqurma və abadlıq işləri şəhər mühitinə yeni nəfəs gətirib. Paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir memarlıq layihələrinin icrası diqqət çəkir. Lakin əsas məsələ sadəcə yeni binaların tikilməsi deyil, tarixi irsin qorunması ilə müasirliyin uzlaşdırılmasıdır. Məhz bu balans şəhərin simasını saxlayır və onu gələcək nəsillər üçün qoruyur.

Memarlığa gəlincə, bu gün Azərbaycanın müxtəlif bölgələrində dövlət tərəfindən mühafizə edilən çoxsaylı abidələr mövcuddur. Müdafiə qalaları, karvansaralar, məscidlər, məbədlər və türbələr milli memarlıq ənənələrinin əyani nümunələridir. Deyə bilmərik ki, bu abidələr təkcə daş və kərpicdən ibarətdir. Yox, əlbəttə! Bədii və memarlıq baxımından yüksək səviyyədə inşa olunmuş bu nümunələr hər zaman qürur hissi doğurur. Möminə xatun türbəsi, Xudafərin körpüsü və Atəşgah kompleksi dünya əhəmiyyətli abidələr sırasında xüsusi yer tutur. Bu daş əsərlər Azərbaycan memarlığının zənginliyini və özünəməxsusluğunu nümayiş etdirən nadir incilərdir.

UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş abidələrimiz Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya miqyasında tanındığını göstərir. Qədim və Orta əsr şəhər mədəniyyətini yaşadan İçərişəhər və Şirvanşahlar sarayı kompleksi bu irsin əsas nümunələrindəndir. Əsrlərə sinə gərmiş Qız qalası indi də əzəmətini qoruyur. Şəkinin tarixi mərkəzi və Xan sarayı isə milli memarlıq zövqünün nadir örnəkləri kimi diqqət çəkir. Bu abidələr Azərbaycan memarlığının dünya inciləri sırasında layiqli yer tutur.

Azərbaycan memarlıq məktəbinin zirvəsində isə dahi sənətkar Əcəmi Naxçıvani dayanır. Onun yaradıcılığı təkcə ölkəmizdə deyil, bütün Yaxın Şərqdə orta əsr memarlığının inkişafına güclü təsir göstərib. UNESCO çərçivəsində 900 illiyi qeyd olunan bu böyük şəxsiyyətin əsərləri dövrünün yüksək sənətkarlıq səviyyəsini aydın şəkildə nümayiş etdirir.

Azərbaycan şəhərləri qlobal şəhərsalma modellərindən bəhrələnsə də, öz tarixi, mədəni və coğrafi xüsusiyyətlərini qoruyaraq inkişaf yolunu davam etdirir. Məhz bu inkişafın ardıcıl və sistemli şəkildə davam etdirilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu, təbii ki, xüsusi əhəmiyyət daşıyır və şəhər mühitinin daha planlı qurulmasına, memarlıq irsinin qorunmasına əlavə imkanlar açacaq, daha geniş şərait yaradacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# IDEA Bərdə və Beyləqanda kütləvi ağacəkmə aksiyaları təşkil edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl marafon" kütləvi ağacəkmə kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyaları Bərdə və Beyləqan rayonlarında təşkil edilib.**



IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, könüllülərin iştirakı ilə Bərdə rayonunda 600-dən çox Eldar şamı ağacı əkilib. Həmçinin Beyləqan rayonunda keçirilən aksiya zamanı 2 mindən çox sərv və şam ağacı əkilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun ("Yaşıl marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir. "Yaşıl marafon" çərçivəsində 2025-ci ilin payız və 2026-cı ilin yaz əkin mövsümləri ərzində ölkə üzrə 2 milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.



**Qalib Azərbaycan dövləti öz tarixində tamamilə yeni mərhələyə qədəm qoyur. Postmüharibə dövrü adlandırdığımız bu mərhələdə taleyüklü məsələlərin 2026-cı ilin dövlət büdcəsi zərfində nəzərə alınması onun unikallığını ifadə edir. Tamamilə bərpa etdiyimiz dövlət suverenliyinin iqtisadi əsaslarının möhkəmləndirilməsi, "Böyük qayıdış" proqramının icrası, ölkəmizin təhlükəsizliyinin gücləndirilməsi, nəqliyyat-tranzit infrastrukturunun dəstəklənməsi və bütün bunların sosial müdafiə tədbirləri ilə müşayiət edilməsi yeni büdcə sənədinin həm əsas xüsusiyyəti, həm də üzərinə düşən başlıca missiyadır.**

**Biz ötən günlərdə Şanlı Zəfərimizin 5 illiyini qeyd etdik. Möhtəşəm hərbi paradda nümayiş etdirilən təkcə hərbi qüdrətimiz deyildi, həm də iqtisadi gücümüz idi. Biz Qalib ölkənin Qalib iqtisadiyyatını qurmuşuq və onu daha da gücləndiririk.**

# 2026-cı ilin dövlət büdcəsi Azərbaycanın inkişafına, rifahına və təhlükəsizliyinə xidmət edəcək

## Dövlət suverenliyimizin iqtisadi əsaslarının möhkəmləndirilməsi yeni büdcə zərfinin prioritet hədəfidir

### Büdcə müzakirələrinin parlament formatı və onun xüsusiyyətləri

Möhtərəm Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunan 2026-cı ilin büdcə zərfinin parlament tərəfindən müzakirəsi uğurla başa çatmış və qəbul edilmişdir. Deputat həmkarlarımız büdcə müzakirələrində dəyərli fikirlər və təkliflər səsləndirmişlər. Müvafiq dövlət qurumlarının nümayəndələri büdcə zərfinin müxtəlif aspektləri ilə bağlı geniş təqdimatlarla çıxış etmişlər.

Səslənən fikirlər sahəvi, regional və ictimai xarakterli olmaqla, dövlət büdcəsi üçün təbii ki, əlavə maliyyə öhdəlikləri yaradır. Bununla belə, hesab edirik ki, bu fikir və mülahizələr ümumilikdə parlamentin büdcə zərfinə dəstəyini ifadə etməklə yanaşı, həm də ölkəmizin sosial-iqtisadi inkişafına, dövlət siyasətinin müxtəlif istiqamətlər üzrə təkmilləşdirilməsinə, o cümlədən regionlarda mövcud problemlərin həllinə xidmət edir.

Qeyd etmək lazımdır ki, 2-ci oxunuşdan sonra dövlət büdcəsinə fiskal qaydanın tələbləri nəzərə alınmaqla, növbəti ilin dövlət büdcəsinin və icmal büdcənin gəlir və xərcləri çərçivəsində 52 mln. manat həcmində dəyişikliklər edilmişdir. Bununla belə, büdcənin ümumi parametrləri dəyişməz olaraq qalmışdır.

Həmkarlarımız tərəfindən qaldırılmış bəzi məsələlər və onların maliyyə təminatı aidiyyəti qurumlar tərəfindən nəzərdən keçirilmişdir. İrəli sürülən təkliflərin bir qisminin dövlət investisiya proqramı çərçivəsində həll ediləcəyi gözlənilir.

Nəzərə almalıyıq ki, büdcə prosesi sadəcə bir illə məhdudlaşmır, o, davamlı və uzunmüddətli xarakter daşıyır və bu səbəbdən də hər zaman təkmilləşməyə məruz qalır.

Büdcə sisteminin təkmilləşdirilməsi mərhələlərindən biri artıq təsdiq olunmuş dövlət büdcəsinin icrasına dair hesabatın parlamentə təqdim edilməsidir. Yeni büdcə zərfinin müzakirəsi zamanı qaldırılan bir çox məsələ və verilən suallar həm də bir qayda olaraq icraya dair hesabat mərhələsində cavablandırılır.

### Dövlət büdcəsi suverenlik kontekstində

2026-cı ilin büdcə zərfinin hazırlandığı dövr "Konstitusiya və Suverenlik İli"nə təsadüf etmişdir. Bu gün Azərbaycan dövlət suverenliyinin, iqtisadi müstəqilliyin uğur hekayəsini yazmış qətiyyətli, ləyaqətli və nüfuzlu dövlətdir.

Ölkəmizdə siyasi və iqtisadi müstəqilliyin uzlaşdırılması dövlət siyasətinin əsas prinsiplərindən biri kimi müəyyən edilmişdir. Prezident İlham Əliyev bu siyasətin mahiyyətini aydın bir şəkildə belə ifadə edib: "İqtisadiyyatımız nə qədər güclü olsa, bizim siyasi addımlarımız da o qədər cəsarətli və uğurlu olacaqdır... İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir..."

Azərbaycanın indiyə kimi reallaşdırdığı strateji təşəbbüslər, yürüdülən müstəqil siyasət əsasən daxili resurslar hesabına həyata keçirilmiş, ölkəmizin heç bir xarici dövlətdən, donor təşkilatlardan asılılığına yol verilməmişdir.

Bir məsələni xüsusi olaraq nəzərə almalıyıq ki, büdcə vəsaitlərimiz də, valyuta ehtiyatlarımız da dövlətimiz üçün təkcə maliyyə təminatı deyil, həm də ləyaqətli və qətiyyətli müstəqil siyasətin həyata keçirilməsi üçün, yeni tarixi mərhələdə qarşımızda dayanan taleyüklü məsələlərin həlli üçün mühüm maliyyə vasitəsidir.

### Dövlət büdcəsi ali siyasi sənəd kimi

Suverenliyimizin və iqtisadi müstəqilliyimizin maliyyə əsası olan yeni büdcə zərfi hər şeydən əvvəl dövlət başçısının iradəsini və irəli sürdüyü təşəbbüsləri, müəyyən etdiyi strateji vəzifələri və təşəbbüsləri özündə əks etdirir və onların reallaşdırılması üçün maliyyə təminatı yaradır. Bu səbəbdən büdcə zərfini biz həm də ali siyasi sənəd kimi dəyərləndiririk.

Ötən dörd il ərzində növbəti ortamüddətli dövr üçün hazırlanmış büdcə çərçivəsi sənədlərində əks olunan çağırışların əksəriyyəti 2026-2029-cu illərdə öz aktuallığını qoruyacaq.

İlin əvvəlindən başlayaraq, hökumətin çevik koordinasiyası ilə hazırlanan və ciddi müzakirə mərhələlərindən keçən büdcə zərfi iqtisadi blokun vahid mövqeyini ifadə edir. Bu mənada büdcə zərfi həm də ciddi hökumət sənədidir.

Büdcə zərfi öz mahiyyəti etibarilə dövlətin maliyyə strategiyasını və inkişaf hədəflərini əks etdirən olduqca mürəkkəb və çoxşaxəli strateji sənəd olduğuna görə onun dəyərləndirilməsi sistemli və konseptual baxış, ciddi makroiqtisadi təhlil tələb edir.

Gələn ilin büdcə zərfi məzmunu, strukturu, qarşıya qoyduğu hədəfləri baxımından əvvəlki illərin təsdiq edilmiş büdcələrindən əhəmiyyətli dərəcədə fərqləndiyinə görə, onun əsas xüsusiyyətlərinin nədən ibarət olduğunu bilməliyik.

Dövlət büdcəsinin bu xüsusiyyətləri bir-biri ilə sıx bağlıdır, biri digərini şərtləndirir və tamamlayır. Və ciddi keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan bu cəhətlər məzmunca 2026-cı ildə həyata keçiriləcək büdcə konsolidasiyası siyasətini xarakterizə edir.

### 2026-cı ilin dövlət büdcəsinin parametrləri

Beləliklə, 2026-cı ilin dövlət büdcəsinin gəlirləri 38,6 mlrd. manat, xərcləri 41,7 mlrd. manat nəzərdə tutulur. Bu, gəlir və xərclər üzrə 0,7 faizlik artım deməkdir. Dövlət büdcəsi kəsirinin yuxarı həddi isə 3,1 mlrd. manat olmaqla ÜDM-in 2,3 faizini təşkil edəcəkdir.

Büdcə zərfi makroiqtisadi sabitliyi səciyyələndirən proqnozlara əsaslanır. Belə ki, növbəti ildə iqtisadi artım 2,9 faiz, orta illik inflyasiya səviyyəsi 4,8 faiz proqnozlaşdırılır.

İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış iqtisadi və sosial inkişaf proqnozları baza ssenarisinə əsaslanmaqla təkcə 2026-cı ili deyil, həm də sonrakı üç ili əhatə edir. Bir qayda olaraq bu proqnozların tərtibi zamanı dünya enerji, ərzaq və maliyyə bazarlarındakı trendlər, qlobal və regional iqtisadi proseslərin milli iqtisadiyyata mümkün təsirləri də nəzərə alınır.

Növbəti ildə real ifadədə qeyri-neft-qaz ÜDM-in 5,0 faiz artması, neft-qaz ÜDM-in isə 2,4 faiz azalması proqnozlaşdırılır. ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payı 72 faizdən 75,8 faizə, 2029-cu ildə isə 80 faizə çatacaqdır.

Ortamüddətli dövrün sonuna - 2029-cu ildə ÜDM-in həcminin 161,8 mlrd. manata, onun adambaşına həcminin isə təxminən 9140 ABŞ dollarına çatacağı gözlənilir.

Neftin orta illik ixrac qiyməti 1 barel üçün 65 dollar götürülüb. Manatın məzənnəsinin isə sabit qalacağı gözlənilir.

Xatırladaq ki, dünya iqtisadiyyatında artım 3,1 faiz, qlobal inflyasiya 3,7 faiz səviyyəsində qərarlaşacaqdır.

Növbəti il üçün planlaşdırılan cari xərclər 25,2 mlrd. manat təşkil etməklə xərclərin 60,3 faizini təşkil edir. Bu, 2025-ci illə müqayisədə 407,3 mln. manat və ya 1,6 faiz çoxdur. Əsaslı xərclər 14,1 mlrd. manat olmaqla xərclərin 33,8 faizi həddindədir. Büdcə xərclərinin 2,5 mlrd. manatı və ya 5,9 faizi dövlət borcuna xidmətlə bağlı xərclərdən ibarətdir. Bu rəqəm 2025-ci illə müqayisədə 58,0 mln. manat və ya 2,4 faiz çoxdur.

Növbəti ilin dövlət büdcəsi gəlirlərinin qurumlar üzrə strukturunu nəzərdən keçirək. 2026-cı ilin dövlət büdcəsi gəlirlərinin 16,9 mlrd. manat və ya 43,8 faizi Dövlət Vergi Xidməti xətti ilə daxilolmaların, 12,8 mlrd. manatı və ya 33,2 faizi Neft Fondundan transfertin, 6,9 mlrd. manatı və ya 17,8 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 1 mlrd. manatı və ya 2,6 faizi büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 981,0 milyon manatı və ya 2,6 faizi isə digər gəlirlərin payına düşür.

### 2026-cı ilin icmal büdcəsinin parametrləri

İcmal büdcənin gəlirləri 44,9 mlrd. manat məbləğində proqnozlaşdırılır ki, bu da 2025-ci ilə nisbətən 1018,8 milyon manat və ya 2,3 faiz çoxdur.

İcmal büdcənin xərcləri 48,8 mlrd. manat olmaqla 2025-ci ilə nisbətən 1,2 mlrd. manat və ya 2,5 faiz çox nəzərdə tutulur.

İcmal büdcənin kəsiri 3,9 mlrd. manat təşkil etməklə 2025-ci illə müqayisədə 191,1 mln. manat və ya 5,2 faiz çoxdur. Kəsir proqnozlaşdırılan ÜDM-in 2,9 faizinə bərabər olacaqdır.

Büdcə qaydası icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti göstəricisi kimi hesablanır. 2026-cı ildə bu göstəricinin cari ildən 3,4 faiz bəndi az olmaqla 19 faiz təşkil edəcəyi gözlənilir. Əslində, bu fiskal qayda tətbiq olunduğu dövrdən indiyə kimi ən yaxşı göstəricidir.

Büdcə sistemi haqqında qanunvericiliyə müvafiq dəyişikliklərdən sonra onun yuxarı həddinin yalnız ortamüddətli dövrün sonuna müəyyən edilməsi nəzərdə tutulur. 2026-cı ilin dövlət büdcəsi zərfinə əsasən, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin 2029-cu ilin sonuna 13,0 faizə endirilməsi gözlənilir.

### Dövlət büdcəsi və maliyyə təhlükəsizliyi

Qlobal iqtisadi təsirlərə baxmayaraq, iqtisadiyyatımız konyunktur risklərdən sığortalanmaq üçün etibarlı maliyyə təhlükəsizliyi yastığına malikdir. Ölkəmiz 82,5 mlrd. dollarlıq, başqa sözlə, ÜDM-in həcmindən çox strateji valyuta ehtiyatlarına malikdir. Xarici dövlət borcumuz 4,9 mlrd. dollar olmaqla ÜDM-in cəmi 6,5 faizi həddindədir. Valyuta ehtiyatlarımızın xarici dövlət borcunu təxminən 17 dəfə üstələməsi ölkəmizin beynəlxalq maliyyə öhdəliklərini hər an yerinə yetirmək qabiliyyətində olduğunu göstərir.

Büdcə zərfi dövrün çağırışlarını nəzərə almaqla həm də maliyyə təhlükəsizliyinin gücləndirilməsini, o cümlədən valyuta ehtiyatlarımızın qorunmasını hədəfləyir. Prezident İlham Əliyevin Neft Fondu ilə bağlı və bu günümüz üçün olduqca aktual səslənən bir fikrini xatırlatmaq istərdim: "Dövlət Neft Fondu bizim iqtisadi suverenliyimizin əsas dayağıdır". Məhz bu səbəbdən də fondun aktivlərinin qorunması, dövlət büdcəsinin əsasən qeyri-neft gəlirləri hesabına formalaşdırılması, fiskal risklərin azaldılması ölkəmizin iqtisadi və maliyyə təhlükəsizliyinin başlıca şərtidir.

### İdeal, yoxsa rasional büdcə?

Təqdim edilmiş büdcə zərfi hər şeydən əvvəl, hökumətin rasional büdcə siyasəti təşəbbüslərini nümayiş etdirir. Nəzərə almalıyıq ki, dünyanın hər yerində ehtiyaclar sonsuz, resurslar məhduddur. Buna görə də hər bir ölkə ideal deyil, məhz rasional büdcə tərtib etmək niyyətində olur. Çünki ideal büdcə ölkənin bütün ehtiyaclarının tam ödənilməsidir.

Elə ölkəmiz üçün də yeni dövrün çağırışları maliyyə ehtiyaclarımızı kəskin artırmışdır. Təkcə "Böyük qayıdış" proqramının icrasına növbəti il üçün planlaşdırılan 3,5 mlrd. manat da nəzərə alınmaqla, 2020-2026-cı illərdə 25,3 mlrd. manat büdcə vəsaiti ayrılmışdır. Təsdiq edilmiş iqtisadi inkişaf strategiyasının və digər dövlət proqramlarının da icrası üçün milyardlarla manat vəsaitə ehtiyac var. Belə bir şəraitdə büdcə prosesinə rasional və realistik yanaşma zərurəti yaranır.

Rasional büdcə o büdcədir ki, dövlətin strateji məqsədləri və prioritetləri ilə uyğun qurulur, makroiqtisadi sabitliyi və maliyyə dayanıqlılığını qoruyur, sosial ədalət və iqtisadi səmərəlilik arasında balans yaradır, büdcə xərcləri real gəlir imkanlarına əsaslanır və risklər nəzərə alınır.

### Ən təsirli sosial siyasət rasional iqtisadi siyasətdir

Büdcə zərfinin əsas xüsusiyyətlərindən biri ənənəvi olaraq onun sosial xarakteri ilə bağlıdır. Sosialyönümlü xərclərin 17,1 mlrd. manat olmaqla dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin növbəti ildə də prioritetliyini ifadə edir. Eyni zamanda təhsil, sosial müdafiə və təminat xərcləri üzrə artımlar nəzərdə tutulur. Bu artımlar icmal səhiyyə xərclərini də əhatə edir.

Sosial müdafiə və sosial təminat xərcləri üçün 4873,0 mln. manat vəsait proqnozlaşdırılmışdır. Bu 2025-ci illə müqayisədə 121,2 mln. və ya 2,6 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 721,8 mln. manat və ya 17,4 faiz çoxdur. Bu xərclərin büdcə xərclərində payı 11,7 faizdir.

Aztəminatlı ailələrin və sosial cəhətdən həssas təbəqələrin sosial müdafiəsi üçün 2750,9 mln. manat nəzərdə tutulur. Bu rəqəm də 2025-ci illə müqayisədə 150,7 mln. manat və ya 5,8 faiz çoxdur. Sosial müavinətlərə 2144,7 mln. manat (2025-ci ilə nisbətən 201,8 mln. manat və ya 10,4 faiz çox) ayrılması planlaşdırılır.

Bununla belə, nəzərə almalıyıq ki, ən təsirli sosial siyasət rasional iqtisadi siyasətdir. Bu baxımdan sosial xərclərin makroiqtisadi sabitliklə, xüsusilə də minimal inflyasiya ilə müşayiət edilməsi olduqca vacibdir.

### Təhlükəsizlik büdcəsi: iqtisadi gücdən hərbi gücə

Müzakirəyə təqdim edilmiş büdcə zərfi həm də təhlükəsizlik büdcəsidir. Belə ki, müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə büdcə xərclərinin 21 faizi qədər - 8,7 mlrd. manat vəsait nəzərdə tutulmuşdur. Bu, 2025-ci illə müqayisədə 318,5 mln. və ya 3,8 faiz, 2024-cü illə müqayisədə isə 2,2 mlrd. və ya 32,8 faiz çoxdur. Ümumiyyətlə, müdafiə xərclərimiz son beş ildə (2022-2026-cı illər) 3,8 mlrd. və ya 1,8 dəfə artım dinamikasına malikdir.

Hesab edirik ki, müdafiə qabiliyyətimizin gücləndirilməsi, müasir ordu quruculuğu prosesinin hələ davam etməsi büdcə vasitəsilə hərbi gücün artırılmasını tələb edir.

Hərbi xərclərin artırılması, yalnız döyüş əməliyyatları üçün deyil, həm də müdafiə infrastrukturunun yenilənməsi, hərbçilərin sosial müdafiəsi və texnoloji modernizasiya kimi hədəflərə xidmət edir. Bu isə bilavasitə sülhün davamlılığının təminatı deməkdir.

Sülh müqaviləsinin paraflanması əhəmiyyətli bir mərhələdir. Lakin bu, sülhün tam və qəti şəkildə bərqərar olması demək deyil. Ermənistan cəmiyyətində hələ də revanşist meyillər, Azərbaycanın ərazi bütövlüyünə qarşı səsləndirilən ritorikalar, hərbi ritorikaya meyillilik və sabitliyi poza biləcək radikal siyasi qruplar mövcuddur. Azərbaycan dövləti bu riskləri önləmək üçün öz müdafiə qabiliyyətini azaltmır, əksinə, sülhü qoruyan güc balansını davam etdirir. Bu, regional və qlobal təhlükəsizlik arxitekturasında yerimizi möhkəmləndirmək üçün vacibdir.

Bu gün neytral statuslu ölkələr - Finlandiya, İsveç, Avstriya və digərləri - hərbi xərclərini artırmaqda davam edirlər. NATO-ya üzv ölkələr artıq ÜDM-in 2 faizindən çoxunu müdafiəyə ayırmaq öhdəliyini yerinə yetirirlər. Bəzi ölkələr bu göstəricini 4-5 faizədək çatdırmağı planlaşdırır. Bunun fonunda Azərbaycanın artan hərbi xərcləri nə militarizm, nə də müharibə ritorikası kimi qiymətləndirilə bilməz. Əksinə, bu, qlobal meyillərə uyğunlaşdırılmış ehtiyatlı və rasional siyasətdir.

### Milli iqtisadiyyatda struktur transformasiyasını əks etdirən dövlət büdcəsi

Son illər milli iqtisadiyyatımızda nəzərə çarpan ciddi struktur dəyişikliklərinin büdcə zərfini müşayiət etməsi onun vacib xüsusiyyətlərindən biridir. Belə ki, növbəti ildə neft-qaz ÜDM-in 2,4 faiz azalması fonunda qeyri-neft-qaz ÜDM 5 faizlik artımla proqnozlaşdırılır. Bununla da, ölkə iqtisadiyyatının strukturunda qeyri-neft-qaz sektorunun payının 2025-ci ildəki 72 faizdən 2026-cı ildə 76 faizə, 2029-cu ildə isə 80 faizə çatacağı gözlənilir.

Neft sektorunda azalmanın qeyri-neft iqtisadiyyatında artımla müşayiət edilməsi, ÜDM-də özəl bölmənin payının 81 faizə, təkcə xidmət sektorunun payının isə 43 faizə çatması, hərbi sənayenin inkişafı, nəqliyyat-tranzit potensialının reallaşması ölkəmizdə iqtisadi artımın keyfiyyətini yüksəltməkdədir.

Hesab edirik ki, Prezident İlham Əliyevin innovativ və texnoloji inkişaf, insan kapitalı, rəqəmsallaşma, süni intellektlə bağlı sahələri prioritet elan etməsi, əlavə dəyər yarada bilən fəaliyyət istiqamətlərini dəstəkləməsi uzunmüddətli dövr üçün yüksək məhsuldarlığa əsaslanan iqtisadi artıma xidmət edəcəkdir.

### 2026-cı ildə gözlənilən 2,9 faizlik iqtisadi artım patologiyadırmı?

İqtisadiyyatın strukturunda baş verən meyillərdən bəhs edərkən bir məsələyə də münasibət bildirmək istərdik. Neft sektorunun iqtisadiyyatda payının azalması və bunun fonunda iqtisadi artımın cari ilin 10 ayında 1,3 faiz təşkil etməsi, cari ilin sonuna 3 faiz gözlənilməsi və növbəti il üçün 2,9 faiz proqnozlaşdırılması bəzilərinin təqdim etdiyi kimi nə durğunluqdur, nə də hər hansı bir iqtisadi patologiyadır.

2026-cı il üzrə gözlənilən qlobal artım tempi ilə demək olar ki, eyni səviyyədə proqnozlaşdırılan iqtisadi artım sənayenin strukturundakı dəyişiklikləri, konkret olaraq neft hasilatının aşağı düşməsini əks etdirir. Reallıq bundan ibarətdir ki, hasilatın azalması da öz növbəsində struktur transformasiya səbəbindən qeyri-neft sektorunda artım tempini aşağı sala bilir. Görəsən, iqtisadiyyatın və sənayenin strukturundakı yeniləşmə, neft hasilatının geoloji və texnoloji xüsusiyyətlərindən irəli gələn azalma meyilləri nə vaxtdan iqtisadi tənəzzül və ya durğunluq hesab edilir?

Xatırlatmaq istərdim ki, Azərbaycanın neft sənayesi üzrə hasilat dinamikası hələ "Əsrin müqaviləsi" çərçivəsində uzunmüddətli geoloji və texniki proqnozlara əsasən müəyyən edilmişdir. Faktiki rəqəmlərə baxsaq, neft hasilatı 1995-ci ildə 9 mln. tondan 2010-cu ildə 51 mln. tona çatmışdır. 2011-ci ildən isə hasilat tədricən azalaraq 2020-ci ildə 34 mln. tona, 2025-ci ilin 10 ayında 23 mln. tona enmişdir. Neft hasilatının bu dinamikası dövlətimizin iqtisadi strategiyasında, xüsusilə də büdcə planlaşdırılmasında, neft gəlirlərinin idarə edilməsi modelində nəzərə alınmışdır.

*(Ardı var)*

***Azər ƏMİRASLANOV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

# Paşinyan yüklərin Azərbaycan ərazisindən tranzitinin açılmasına görə Prezident İlham Əliyevə təşəkkür edib

**Ermənistanın baş naziri Nikol Paşinyan Sankt-Peterburqda keçirilən Ali Avrasiya İqtisadi Şurasının iclasında Prezident İlham Əliyevə yüklərin Azərbaycan ərazisindən Ermənistan istiqamətində tranzitinin açılması və ikitərəfli ticarətin başlanması üçün şəraitin yaradılması ilə bağlı qəbul edilən qərara görə təşəkkürünü bildirib.**

AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, Ermənistanın hökumət başçısı qarşılıqlı və bərabərhüquqlu prinsipləri, habelə suverenlik və milli yurisdiksiyalar əsasında ticarət-logistika əməkdaşlığının inkişaf perspektivlərini qeyd edib. Onun sözlərinə görə, baş verən müsbət və konstruktiv dəyişikliklər bu böyük regionun bütün ölkələri üçün yeni imkanlar yaradır, iqtisadi dayanıqlığın möhkəmləndirilməsinə və regional kommunikasiyaların genişlənməsinə töhfə verir.

"Bu baxımdan yüklərin Azərbaycan ərazisindən Ermənistan istiqamətində tranzitinin açılması, eləcə də ikitərəfli ticarətin başlanması üçün şəraitin yaradılması barədə qərara görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığımı bildirirəm. Bu, regionda sülhün və sabitliyin bərqərar olunması çərçivəsində əldə edilmiş ilk və ən mühüm nailiyyətlərdən biridir", - deyə Nikol Paşinyan vurğulayıb.

# "Zəngəzur dəhlizi Türkiyə üçün strateji əhəmiyyət kəsb edir"

**"Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi Türkiyə üçün strateji əhəmiyyət kəsb edir və təkcə ticarət və iqtisadiyyat baxımından deyil. Naxçıvanla Azərbaycanın qərb bölgələri arasındakı əlaqə Türkiyənin tikinti, turizm və səhiyyə sektorlarının da inkişafı üçün stimul olacaq, Anadolunun şərq əyalətlərinin ümumi inkişafına təkan verəcək".**

AZƏRTAC xəbər verir ki, bu barədə Ərzurumdakı Binəli Yıldırım Universitetinin İqtisadiyyat və inzibati elmlər fakültəsinin dekanı professor Kərəm Karabulut jurnalistlərə bildirib.

Onun sözlərinə görə, Naxçıvandan keçən dəhlizin açılması ilə Türkiyə ilə Azərbaycan arasında ticarət və turizm axınları iki-üç dəfə artacaq. Bu, Naxçıvan Muxtar Respublikasının inkişafına xüsusi təkan verəcək. "Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sahibkarlar da Naxçıvan vasitəsilə ixrac imkanlarından yararlana biləcəklər", - deyə professor qeyd edib.

K.Karabulut hava nəqliyyatına nisbətən dəmir yolu ilə sərnişin daşımalarının aşağı qiymətinə diqqət çəkib: "Yeni marşrut Azərbaycan və İrandan gələn turistlər üçün nəqliyyat xərclərini əhəmiyyətli dərəcədə azaldacaq". O, Ərzurum və ya İğdırda "azad səhiyyə zonası"nın yaradılmasını istisna etməyərək, bunun "qonşu ölkələrin vətəndaşlarına Türkiyə səhiyyə sisteminin təklif etdiyi imkanlardan daha fəal şəkildə istifadə etməyə imkan verəcəyini" vurğulayıb.

Türkiyə universitetinin dekanı həmçinin Zəngəzur dəhlizinin (TRIPP) regionda çoxsaylı nəqliyyat təşəbbüslərinə, xüsusən də Təbriz-Naxçıvan-Qars-Ərzurum-Trabzon və Culfa-Van dəmir yollarının tikintisinə təkan verə biləcəyinə dair fikir bildirib.

O həmçinin Türk Dövlətləri Ticarət Birliyinin yaradılması perspektivindən danışıb və bildirib ki, Zəngəzur dəhlizi (TRIPP) də onun vacib elementi olacaq.

# "Ermənistana neft məhsullarının tədarükü münasibətlərin mərhələli normallaşması məntiqini əks etdirir"

**"Azərbaycandan Ermənistana ilk neft məhsulları partiyasının göndərilməsi iki ölkə arasında davam edən sülh danışıqları prosesi fonunda baş verir və buna görə də əlavə simvolik əhəmiyyət kəsb edir. Lakin bu addıma siyasi jest kimi deyil, əsasən praqmatik, texniki və iqtisadi mənada baxılmalıdır".**

Bu fikri AZƏRTAC-la türkiyəli politoloq, Ankara Universitetinin professoru Toğrul İsmayıl bölüşüb. O, bu yaxınlarda Azərbaycandan Ermənistana ilk neft məhsulları partiyasının göndərilməsi ilə bağlı şərh verib.

Politoloqun sözlərinə görə, inkişaf etmiş neft emalı infrastrukturu və davamlı ixrac potensialına malik olan Azərbaycan regionda etibarlı və məsuliyyətli enerji təchizatçısı kimi rolunu ardıcıl olaraq gücləndirir. "Danışıqlar prosesi fonunda enerji sektorundakı iqtisadi əlaqələr qarşılıqlı iqtisadi maraq elementləri yaradır ki, bu da dialoqun təşviqi və etimadın qurulması üçün daha əlverişli mühit yarada bilər", - deyə agentliyin həmsöhbəti qeyd edib.

O əlavə edib ki, neft məhsullarının tədarükü avtomatik olaraq tərəflər arasında siyasi yaxınlaşma demək deyil. "Bu, münasibətlərin mərhələli normallaşması məntiqini əks etdirir, burada iqtisadi əməkdaşlıq sülh danışıqları ilə paralel olaraq inkişaf edir və tərəflərin münaqişədən sonrakı dövrdə daha sabit və proqnozlaşdırıla bilən qarşılıqlı fəaliyyət formatlarına hazırlığının praktik göstəricisi kimi xidmət edə bilər", - deyə ekspert sözünü yekunlaşdırıb.

# Güclü lider, siyasi qətiyyət və iqtisadi müstəqillik

## Bu həqiqətlər Azərbaycanın uğurlarının əsas səbəbləridir



**Azərbaycan beynəlxalq sülh, sabitlik və əmin-amanlığın təminatına yüksək töhfə verməklə regional siyasətin formalaşdırılmasında mühüm rol oynayan dövlətə çevrilib. Bu, Prezident İlham Əliyevin zəngin liderlik bacarığı, praqmatik xarici siyasətinin nəticəsidir.**

Azərbaycan xalqı hər zaman Prezident İlham Əliyevi dəstəkləyib. Belə ki, 2003-cü il oktyabrın 15-də prezident seçkilərində seçicilərin 76 faizindən çoxu, 2008-ci il oktyabrın 15-də 88,73 faizi, 2013-cü il oktyabrın 9-da 84,54 faizi, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə isə 86,02 faizi məhz cənab İlham Əliyevin lehinə səs verib.

2024-cü il fevralın 7-də ilk dəfə müstəqil həyatımızda bütün ərazilərimizdə keçirilmiş Zəfər seçkisində də seçici fəallığı 76,43 faiz olmuşdur. İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Ötən dövrdə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialının formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahının yüksəlməsi, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.

İqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini tam bərpa etməklə regionun lideri, eyni zamanda qlobal aktor kimi qəbul olunur. Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına Qələbəni bəxş etmiş müzəffər orduya çevrilmişdir.

Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş Zəfər paradı, həmçinin 2025-ci il noyabrın 8-də Qələbənin beşinci ildönümünə həsr olunmuş möhtəşəm hərbi parad təkcə xalqımız üçün deyil, bütün türk dünyası üçün mühüm hadisə oldu.

Azərbaycanda hərbi sənaye kompleksinin yaradılması ölkənin hərbi qüdrətini daha da artırmaqdadır. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb.

Ümumiyyətlə, son 22 il müasir Azərbaycanın inkişaf tarixində tam yeni mərhələ kimi xarakterizə olunur. Belə ki, Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim edən Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın daha da güclənməsinə xidmət edib.

Ölkəmiz qlobal əhəmiyyətli təşəbbüslərin müəllifi kimi də etimad qazanıb. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsini, bölgədəki əməkdaşlığın dərinləşməsini şərtləndirib. BMT, Qoşulmama Hərəkatı, TDT kimi nüfuzlu təsisatlarda yüksəksəviyyəli təmsilçilik ölkəmizin beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. D-8 kimi təşkilata yekdilliklə üzv qəbul olunması ölkəmizə bütün beynəlxalq platformalarda, o cümlədən islam dünyasında olan etimadın göstəricisidir.

Ötən il BMT-nin ən nüfuzlu platforması olan COP29-a Azərbaycanın sədrliyi ölkəmizin iqlim dəyişmələri, qlobal əməkdaşlıq kimi məsələlərdə liderlik bacarığını, beynəlxalq dialoq və fəaliyyətdə rolunu bir daha nümayiş etdirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişib. 2025-ci ilin avqustunda Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Birgə Bəyannamə imzalanıb. Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq edib. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstdə Azərbaycan tərəfi sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək, Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasını gözləyir.

Birgə Bəyannamədə xüsusi əhəmiyyət kəsb edən daha bir müddəa iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılmasına dair bənddir. Sənəddə Ermənistan ərazisində xüsusi bağlantı layihəsi - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" həyata keçiriləcəyi təsbit olunub. Bu müddəa Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflanıb və rəsmi Bakının haqlı tələbinə uyğun olaraq, ATƏT-in Minsk qrupu və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalanıb. 2025-ci ilin dekabrında Minsk qrupu və onun əlaqədar strukturlarının bağlanması yekunlaşdı.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də müasir inkişaf ideologiyasına əsaslanan yeni sosial-iqtisadi artım modelinin bazasında həyata keçiriləcəkdir. Bu model ölkənin bütün resurslarını və nailiyyətlərini səfərbər etməklə, onları uzunmüddətli dövrdə qarşıya qoyulan strateji vəzifələrin reallaşmasına yönəldəcək.

Yeri gəlmişkən, Ermənistan-Azərbaycan münaqişəsinin həlli regionun təhlükəsizliyi və investisiya cəlbediciliyi baxımından strateji əhəmiyyətə malikdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verməkdədir.

Uğurla həyata keçirilən Böyük qayıdış strategiyası yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionda yeni inkişaf modelini yaratmaqdan ibarətdir.

İrimiqyaslı infrastruktur layihələri azad olunmuş əraziləri regionun ən inkişaf etmiş bölgəsinə çevirməkdədir. İşğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın öz doğma yurduna qayıtması son 5 ildə əsas prioritetdir.

"Böyük Qayıdışa dair I Dövlət Proqram"ının icrası uğurla davam etdirilir. İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın davamlılığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev 2025-ci il 30 may tarixində imzaladığı sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihəsinin hazırlanmasını tapşırmışdır.

Görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

Qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir.

Bu gün tam qürurla deyə bilirik ki, 22 il öncə müəyyən olunmuş bütün vəzifələr icra edilib. Cənab Prezidentin də söylədiyi kimi, Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan verib. Azərbaycanın uğurlarının əsas səbəbi isə güclü lider, iqtisadi müstəqillik və siyasi iradədir.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***

# "Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirik"

## Bunu dünya liderlərinin dövlətimizin başçısı haqqında söylədikləri fikirlərin ümumi ifadəsi kimi qəbul etmək olar

**Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını beynəlxalq müstəvidə uğurla müdafiə edərək onu sayılıb-seçilən qüdrətli ölkəyə çevirib. Bu gün Azərbaycan qlobal siyasi və iqtisadi proseslərin fəal iştirakçısıdır.**

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, böyük gələcəyə hesablanmış nəhəng layihələr dövlətimizin başçısının təşəbbüskarlığı, səyi və dünyada qazandığı nüfuz sayəsində sayca artıb, onların coğrafiyası genişlənib, əhəmiyyəti və təkcə ölkəmizə deyil, bütün regiona gətirdiyi faydalar artıb. 2020-ci ilin sonunda tam istismara verilən "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini yenidən formalaşdırıb. İndi Azərbaycan dünyanın 14 ölkəsinə qaz ixrac edir. Ölkəmiz beynəlxalq miqyasda etibarlı tərəfdaş imicini qazanıb.

Ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etmiş Azərbaycan bu gün regionu sülh və əməkdaşlıq məkanına çevirir. Bütün bu və digər uğurlarımızın memarı Prezident İlham Əliyevdir.

Azərbaycan Prezidentinin dünya liderləri ilə formalaşmış qarşılıqlı etimada əsaslanan münasibətləri də var. Onlarca uzaq və yaxın ölkə rəhbərləri dövlətimizin başçısı haqqında layiq olduğu ən yüksək fikirlər söyləyiblər. Onlardan yalnız bir neçəsini xatırlatmaq kifayətdir.

"Bizim ailəmiz türk dünyasıdır" deyir Prezidentimiz. Odur ki, ilk olaraq qardaşımız Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın fikirlərini çatdıraq: "İlham qardaşımın Baş komandanlığı və rəhbərliyi altında Azərbaycan 30 ilə yaxın davam edən işğalı 44 gündə sona çatdıraraq, haqlı mübarizəsində tarixi bir zəfər qazandı. Vətən müharibəsi dövründə müxtəlif təxribatlara rəğmən, İlham qardaşım qətiyyətli liderlik sərgiləyərək, zəfərin baş memarı olub. Bir milyon qaçqın qardaşımızın evə qayıdış yollarını açdı, bu qüruru və sevinci Türkiyə və Azərbaycanda bizim hamımıza yaşatdı...

Ümummilli Lider Heydər Əliyev dövründə başlayan və İlham qardaşımın dövründə davam edən inkişafla Azərbaycan bir cəlbedici mərkəzə çevrildi. Paytaxt Bakı Xəzərin parlayan ulduzuna çevrildi.

İlham Əliyev Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişaf etməsində böyük səylər göstərib. Ölkələrimiz arasındakı qardaşlığın zirvədə olmasında İlham qardaşımın səmimiyyətinin payı böyükdür. Ümummilli Liderin bizlərə miras qoyduğu "bir millət, iki dövlət" şüarını İlham qardaşımla birlikdə daha irəlilərə aparmaqda qərarlıyıq".

Son illər Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın hərtərəfli inkişafında da dövlətimizin başçısının rolu böyükdür. Ali səviyyədə qarşılıqlı səfərlər, start verilən qlobal layihələr dost və qardaş ölkələri birbirinə daha yaxın edir. Qarşı tərəflər də bütün bunları layiqincə dəyərləndirir. Məsələn, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev deyir: "İlham Heydər oğlu Əliyev tarixi miqyasda görkəmli dövlət xadimidir. O, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə və möhkəmləndirilməsinə həlledici töhfə verib. Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın dünya arenasında nüfuzu və təsiri dəfələrlə güclənib. Onun güclü liderliyi ilə Azərbaycan bir çox sahədə, hər şeydən əvvəl sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb. Genişmiqyaslı islahatların nəticələri iqtisadiyyatın davamlı artımında, vətəndaşların rifahının yüksəldilməsində, Sizin ölkənizin dinamik şəkildə dəyişməsində öz əksini tapır. Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəriciləri dayanıqlılıq ilə fərqlənir və ölkənin tərəqqisinin, iqtisadiyyatınızın yaxşı formada olmasının inandırıcı göstəricisidir".

Nailiyyətlərimizə sevinənlər sırasında dost və qardaş Özbəkistan da var. Özbəkistan lideri Şavkat Mirziyoyev öz xalqı və ölkəsi adından bunu belə ifadə edib: "Azərbaycan inkişaf edir, böyük dəyişikliklər müşahidə edirəm. İqtisadiyyat artır, investisiyalar artır və bütün bunlar Azərbaycan Prezidenti, dostum və qardaşım İlham Heydər oğlunun gündəlik, yorulmaz əməyinin bəhrəsidir. Azərbaycanda həyata keçirilən bir çox işləri öyrənir, təhlil edir və bu təcrübəni mənimsəyirik. İlham Heydər oğlu bizə başqa cür yanaşır və biz bunları qiymətləndiririk. Özbəkistan və Özbəkistan Prezidenti də eyni münasibət bəsləyir".

Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə dostluğa əsaslanan münasibətləri ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin formalaşmasında müstəsna rol oynayıb. Bu əməkdaşlıq ölkəmizin yerləşdiyi region üçün də yeni fürsətlər yaradır. Təsadüfi deyil ki, Si Cinpin dövlətimizin başçısına "əziz dostum" deyə müraciət edir. Bu günlərdə Prezidentimizi doğum günü münasibətilə ilk təbrik edənlərdən biri də məhz Asiya nəhənginin sədri olub. Təbrikdə deyilir: "Məqsədyönlü rəhbərliyimizlə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətləri sürətlə inkişaf edir, ölkələrimiz arasında qarşılıqlı siyasi etimad daim möhkəmlənir, ikitərəfli faydalı əməkdaşlıq durmadan inkişaf edir və beynəlxalq səviyyədə fəaliyyət səmərəli şəkildə reallaşdırılır. Bu il ərzində Sizinlə iki dəfə görüşmüşük, əldə etdiyimiz mühüm razılaşmalar səmərəli və hərtərəfli şəkildə həyata keçirilir.

Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Hər iki ölkənin xalqlarının rifahı naminə hərtərəfli əməkdaşlıqda yeni nəticələr əldə etmək üçün Sizinlə birlikdə çalışmağa hazıram".

ABŞ-nin Prezidenti Donald Tramp demişdi ki, İlham Əliyev haqqında çox xoş sözlər eşidib. Bu il avqust ayında ABŞ-yə işgüzar səfəri zamanı isə dövlətmizin başçısını daha yaxından tanıyıb. Azərbaycan və ABŞ prezidentlərinin səmimi dialoqları, dostluq ab-havasında keçirilən görüşləri, tarixi sənədlərin imzalanması dünyanın lider ölkəsinin Azərbaycana, onun Prezidentinə olan hörmətinin əyani təzahürüdür.

Prezident İlham Əliyevin ABŞ-yə sentyabr ayındakı növbəti səfəri zamanı Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar tədbirdə Ağ evin sahibi üzünü Prezidentimizə tutaraq deyib: "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız".

Şərhə ehtiyacı olmayan sözlərdir.

Ölkəmizə rəğbəti, Prezidentimizə ehtiramı olan dövlət başçılarından biri də Belarusun rəhbəri Aleksandr Lukaşenkodur. Onun bir cümləsi sanki Prezident İlham Əliyevin geniş fəaliyyətinə bir möhür vurub: "İlham Əliyev o qədər çox iş görüb ki, hansısa prezident bunu təkrarlaya bilməz"

Lukaşenko həmçinin deyib: "Heydər Əliyev çox uzaqgörən insan idi. İlham Əliyev atasının işlərinin layiqli davamçısıdır".

"Azərbaycan və Prezident İlham Əliyev bizim strateji tərəfdaşımızdır. O, hətta əsl dostdur və indiki dünyada bunu hər kəs haqqında demək asan deyil".

Bu sözlər isə Serbiya Prezidenti Aleksandar Vuçiçə məxsusdur. O deyib ki, Azərbaycan Prezidenti Serbiyada təkcə tanınmış lider deyil, həm də Serbiya xalqının sevdiyi şəxsdir.

Qeyd edək ki, Serbiya Azərbaycandan qaz alan 10 Avropa ölkəsindən biridir. Bu ölkə də Azərbaycanı etibarlı tərəfdaş kimi tanıyır. Odur ki, Vuçiç bunu müxtəlif çıxışlarında belə ifadə edib: "Azərbaycan Prezidenti, böyük dostumuz İlham Əliyev qərar verdi, Serbiyaya hər zaman qaz nəql olunacaq. Bu, ölkəmiz və xalqımız üçün böyük və mühüm qərardır. Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm".

"Mən fikirləşirəm ki, biz Prezident İlham Əliyevdən çox şey öyrənə bilərik", - deyə Serbiya Prezidenti bildirib.

Vurğulayaq ki, bunlar dövlətimizin başçısı haqqında səsləndirilən fikirlərdən yalnız bir neçəsidir. Yüksək dəyər ifadə edən belə çoxsaylı fikirləri eşitdikcə qürur duymamaq mümkün deyil. Xalqın təbirincə desək, insanın ürəyi dağa dönür - Vətəni, dövləti, Prezidenti üçün!

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Qalib xalqın qalib Lideri

**Azərbaycan xalqının çoxəsrlik tarixində taleyüklü anlar, sınaqlarla dolu mərhələlər və şanlı zəfərlər az olmayıb. Bu tarixi yolun ən parlaq və qürurverici səhifələrindən biri isə müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi altında yazılıb. Bu gün Azərbaycan qalib xalq kimi tanınırsa, bunun arxasında güclü siyasi iradəyə, sarsılmaz mövqeyə və milli maraqlara söykənən qalib lider dayanır.**

İlham Əliyev Azərbaycan xalqının etimadını qazanan, bu etimadı real nəticələrlə doğruldan liderdir. Onun rəhbərliyi ilə ölkəmiz müstəqilliyini yalnız hüquqi baxımdan deyil, iqtisadi, siyasi baxımdan da möhkəmləndirib. Dövlət idarəçiliyində ardıcıllıq, prinsipiallıq və qətiyyət Prezident İlham Əliyevin əsas liderlik xüsusiyyətlərindəndir. O, xalqına arxalanan, xalqı ilə birgə qərar verən və xalqını qələbəyə aparan rəhbərdir.

Prezident İlham Əliyevin siyasi fəaliyyətində Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik xətti əsas istiqamət kimi qorunub saxlanılıb. Bu xətt müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilərək Azərbaycanın güclü, müstəqil və söz sahibi olan dövlətə çevrilməsinə xidmət edib. İqtisadi inkişaf, sosial rifahın yüksəldilməsi, müasir infrastrukturun qurulması və beynəlxalq nüfuzun artması bu siyasətin real nəticələridir.

Azərbaycanın enerji strategiyası Prezident İlham Əliyevin uzaqgörən siyasətinin ən uğurlu nümunələrindən biridir. Reallaşdırılan nəhəng enerji layihələri ölkəmizi regionun əsas enerji mərkəzinə çevirib, iqtisadi müstəqilliyimizi möhkəmləndirib və dövlətin gələcək inkişafı üçün möhkəm təməl yaradıb. Güclü iqtisadiyyat isə güclü ordunun və güclü dövlətin əsas dayağıdır. Məhz bu güclü dövlət və güclü ordu 2020-ci ildə Azərbaycan xalqını tarixi Qələbəyə apardı. 44 günlük Vətən müharibəsi təkcə hərbi qələbə deyil, həm də milli ləyaqətin, ədalətin və tarixi haqqın bərpası oldu. Prezident İlham Əliyev bu müharibədə Ali Baş Komandan kimi qətiyyətli, təmkinli və məsuliyyətli lider obrazı ilə tarixə düşdü. Onun verdiyi strateji qərarlar, yürütdüyü prinsipial diplomatiya və xalqla qurduğu sarsılmaz birlik Qələbənin əsas açarı oldu. Bu Qələbə Azərbaycan xalqının öz liderinə olan inamını daha da gücləndirdi. Müharibə dövründə Prezident İlham Əliyevin dünya ictimaiyyəti qarşısında mükəmməl çıxışları, həqiqətləri cəsarətlə müdafiə etməsi və milli mövqedən bir addım da geri çəkilməməsi onun əsl liderlik nümunəsini ortaya qoydu. O, xalqın Müzəffər Ali Baş Komandanı olduğunu sübut etdi.

Ümummilli Lider Heydər Əliyevin qoyduğu möhkəm təməl üzərində Prezident İlham Əliyev dünya arenasında yüksək nüfuz qazanmış güclü, qüdrətli dövlət qurub. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ardıcıl olaraq həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də informasiya məkanında möhtəşəm qələbələr qazanır. Bu gün ölkəmiz öz tarixinin ən şanlı dövrlərindən birini yaşayır.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qazanılan və Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin tam bərpası ilə ədalətin və beynəlxalq hüququn təntənəsinə çevrilən Böyük Qələbənin salnaməsi tarixə qızıl hərflərlə yazılıb.

Düşünülmüş və konkret hədəfə istiqamətlənmiş xarici siyasətdə ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, problemin həlli üçün hüquqi bazanın formalaşdırılması xüsusi yer tuturdu. Prezident İlham Əliyev bütün xarici səfərlərində, keçirdiyi görüşlərdə, mötəbər tribunalarda etdiyi açıq və prinsipial çıxışlarla buna nail oldu, dünyanı Azərbaycanın haqlı olduğuna inandıra bildi. Həmçinin münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişləndirildi. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri ilə yanaşı, BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin, digər nüfuzlu beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyünün təmini ilə bağlı müddəalar yer aldı ki, bu sənədlər Vətən müharibəsində haqlı və ədalətli mövqeyimizi daha da gücləndirdi.

Prezident İlham Əliyev qurucu, birləşdirici və islahatçı dövlət başçısıdır, hadisələrin axarını dəyişməyə qadir, dövlətçilik fəaliyyətində milli maraqları ali məqsəd kimi görən və bütün qüvvəsini bu işə həsr edən, xalqın birmənalı şəkildə dəstəklədiyi və etimad göstərdiyi Liderdir.

Qələbədən sonra Prezident İlham Əliyev qarşıya daha böyük məqsədlər qoydu. Azad edilmiş torpaqların bərpası, yenidən qurulması və keçmiş məcburi köçkünlərin tarixi yurdlarına qaytarılması dövlət siyasətinin əsas prioritetinə çevrildi. Böyük qayıdış ideyası yalnız fiziki qayıdışı deyil, milli ruhun, ədalətin və tarixi yaddaşın bərpasını ifadə edir. Bu torpaqlarda yüksələn hər yeni bina, çəkilən hər yol qalib xalqın qalib Liderə olan inamının rəmzidir.

Bu gün Azərbaycan regionda güclü, müstəqil və söz sahibi olan dövlətdir. Bu gücün arxasında Prezident İlham Əliyevin qətiyyətli siyasəti, prinsipial mövqeyi dayanır. Qalib lider olmaq təkcə müharibədə qələbə qazanmaq deyil, həmin qələbəni davamlı inkişafa, sabitliyə və firavan gələcəyə çevirməkdir. İlham Əliyev məhz bunu bacaran rəhbərdir.

Azərbaycan xalqı bu gün qürurla deyir: biz qalib xalqıq, çünki bizim qalib Liderimiz var. İlham Əliyevin adı müasir Azərbaycan tarixində qələbə, güc, müstəqillik və milli birlik anlayışları ilə birgə çəkilir və bu ad tarixdə daim yaşayacaq.

***Mirhaşım CALALOV,***
***tibb üzrə fəlsəfə doktoru,***
***Vətən müharibəsi iştirakçısı***

# Liderliyin anatomiyası

**Hər bir liderin gücü təkcə siyasi bacarıqla deyil, həm də qəlbində daşıdığı hiss və duyğularla ölçülür. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycan xalqının qürurunu, kədərini və ümidini paylaşan, duyğularını gizlətməyən bir Lider kimi seçilir. Dövlətin idarə olunmasına yönəlmiş qərarlar qəbul edir, xalqın tarixi, mədəniyyəti və milli yaddaşına hörmətlə yanaşır, insanların sevincinə sevinib, kədərinə şərik olur. Onun şəxsiyyəti möhkəm və kövrək duyğuların harmoniyasını əks etdirir.**

Prezident İlham Əliyevin liderlik üslubunu xarakterizə edən əsas cəhətlərdən biri emosional ritorikadan uzaq, rasional və ölçülmüş idarəçiliyə sahib olmasıdır. Siyasi davranışlarında populizmdən çox uzunmüddətli strateji düşüncə üstünlük təşkil edir. Bu xüsusiyyət illərdir daxili idarəetmədə və xarici siyasətdə ardıcıl və sakit tərzdə müşahidə olunur. Prezidentin siyasi portreti məhz bu səssizliyin içində çəkilib. O, tribunanın yüksəkliyindən deyil, zamanın dərinliyindən danışmağı seçən Lider, tələskənliyin yox, səbrin dövlət idarəçiliyində əsas silah olduğunu sübut edən siyasi fiqurdur. Dövlət başçısının liderlik portreti səbirli strategiya, praqmatik hesablamalar və böhran anlarında soyuqqanlı qərarvermə üzərində formalaşıb.

Bu mənada keçmiş Dağlıq Qarabağ münaqişəsinin uzun illər diplomatik mərhələdə saxlanılmasını qeyd edə bilərik. Dövlət başçısı 17 il (2003-2020-ci illər) beynəlxalq hüquqa, danışıqlar prosesinə və hərbi-siyasi balansın tədricən dəyişdirilməsinə üstünlük verdi. Yalnız hərbi, diplomatik və iqtisadi üstünlüklər formalaşdıqdan sonra 2020-ci ilin sentyabrında qəti qərar verildi. Bu yanaşma İlham Əliyevin tələskənlikdən uzaq, uzunmüddətli strateji hesablamaya əsaslanan idarəçilik modelinin göstəricisidir. Liderin uzunmüddətli strateji yanaşmasının bariz nümunələrindən biri də "Cənub qaz dəhlizi" layihəsidir. Layihə illərlə, mərhələli şəkildə planlaşdırılıb, səbirli diplomatiya və iqtisadi hesablamalar üzərində qurulub. Nəticədə Azərbaycan 2020-ci ildən etibarən Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi çıxış etməyə başlayıb.

Əsl liderlik sakit günlərdə deyil, böhran anlarında üzə çıxır. Emosiyalara qapılmadan, zamanın ritmini düzgün oxumaq və doğru anı gözləmək güc tələb edir. İlham Əliyevin siyasi davranışında nümayiş olunan güc səbir kimi görünür, əslində isə bu, möhkəm bir iradədir. Onun səbrində strateji gözləmə var. Bu səbrə uzun yolun başlanğıcı da deyə bilərik.

İlham Əliyevin səbirli lider obrazı hesablanmış gözləmə siyasətindən qaynaqlanır. Müxtəlif mərhələlərdə qəbul edilən qərarlar göstərir ki, o, ani reaksiyalarla deyil, prosesin tam mənzərəsini dəyərləndirərək addım atmağa üstünlük verir. Bu yanaşma xüsusilə böhranlı dövrlərdə daha aydın görünür. Krizis anları Liderin həqiqi portretini açır. Sakit dənizdə hamı kapitan ola bilər. Fırtına isə yalnız gerçək və cəsur kapitanı üzə çıxarır, tanıdır. Cəsur kapitanın - İlham Əliyevin böhran şəraitində rasional və ölçülmüş qərarvermə üslubunun konkret nümunəsi COVID-19 pandemiyası dövründə (2020-2021-ci illər) həyata keçirdiyi dövlət idarəçiliyidir. Operativ Qərargah yaradıldı, mərhələli karantin mexanizmləri tətbiq olundu, səhiyyə infrastrukturu qısa müddətdə genişləndirildi və vaksinasiya prosesi planlı şəkildə başa çatdı. Qərarlar real statistika və risk analizləri əsasında qəbul edildi. Bu yanaşma "sözlər az, addımlar dəqiqdir" prinsipinə əsaslanan praqmatik dövlətçilik üslubunu böhran anında ortaya qoydu.

Daxili sabitliyin qorunması, iqtisadi islahatların mərhələli şəkildə aparılması, regional və beynəlxalq münasibətlərdə balanslı siyasət də məhz həmin praqmatik yanaşmanın nəticəsidir. İlham Əliyev üçün siyasi qərarların ictimai rəğbətindən daha çox dövlətin maraqları və uzunmüddətli nəticələri prioritetdir. Belə qərarvermə nümunələrindən biri Azərbaycanın balanslı və bloklara qoşulmayan xarici siyasət xəttinin qorunmasıdır. Dövlət başçısı Azərbaycanı hər hansı hərbi-siyasi alyansa daxil etmədi, suveren qərarverməni və manevr imkanlarını saxladı. Nəticədə Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdi və qlobal platformada müstəqil mövqeyini gücləndirdi. Bu seçim qısamüddətli alqışlara deyil, uzunmüddətli dövlət maraqlarına hesablanmış qərar idi.

Sirr deyil ki, ata irsi Prezident üçün hazır taxt deyil, ağır yükdür. Ulu Öndər Heydər Əliyevin siyasi məktəbi İlham Əliyevin yoluna istiqamət verib. Amma o, bu yolda sadəcə davamçı kimi addımlamayib, dövrün tələblərinə uyğun yeni məzmun və dinamika formalaşdırıb. Siyasi irsi qorumaqla yanaşı, onu müasir dövlətçilik tələbləri ilə zənginləşdirib və ümumi siyasi xətti fərdi liderlik üslubu ilə davam etdirib. 2012-ci ildə "ASAN xidmət" modelinin yaradılması Prezidentin fərdi liderliyinin bariz nümunəsidir. Bu modelin tətbiqində klassik mərkəzləşdirilmiş idarəetmə fəlsəfəsi saxlanıldı, şəffaflıq, rəqəmsallaşma və vətəndaş məmnuniyyəti əlavə olundu. "ASAN xidmət" qısa müddətdə beynəlxalq səviyyədə tanındı və BMT tərəfindən nümunəvi idarəetmə təcrübəsi kimi qiymətləndirildi. Məhz bu fakt göstərir ki, ata siyasi məktəbi onun üçün dəyişməz sxem deyil, üzərində yeni dövrün tələblərinə uyğun idarəçilik inşa edilən təməl olub.

İlham Əliyev yeni siyasi kurs yaradan Lider oldu. Bunun nümunəsi 2004-2018-ci illərdə Azərbaycanın iqtisadi modelinin köklü şəkildə dəyişdirilməsidir. Həmin dövrdə strateji valyuta ehtiyatları formalaşdırıldı, regionların sosial-iqtisadi inkişaf proqramları həyata keçirildi və Azərbaycan qısa müddətdə borclu ölkədən kreditor ölkəyə çevrildi. Bu, mövcud potensialı idarə etmək deyil, yeni reallıq yaratmaq idi. Məhz həmin qərarlar İlham Əliyevin atasının siyasi irsindən çıxaraq öz kölgəsini yaradan Lider kimi tarixdə yer tutduğunun göstəricisidir.

İlham Əliyevin soyuqqanlılığı bəzən yanlış anlaşılır. Halbuki bu, laqeydlik deyil, məsuliyyətin ağırlığıdır. Çünki dövlət emosiyalarla idarə olunmur, o, hesab, balans və nəticə tələb edir. Fakt: 2015-2016-cı illərdə dünya neft qiymətlərinin kəskin düşməsi fonunda manatın devalvasiyasından sonra atılan addımlar. Emosional və populist vədlər verilmədi, əksinə, sərt, lakin zəruri qərarlarla dövlətin büdcə siyasəti ilə bağlı intizam gücləndirildi, strateji valyuta ehtiyatları qorundu, sosial öhdəliklər mərhələli şəkildə saxlanıldı. Bu proses göstərdi ki, İlham Əliyevin soyuqqanlılığı laqeydlik deyil, dövlətin davamlılığını qorumaq üçün emosiyaları kənarda saxlayan məsuliyyətli idarəçilikdir. Qısamüddətli rahatlıq yox, uzunmüddətli milli maraq əsas götürüldü.

Prezident İlham Əliyev həssas və dərin duyğulara malik Lider kimi seçilir. Azərbaycanın faciəli tarixini, şəhidlərin fədakarlığını və xalqın çəkdiyi ağrını həmişə ürəyində daşıyır və bunu açıq şəkildə nümayiş etdirir. Nitqlərində və çıxışlarında emosiyalarını gizlətmir, aydın görünən kövrək baxışları ağrını və qüruru ifadə edir. Qələbə və azadlıq anlarında onun sevinci və qüruru duyğusal səviyyədə hiss olunur. İlham Əliyev həm də anlayışlı bir Liderdir, xalqın hissləri ilə eyni dalğada olur. Ali Baş Komandanın Şəhidlər xiyabanında Şuşanın azadlığı haqqında qələbə xəbərini verərkən kövrəldiyi heç kimin gözündən yayınmamışdı. Şuşada "Xarıbülbül" festivalında Heydər Əliyev ilə bağlı videoçarxa baxarkən də kövrək duyğularını gizlədə bilməmişdi.

Vətən müharibəsi zamanı və sonrasında şəhid ailələri ilə görüşlərində səmimi duyğularını ifadə edərək onların kədərinə şərik olduğunu hiss etdirir. Bu hallar Prezident İlham Əliyevin duyğularını açıq ifadə edən, xalqının hisslərini dərin anlayan bir şəxsiyyət olduğunu ortaya qoyur. Ali Baş Komandanın azad edilmiş torpaqlara, xüsusilə Şuşa şəhərinə ilk səfərində çıxışları qürur, həm də milli ruh və kövrək sevinc hissini ifadə edir, Şuşanı "Azərbaycan xalqının ürəyi və ruhu" kimi təsvir edərək, strateji və mənəvi önəmini vurğulayırdı. Onun söylədiyi "Əziz Şuşa, sən azadsan. Əziz Şuşa, biz səni dirçəldəcəyik" sözləri beş ildir xalqın dilində qürurla səslənir.

İlham Əliyev xalqın dilini yaxşı bilməsi və cəmiyyətin psixologiyasını dərindən anlaması ilə seçilir. Sadə, anlaşılan üslubda danışaraq insanların gündəlik problemlərinə toxunur və onların gözləntilərini düzgün anlamağı bacarır. Çıxışlarında milli dəyərlərə, tarixi yaddaşa və real sosial-iqtisadi çağırışlara istinad etməsi isə kütlə ilə təbii ünsiyyət yaradır, etimad hissini gücləndirir. Bu xüsusiyyətlər onun qərarlarını geniş ictimai dəstəyə söykənərək əsaslandırmasına, islahatları mərhələli və izahlı şəkildə təqdim etməsinə imkan verir ki, nəticədə də idarəetmədə ardıcıllıqla yanaşı, cəmiyyətlə dialoq mühiti formalaşır.

Prezident İlham Əliyevin şəxsiyyətini xarakterizə edən əsas xüsusiyyətlərdən biri onun azərbaycanlılara məxsus qonaqpərvərlik ənənələrini dövlət idarəçiliyində də yüksək səviyyədə yaşatmasıdır. Azərbaycan tarixən qonaqpərvərliyi ilə seçilən bir xalq olub və bu milli xüsusiyyət ölkənin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır. Məhz həmin keyfiyyət dövlət başçısının rəhbərliyi altında Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin ən yüksək səviyyədə təşkil olunmasında özünü aydın şəkildə göstərir. Bakıda və ölkənin müxtəlif bölgələrində təşkil edilən beynəlxalq forumlar, zirvə görüşləri, mədəniyyət və idman tədbirləri təkcə peşəkar təşkilatçılıqla deyil, eyni zamanda səmimi münasibət, diqqət və hörmət mühiti ilə yadda qalır. Xarici dövlət və hökumət başçıları, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanda özlərini sadəcə rəsmi qonaq olmaqdan çox doğma bir məkanda hiss edirlər. Bu isə təsadüfi deyil, belə münasibətin təməlində Prezidentin şəxsi qonaqpərvər xarakteri dayanır.

Digər ölkələrdə keçirilən tədbirlərlə müqayisədə Azərbaycandakı görüşlərin daha isti və yaddaqalan olması məhz bu milli-mənəvi yanaşmadan qaynaqlanır. Prezident İlham Əliyev üçün qonaqpərvərlik sadəcə protokol qaydası deyil, milli kimliyin və dövlət mədəniyyətinin ayrılmaz hissəsidir. Bu keyfiyyət Azərbaycanın dünyaya açılan pəncərəsini daha da genişləndirir, ölkəmizi etibarlı tərəfdaşa hörmət edilən beynəlxalq mərkəzə çevirir. Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin yüksək səviyyədə baş tutması təkcə maddi imkanların və təşkilati bacarığın nəticəsi deyil, eyni zamanda Prezident İlham Əliyevin şəxsiyyətində cəmlənmiş azərbaycanlı qonaqpərvərliyinin bariz təzahürüdür.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***




# Regionda yeni reallıqlar və Azərbaycanın sülh təşəbbüsləri

**Azərbaycan həmişə sülh istəyib. Tarixinin bütün dövrlərində ölkəmiz, xalqımız sülhsevərliyi ilə tanınıb. Azərbaycan xalqı dünyanın ən mərd, cəsur, qorxmaz xalqlarından biridir. Övladları düşmən qarşısında geri çəkilmədiyini, vətəni yolunda canını fəda etməyə hər an hazır olduğunu dönə-dönə təsdiqləyiblər. Eyni zamanda humanistlik həmişə bu xalqın ən böyük məziyyətlərindən olub və nəinki öz torpaqlarında, bütün dünyada münaqişələrin, müharibələrin baş verməsinin əleyhinə olub. Ancaq təəssüf ki, Azərbaycan xalqı zaman-zaman ədalətsizliklərlə üzləşib. Torpaqları düşmən hücumlarına məruz qalıb.**

Ötən əsrin sonlarında da xalqımızı münaqişəyə çəkdilər, ərazilərinə müharibə alovları saldılar. 1980-ci illərin sonlarından başlayaraq, keçmiş SSRİ (Sovet Sosialist Respublikaları İttifaqı) rəhbərliyindən hər cür yardım alan, silahlanan ermənilər Azərbaycanın bir sıra ərazilərində dinc azərbaycanlılara qarşı hücumlar təşkil etdilər. Münaqişə ocağını körüklədilər və müharibəyə çevirdilər. Birinci Qarabağ müharibəsi baş verdi. Ermənistan 1990-cı illərin əvvəllərində Azərbaycanın 20 faiz torpaqlarını ələ keçirdi və 30 ilə yaxın işğal altında saxladı. Qarabağ və Şərqi Zəngəzur bölgələrinə həsrət qaldıq. Qəsbkarlar həmin əraziləri xarabalığa çevirdilər.

İşğalın davam etdirildiyi illərdə də Azərbaycan dövlətinin, xalqının mövqeyi aydın və qətiyyətli idi. Uzun illər ərazilərimizin azad edilməsi istiqamətində aparılan işlər göstərirdi ki, Azərbaycan heç zaman öz torpaqlarını heç kimə güzəştə getməyəcək. Prezident İlham Əliyev bəyan edirdi ki, Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcək.

Azərbaycan öz torpaqlarını sülh yolu ilə azad etmək niyyətində idi. Ölkəmizin bu istiqamətdə göstərdiyi səylərə Ermənistan silahlı qüvvələri ordumuzun mövqelərini, mülki vətəndaşlarımızın yaşayış yerlərini iriçaplı silahlardan atəşə tutmaqla cavab verirdi. 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsi də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı səbəbindən başladı. Lakin bu dəfə istər Ermənistan, istərsə də ona havadarlıq edənlər qüdrətinə heyrət etdikləri bir Azərbaycan gördülər.

Azərbaycan öz gücü ilə Qarabağ və Şərqi Zəngəzur torpaqlarını işğaldan azad etdi. Ədalət bərpa olundu. Azərbaycan dövləti Ermənistanın dağıdıb yerlə yeksan etdiyi ərazilərini yenidən qurur. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə öz dədə-baba yurdlarına qayıdırlar.

İkinci Qarabağ müharibəsindən sonra da sülhün təşəbbüskarı qalib Azərbaycan dövləti oldu. Bununla ölkəmiz bir daha bütün dünyaya öz sülhsevərliyini nümayiş etdirdi.

Bu il avqustun 8-də Vaşinqtonda ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan görüşərək, sülh danışıqları çərçivəsində mühüm sənədlər imzaladılar. Qəbul edilən Birgə Bəyannamədə əksini tapan müddəalar, sülh sazişi layihəsinin paraflanması yalnız bu iki ölkə arasında deyil, ümumilikdə regionda uzunmüddətli sabitliyin bərqərar olmasına doğru atılan uğurlu addım kimi qiymətləndirildi.

Sülhün davamlı olması üçün Azərbaycan mühüm işlər həyata keçirməkdə davam edir. Bu il oktyabrın 21-də Qazaxıstanda səfərdə olanda Prezident İlham Əliyev mətbuata bəyanatında qeyd etdi ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb: "Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".

Azərbaycanın tranzit yük daşımalarına qoyduğu məhdudiyyətləri aradan qaldırması nəticəsində artıq bir neçə dəfə Qazaxıstan və Rusiyadan Ermənistana qatar vasitəsilə taxıl ixrac olunub. Eyni zamanda dekabrın 19-da Azərbaycandan Ermənistana neft məhsullarının tədarükünə başlanılıb.

Bu il noyabrın 28-də Qəbələdə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev ilə Ermənistan baş nazirinin müavini Mher Qriqoryanın görüşündə yanacaq ixracı barədə razılaşma əldə edilib.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən ilk dəfə olaraq dekabrın 19-da yerli mənşəli neft yükünün Ermənistana tədarükü reallaşıb. Böyük Kəsik stansiyasından ADY-nin yük qatarı ilə yola salınan 22 vaqona yüklənmiş 1220 ton Aİ-95 markalı avtomobil yanacağı Gürcüstan vasitəsilə Ermənistana çatdırılıb.

Azərbaycanın atdığı addımlar iqtisadi tənəzzüllə üzləşmiş Ermənistanı, necə deyərlər, ağ günə çıxarır, çörək korluğundan, yanacaq ehtiyacından qurtarır. Bəs bunun müqabilində Ermənistan nə edəcək?

Dövlətimizin başçısı İlham Əliyevin bu il avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində vurğuladığı kimi, Ermənistanın da ev tapşırıqları var. Rəsmi İrəvan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli, bununla sülhə sadiqliyini əməlləri ilə təsdiqləməlidir.

Təəssüflə xatırladaq ki, dekabrın 2-də Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəddə postmünaqişə dövrünün reallıqları təhrif edildi. İnsanlıq əleyhinə cinayətlərin, hərbi cinayətlərdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslərin "əsir" statusunda qeyd edilməsi, onların azadlığa buraxılmasının ayrıca prioritet kimi müəyyən edilməsi və digər sülh gündəliyinə zidd olan məsələlərin sözügedən sənəddə əksini tapması haqlı olaraq Azərbaycanda etirazla qarşılandı.

Sankt-Peterburqda keçirilən Ali Avrasiya İqtisadi Şurasının iclasında isə Ermənistanın baş naziri Nikol Paşinyan yüklərin Azərbaycan ərazisindən Ermənistan istiqamətində tranzitinin açılması və ikitərəfli ticarətin başlanması üçün şəraitin yaradılması ilə bağlı qəbul edilən qərara görə, Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Qarşılıqlı və bərabərhüquqlu prinsiplər habelə suverenlik və milli yurisdiksiyalar əsasında ticarət-logistika əməkdaşlığının inkişaf perspektivlərini qeyd edən Ermənistanın hökumət başçısı onu da bildirib ki, baş verən müsbət və konstruktiv dəyişikliklər bu böyük regionun bütün ölkələri üçün yeni imkanlar yaradır, iqtisadi dayanıqlılığın möhkəmləndirilməsinə və regional kommunikasiyaların genişlənməsinə töhfə verir: "Bu baxımdan yüklərin Azərbaycan ərazisindən Ermənistan istiqamətində tranzitinin açılması, eləcə də ikitərəfli ticarətin başlanması üçün şəraitin yaradılması barədə qərara görə, Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığımı bildirirəm. Bu, regionda sülhün və sabitliyin bərqərar olunması çərçivəsində əldə edilmiş ilk və ən mühüm nailiyyətlərdən biridir".

Bütün dünyaya bəllidir ki, otuz ilə yaxın Qarabağ və Şərqi Zəngəzur torpaqları işğal altında qalmış, minlərlə vətəndaşı şəhid edilmiş, bir milyon vətəndaşı məcburi köçkün kimi yaşamaq məcburiyyətində olmuş Azərbaycan öz tarixini unutmasa da, bütövlüklə Cənubi Qafqazın müharibəsiz, qan-qadasız, sülh, sabitlik içərisində yaşanacaq bu günü və sabahı naminə çalışır. Regionun lider ölkəsi olan, dünyada nüfuzu gündən-günə möhkəmlənən dövlətimizin hər zamankı kimi, sözü ilə əməli birdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# "Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Qələbə strategiyasının reallaşmasını təmin edib"

**"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi praqmatik və müdrik siyasət sayəsində Azərbaycan böyük və sürətli inkişaf dövrü keçərək parlaq nailiyyətlərə, qələbələrə imza atıb. Dayanıqlı inkişafın, sabitliyin və təhlükəsizliyin təmin olunduğu ölkəmiz müdrik liderinin rəhbərliyi ilə tərəqqi yolunda uğurla addımlayır".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov deyib.



Şahin İsmayılov vurğulayıb ki, 2003-cü ildə müdrik Azərbaycan xalqı səs verərək gələcək taleyini Prezident İlham Əliyevə etibar edib. Ümummilli Liderin siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kurs ötən 22 il ərzində Azərbaycanı uğurdan-uğura, qələbədən-qələbəyə aparıb. Prezident İlham Əliyev Ümummilli Liderin möhkəm təməlini qoyduğu Azərbaycanı müstəqil siyasətə, güclü iqtisadi dayaqlara, qüdrətli orduya, beynəlxalq münasibətlər sistemində böyük nüfuza malik ölkəyə çevirib. Bu gün Azərbaycan nəinki regionda, daha geniş coğrafiyada güclü dövlət olaraq qəbul olunur, etibarlı strateji tərəfdaş kimi tanınır.

Müstəqilliyinin bərpasından cəmi 20 il sonra Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildiyini xatırladan komitə sədri bildirib ki, bu, beynəlxalq ictimaiyyətin gənc ölkəmizə böyük hörmətinin bariz nümunəsi olmaqla yanaşı, Azərbaycan üçün önəmli tarixi nailiyyətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli xarici siyasi kurs nəticəsində ötən illər ərzində Azərbaycan dünya dövlətləri ilə, mühüm beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıqlar qurub, ölkəmizin beynəlxalq mövqelərinin güclənməsi təmin edilib. Bu xüsusda, təbii ki, Azərbaycanın Qoşulmama Hərəkatına dörd il ərzində uğurlu sədrliyini qeyd etmək vacibdir. Dövlətimizin başçısının Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü qlobal və ümumbəşəri dəyərlərə əsaslanan təşəbbüslər həm respublikamızın, həm də Hərəkatın beynəlxalq nüfuzunun yüksəlməsində önəmli rol oynayıb.

"Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsini xarici siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirən Azərbaycan türk dünyasının güclənməsinə, onun təşkilatlanmasına, beynəlxalq miqyasda nüfuz qazanmasına mühüm töhfələr verib. Artıq Türk Dövlətləri Təşkilatı beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik təsisatlardan birinə çevrilib.

Bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə dost ölkə, strateji tərəfdaş olaraq qəbul edilir. Azərbaycan isə bu əlaqələri genişləndirmək və qarşılıqlı faydalı əməkdaşlığa çevirmək məqsədilə qlobal təşəbbüslər irəli sürür ki, bu da bütün tərəflərin maraqlarına xidmət edir", - deyə Ş.İsmayılov vurğulayıb.

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi praqmatik xarici siyasət kursunun uğurlu daxili siyasətlə dəstəkləndiyini söyləyən komitə sədri deyib: "Nəhəng infrastruktur layihələri, sahibkarlar üçün yaradılan əlverişli mühit, müasir texnoloji yeniliklərin tətbiqi ilə əldə olunan iqtisadi yüksəliş bugünkü Azərbaycanın reallıqlarıdır. Eyni zamanda dövlətimizin başçısı tərəfindən bölgələrimizin davamlı inkişafı daim diqqət mərkəzində saxlanılır, regionların sosial-iqtisadi tərəqqisi istiqamətində zəruri addımlar atılır. Bu xüsusda regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları bölgələrdə inkişaf proseslərinin sürətlənməsini təmin edib, kənd təsərrüfatının müxtəlif sahələrinin ilə bağlı konkret proqramlar uğurla icra olunub. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşüb. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşıb".

Komitə sədri qeyd edib ki, Prezident İlham Əliyev ölkəmizdə innovativ və müasir təhsil, qabaqcıl səhiyyə sistemlərinin qurulmasını daim diqqət mərkəzində saxlayıb. Bu gün ölkəmizin hər bir bölgəsində vətəndaşların müasir tibb mərkəzlərinə əlçatanlığı təmin olunub. Eləcə də elm və təhsil sektorunun qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi, tədqiqat və tədrisin keyfiyyətinin artırılması istiqamətlərində zəruri addımlar atılıb.

Ölkəmizin hər bir bölgəsində insanların fasiləsiz su və enerji ilə təmin olunması istiqamətində əsaslı işlərin görüldüyünü, müasir infrastrukturun qurulduğunu söyləyən Ş.İsmayılov bildirib ki, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi ilə rifahın daha da yaxşılaşdırılması təmin olunub və bu sahədə işlər ardıcıl olaraq davam etdirilir.

Deputat vurğulayıb ki, Azərbaycanın tarixi torpaqlarını azad etməyə qadir ordusunun formalaşdırılması möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu ən mühüm vəzifələrdən idi. 2003-2020-ci illər ərzində Azərbaycan dövləti bu istiqamətdə böyük işlər görüb, mühüm nailiyyətlərə imza atıb. Ordunun maddi-texniki təchizatı gücləndirilib, peşəkar kadrlar hazırlanıb. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edən sənaye kompleksi yaradılıb.

Şahin İsmayılov bildirib ki, dövlət başçısının rəhbərliyi ilə bütün sahələrdə, həm beynəlxalq miqyasda qazandığımız uğurlar, sosial və iqtisadi sahədə əldə olunan nailiyyətlər tarixi zəfərlərimizə yol açıb. Prezident İlham Əliyevin illər ərzində müdrikliklə həyata keçirdiyi siyasət Qələbə strategiyasının reallaşmasını təmin edib. Vətən müharibəsində Azərbaycan xalqı liderinin ətrafında sıx birləşərək tarixi missiyanı icra edib, əbədi torpaqlarını işğalçılardan təmizləyib. 2023-cü ilin sentyabrında cəmi bir gün ərzində həyata keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycanın suverenliyi tam bərpa edilib, ölkəmizdə separatizmin kökü kəsilib.

Qazanılan zəfərlərimizin regionda yeni reallıqlar yaradaraq, qlobal əməkdaşlıq üçün geniş imkanlar açdığını söyləyən komitə sədri bildirib ki, Azərbaycanın irəli sürdüyü sülh gündəliyi artıq beynəlxalq birlik tərəfindən də təsdiq olunub. Cari ildə ABŞ-də imzalanan sənədlər regionun davamlı və dayanıqlı inkişafına əsaslı zəmin yaradır.

Şahin İsmayılov vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa və yenidənqurma işləri Azərbaycanın iqtisadi qüdrətini, xalqımızın quruculuq əzmini bütün dünyaya nümayiş etdirir. Artıq doğma torpaqlarımızda 60 mindən çox insan böyük qürur hissi ilə yaşayır, çalışır və təhsil alır. Bu gün azad torpaqlarımız artıq mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilir. İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Sammitinin, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün, Türkiyə-Azərbaycan-Pakistan liderlərinin üçtərəfli görüşünün azad və çiçəklənən Qarabağda, Şərqi Zəngəzurda keçirilməsi, çoxsaylı dövlət və hökumət başçılarının tarixi torpaqlarımıza səfərləri Azərbaycanın siyasi, diplomatik və geostrateji uğurlarının rəmzidir.

"2024-cü il fevralın 7-də müstəqil Azərbaycan tarixində növbəti bir ilk yaşanıb. Prezident seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün bölgələrində keçirilib. Zəfər seçkisi adını alan 7 fevral səsverməsində qədirbilən xalqımız Azərbaycanın dövlətçilik tarixində növbəti dəfə öz müdrik qərarını verib. Seçicilər Zəfər səsverməsinə böyük ruh yüksəkliyi ilə qatılaraq, tarixi seçimini edərək inkişafının yeni mərhələsini də Prezident İlham Əliyevin müdrik rəhbərliyinə həvalə edib", - deyə komitə sədri qeyd edib.

# Avropa Parlamenti bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsinə zərbə vurmağa çalışır

**Avropa Parlamentinin (AP) deputatları çox yaxşı bilirlər ki, Azərbaycanda yaşayan bütün vətəndaşlara, onun milli, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bərabər münasibət sərgilənir, hüquqları qorunur və azadlıqlar təmin olunur.**

Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında irəli sürdüyü və Milli Məclis tərəfindən qəbul edilən "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Milli Məclisin qərarı da dövlətin öz vətəndaşına göstərdiyi humanist və bərabər münasibətin göstəricisidir.

Bu barədə "Azərbaycan" qəzetinə açıqlamasında məlumat verən Milli Məclisin deputatı, parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov bildirib ki, müstəqilliyimizin möhkəmlənməsini, dövlətimizin güclənməsini və xalqımızın sabitlik və rifah içində yaşamasını istəməyən, bundan narahat olan dairələr hər zaman olduğu kimi, yenə də öz repertuarını dəyişmək istəmir: "Avropa Parlamenti Azərbaycanı qəsdən hədəf almaqdan əl çəkmir. Özü də reallıqları kontekstdən çıxardaraq, maraqlarına cavab verən formada hərəkətə keçir. Sual olunur, niyə məhz son zamanlar Azərbaycana qarşı sərt ritorika və addımlar yenidən aktuallaşıb? AP-nin 18 dekabr 2025-ci il tarixli qətnaməsi qərəzdən, iftiradan, milli heysiyyatımıza toxunmaqdan başqa bir şey deyil".

Deputat qeyd edib ki, AP Azərbaycana qarşı qondarma "siyasi məhbus" iddiası ilə çıxış edir, milli zəmində qarşıdurma yaratmaq kimi çirkin məqsəd güdür: "Azərbaycanda siyasi motivli və yaxud da hansısa etnik kimliyə malik olma faktı üzrə məhbus yoxdur. Bundan heç söhbət də gedə bilməz. AP hətta bir az belə ədalətli olsaydı, bu günlərdə 20 min nəfərə şamil olunan amnistiya aktının qəbulunu təqdir edərdi. Onlara Azərbaycan vətəndaşının haqqının müdafiəsi maraqlı deyil. Görünən odur ki, avropalı parlamentarilər sadəcə onların Azərbaycana uzadılan əllərinin kəsilməsindən narahatdırlar. Təbii ki, dövlətə və dövlətin qanunlarına əks gedən hər bir kəs qanun qarşısında məsuliyyət daşımalıdır".



Azər Badamovun sözlərinə görə, AP-nin bu addımı həmçinin vətəndaş cəmiyyəti nümayəndələri vasitəsilə möhkəmləndirilməyə çalışılan etimad mühitinin gedişatına zərbədir. Avropa Parlamenti bu ritorika vasitəsilə gələcək tərəfdaşlıq müqaviləsində ehtiva ediləcək məsələləri artıq təzyiq əsasında formalaşdırmağa çalışır, şərt qoyur, şantaj edir. Bu təşkilat qəbul etdiyi qətnamədə səsləndirilən ritorika ilə Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri vasitəsilə möhkəmləndirilməyə çalışılan etimad mühitinin gedişatının qarşısını almağa çalışır. AP-nin bu münasibəti yalan və qərəz, iftiradan başqa bir şey deyildir, proseslərin gedişatını kontekstdən uzaqlaşdırmaq cəhdi daşıyır. Bu, bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsi amalına vurulan zərbə olmaqla yanaşı, sifarişli tərəflərin, maraqlı qüvvələrin təxəyyülünün məhsuludur.

"Azərbaycana qarşı qərəzli qətnamələr qəbul edən Avropanın özündə azad fikir ifadə edən insanların təqib edildiyini, etirazını bildirmək üçün aksiyalara qoşulanların atların təpikləri altına salındığını və itlərin etirazçıların üstlərinə buraxılması hallarını az müşahidə etməmişik. Avropalı parlamentarilər, həqiqətən, insan haqlarından danışırsa, niyə öz ərazilərində haqları pozulan avropalıların hüquqlarının müdafiəsindən heç vaxt bəhs etmirlər?

AP-nin Azərbaycan haqqında qəbul etdiyi qərəzli qətnamə ilə bağlı Milli Məclis bəyanat qəbul edib. Avropalı parlamentarilər Ermənistanda uzun illər ərzində vətəndaşların tapdalanmış haqları haqqında heç vaxt səslərini çıxarmayıblar. Amma Azərbaycana qarşı qərəzli münasibət daim fəailiyyətlərində əsas xətt təşkil edib. Azərbaycan Respublikası Milli Məclisi avropalı deputatların öz müstəqlliyini təmin edərək firavan və təhlükəsiz həyat təmin etmiş ölkəmizə diktə ritorikası ilə ittiham etmək istəklərini kəskin pisləmişdir.

Deputat qeyd edib ki, AP-nin qəbul etdiyi kağız parçaları xalqımızı və dövlətimizi yolundan və özünün ədalətli mövqeyindən heç vaxt çəkindirə bilməz. Əksinə, belə qərəz və ikili standartlarla qarşılaşmağımız bizi daha da birləşdirir və mübariz edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# Konstitusiya və Suverenlik İli 2025



## Azərbaycan humanizmə əsaslanan dövlətçilik modelini seçmişdir



**Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında irəli sürdüyü və Milli Məclis tərəfindən qəbul olunan amnistiya aktı yalnız hüquqi bir mexanizmin tətbiqi deyil, həm də dövlət idarəçiliyinin dərin fəlsəfəsinə aid məsələdir. Bu, qalib dövlətin özünə inamının ifadəsidir, cəmiyyətdə inklüzivliyin təmininə yönəlik humanist və sosialyönümlü hüquqi addımdır.**

Amnistiya dövlətin humanitar dəyərlərə, hüquqa, o cümlədən beynəlxalq hüquqa və sosial barışa sadiqliyini nümayiş etdirən yumşaq güc alətidir. Amnistiya aktı həmçinin dövlətin dəyərlərini və niyyətini beynəlxalq auditoriyaya ötürən simvolik addımdır.

Bu səbəbdən Prezident İlham Əliyevin amnistiya təşəbbüsünə beynəlxalq insan hüquqları kontekstindən fikir bildirmək istərdim. Azərbaycanın hüquq tarixində ən geniş əhatə dairəsinə malik olacaq bu amnistiya aktı eyni zamanda beynəlxalq siyasi mühitdə də mühüm məna daşıyır. Humanitar diplomatiya müstəvisində amnistiya humanizm mesajını verir.

Beynəlxalq münasibətlər nəzəriyyəsində "yumşaq güc" anlayışı dövlətlərin dəyərlər, nümunəvi davranış və humanitar yanaşma vasitəsilə fəaliyyətlərini göstərir. Amnistiya kimi addımlar hərbi və ya iqtisadi vasitələrdən istifadə etmədən dövlətin beynəlxalq imicini gücləndirir. Bu cür qərarlar beynəlxalq mediada, diplomatik dairələrdə və akademik müzakirələrdə müsbət rezonans doğurur və Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirir.

Bu qərar göstərir ki, Azərbaycan hüquqi dövlət prinsiplərinə sadiq qalaraq ədalət və mərhəmət arasında tarazlığı qoruyur. Bu tarazlıq beynəlxalq hüququn və insan hüquqları sisteminin əsas fəlsəfəsi ilə üst-üstə düşür.

Amnistiya elanı beynəlxalq tərəfdaşlarda etimadı artırır, dialoq üçün müsbət mühitin formalaşmasına töhfə verir. Belə ki, bu gün dövlətlərin daxili qərarları beynəlxalq təşkilatlar, tərəfdaş ölkələr tərəfindən diqqətlə izlənilir.

Beynəlxalq konvensiyalar kontekstində amnistiya yaşamaq hüququ, ədalətli məhkəmə hüququ və effektiv hüquqi müdafiə vasitəsilə əlaqəli təfsir oluna bilər. Məsələn, İnsan Hüquqları üzrə Avropa Konvensiyasında "amnistiya" birbaşa tənzimlənməsə də, yuxarıda qeyd etdiyim məsələlər Konvensiya mətnində konkret maddələrdə təsbit olunmuşdur.

Azərbaycanın yerləşdiyi mürəkkəb geosiyasi məkanda etimad və sabitlik xüsusi əhəmiyyət daşıyır. Postmünaqişə mərhələsində olan bir ölkə üçün barışıq, reinteqrasiya və sosial harmoniya yalnız daxili siyasətin deyil, eyni zamanda xarici siyasətin elementlərindən sayılır. Amnistiya bu baxımdan cəmiyyət daxilində birliyi möhkəmləndirməklə yanaşı, beynəlxalq müstəvidə də sülhə və dialoqa sadiqliyin göstəricisi kimi çıxış edir.

Prezident İlham Əliyevin amnistiya təşəbbüsü bir daha sübut etdi ki, Azərbaycan dövləti yalnız hüquqla müəyyən edilmiş cəzanı tətbiq edən ölkə deyil, eyni zamanda humanizmə əsaslanan dövlətçilik modelini seçmişdir.

Beynəlxalq hüquq ağır beynəlxalq cinayətlərə görə məhkum olunanlara amnistiya tətbiqini yolverilməz hesab edir. Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Statutu (Roma Statutu) soyqırımı, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri üçün amnistiyanı qəbul etmir.

Amnistiya institutuna beynəlxalq münasibətlər prizmasından baxdıqda o, barışıq, dialoq və etimad mesajı kimi qəbul olunur.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı***

## Humanizm dəyərlərinin təcəssümü

**Prezident İlham Əliyev tərəfindən amnistiya elan olunması təşəbbüsünün irəli sürülməsi və Milli Məclisin dekabrın 19-da keçirilən iclasında qəbul edilən qərar ölkə ictimaiyyəti və hüquq ekspertlərinin diqqət mərkəzindədir.**

Prezidentin bu təşəbbüsü yalnız hüquqi dəyişiklik kimi deyil, eyni zamanda dövlətin humanist dəyərlərə verdiyi əhəmiyyətin bariz göstəricisidir. Bu, cəmiyyətin bütün təbəqələri üçün ədalət və mərhəmət prinsiplərinə söykənərək hazırlanan dərin sosial-hüquqi təşəbbüsdür. Vətən müharibəsi iştirakçıları, şəhid ailələrinin üzvləri və onların yaxınları bu aktdan yararlanacaqlar. Ona görə bu təşəbbüs vətən və şəhid məfhumunun, müharibə iştirakçısının dövlət başçımız üçün son dərəcə həssas amil olduğunu sübut edir.

### Amnistiya təşəbbüsü dərin mənəvi və sosial əhəmiyyətə malikdir

Prezident İlham Əliyevin amnistiya təşəbbüsünə humanist yanaşmasının əsas göstəricisi ədalət, mərhəmət və cəmiyyətə reinteqrasiya prinsiplərinə vurğu edilməsidir. Əfv və amnistiya institutları yalnız hüquqi vasitə deyil, həm də sosial ədalətin, insan ləyaqətinə hörmətin və insan hüquqlarının təmin olunmasının hüquqi ifadəsidir. Belə yanaşma dövlətin potensialı və gücünün yalnız iqtisadi və hərbi amillərlə deyil, insanlara qarşı münasibətində ölçüldüyünü göstərir.

Milli Məclisin qəbul etdiyi amnistiya qərarı təxminən 20 mindən artıq şəxsi əhatə edəcək ki, bu da ölkə tarixində ən böyük amnistiya olacaq. Bu geniş əhatə sosial ədalət anlayışının yalnız hüquqi çərçivədə qalmadığını, həm də real həyat şəraitində insanların taleyinə müsbət təsiretmə potensialına malik olduğunu göstərir.

Prezident İlham Əliyevin təşəbbüsü humanizm və sosial ədalətə söykənən dövlət siyasətinin davamı, Azərbaycanın hüquqi-sosial müstəvidə humanizmə verdiyi önəmin əyani ifadəsidir. Belə amnistiya aktları cəmiyyətin müxtəlif təbəqələri arasında qarşılıqlı hörmət və inteqrasiyanı gücləndirir və sosial münasibətlərdə daha dərin anlayışın formalaşmasına şərait yaradır. Bu cür humanist yanaşma ənənəvi humanitar dəyərlərin hüquq sistemi vasitəsilə həyata keçirilməsini və cinayət sistemində yalnız cəzalandırma yox, həm də bərpaedici ədalət prinsiplərinin tətbiqini nəzərdə tutur. Eyni zamnanda belə qərarlar humanist dəyərləri dövlət siyasətinə inteqrasiya edir, sosial ədalət və mərhəmət prinsiplərini ön plana çıxarır, minlərlə insanı cəmiyyətə reinteqrasiya etməklə dövlət-cəmiyyət münasibətlərini daha güclü və harmonik edir.

Amnistiya təşəbbüsləri eyni zamanda cəmiyyətin inkişafı üçün dərin mənəvi və sosial təsirlərə malik addımlardır, hansı ki, insanın hüquq və azadlıqlarına hörmət əsasında dövlətin sosial məsuliyyətini daha da gücləndirir.

### Amnistiya aktı və hüquq

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin hüquq siyasəti təkcə daxili qanunvericiliklə deyil, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının (BMT) qəbul etdiyi fundamental sənədlər və humanitar hüquq prinsipləri ilə ölçülür. Bu baxımdan Milli Məclisin qəbul etdiyi amnistiya qərarı yalnız milli hüquqi təşəbbüs deyil. Bu həm də BMT-nin insan hüquqları və humanizmə əsaslanan konsepsiyalarına uyğun siyasi-hüquqi addım kimi qiymətləndirilə bilər.



BMT sistemində amnistiya anlayışı birbaşa normativ sənəd kimi tənzimlənməsə də, onun mahiyyəti və məqsədləri bir sıra əsas sənədlərdə öz əksini tapır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (1948) 1-ci maddəsi insan ləyaqəti və bərabərliyi, 3-cü maddəsi yaşamaq və təhlükəsizlik hüququ, 5-ci maddəsi qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan olunması, 10-cu və 11-ci maddələri isə ədalətli məhkəmə və humanist cəza prinsiplərini təsbit edir. Amnistiya aktı məhz bu müddəaların praktik ifadəsidir. Cəzanın yalnız repressiv deyil, insanın islahı və cəmiyyətə qaytarılması məqsədi daşıması BMT-nin insan mərkəzli yanaşması ilə tam uyğunluq təşkil edir.

Bu sənəddə açıq şəkildə qeyd olunur ki, cəza sisteminin əsas məqsədi reinteqrasiya və sosial adaptasiya olmalıdır. Dövlətlər həbs cəzasına alternativ mexanizmlərdən və humanist hüquqi vasitələrdən istifadə etməlidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən Amnistiya aktı az təhlükəli cinayətlərə görə cəza çəkən şəxslərin azadlığa buraxılmasını, cəza müddətlərinin azaldılmasını, sosial həssas qrupların prioritet tutulmasını nəzərdə tutur. Bu yanaşma BMT sənədi kimi təşviq olunan "Nelson Mandela Qaydaları"nın ruhuna tam uyğundur və BMT-nin tövsiyə etdiyi bərpaedici ədalət modelini əks etdirir.

BMT-nin postmünaqişə cəmiyyətləri ilə bağlı sənədlərində aşağıdakı prinsiplər önə çəkilir: Barışıq və milli həmrəyliyin təşviqi, cəmiyyətin parçalanmasının qarşısının alınması, repressiv deyil, inklüziv hüquq siyasətinin tətbiqi. Azərbaycanın Amnistiya aktı Vətən müharibəsindən sonrakı dövrdə qəbul edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu addım müharibənin sosial-psixoloji nəticələrinin yumşaldılmasına, cəmiyyətdə humanist münasibətlərin güclənməsinə, dövlətlə vətəndaş arasında etimadın möhkəmləndirilməsinə xidmət edir. Bu, BMT-nin postmünaqişə yanaşmalarında tövsiyə edilən "ədalət və mərhəmət balansı" prinsipinin real tətbiqidir.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 16-cı bəndində göstərildiyi kimi, ədalətə çıxışın genişləndirilməsi, insan hüquqlarının qorunması, hüquqi institutlara etimadın artırılması əsas hədəf kimi müəyyən edilir. Amnistiya aktı hüquq sisteminin humanist xarakterini gücləndirir, cəmiyyətin dövlət institutlarına inamını artırır, sosial ədalətin real mexanizmlərlə təmin olunmasına şərait yaradır.

BMT sənədləri ilə müqayisəli təhlil göstərir ki, Azərbaycan modeli üstün durumdadır. İnsan ləyaqətinə əsaslanan hüquq siyasəti, geniş sosial əhatə və inklüziv yanaşma, postmünaqişə barışığına töhfə, humanizm və dövlət maraqlarının balanslaşdırılması kimi üstünlüklər Azərbaycanın beynəlxalq humanitar hüquq müstəvisində məsuliyyətli və mütərəqqi dövlət modeli formalaşdırdığını göstərir.

Milli Məclisin qəbul etdiyi amnistiya qərarı BMT-nin insan hüquqları, humanitar hüquq və dayanıqlı inkişaf prinsipləri ilə səsləşən strateji hüquqi sənəddir. Bu təşəbbüs sübut edir ki, Azərbaycan humanizmi dövlət siyasətinin mərkəzinə qoyur, beynəlxalq hüquqi öhdəliklərə sadiqdir, ədaləti yalnız cəza ilə deyil, mərhəmət və sosial məsuliyyətlə təmin edir. Nəticə etibarilə bu Amnistiya aktı Azərbaycan dövlətinin insanyönümlü, beynəlxalq standartlara uyğun və gələcəyə hesablanmış hüquq siyasətinin bariz nümunəsidir.

### Azərbaycan təcrübəsinin beynəlxalq müqayisəsi

Müasir dövrdə amnistiya institutları yalnız daxili hüquqi mexanizm deyil, eyni zamanda humanitar hüququn və ümumbəşəri dəyərlərin praktik tətbiq forması kimi çıxış edir. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi amnistiya aktı bu baxımdan təkcə milli hüquq sistemi çərçivəsində deyil, həm də beynəlxalq humanitar hüquq və qlobal təcrübə fonunda diqqətəlayiq nümunədir. Bu təşəbbüs insan hüquqlarının qorunması, sosial ədalətin təmin edilməsi və cəmiyyətə reinteqrasiya prinsipləri baxımından dünyanın bir sıra qabaqcıl ölkələrində tətbiq olunan humanist modellərlə səsləşir.

Beynəlxalq humanitar hüquqda amnistiya xüsusilə silahlı münaqişələrdən sonra cəmiyyətin normallaşdırılması və barışığın təmin edilməsi üçün tövsiyə olunan mexanizmlərdən biridir. 1949-cu il Cenevrə konvensiyaları və onlara əlavə protokollarda münaqişədən sonrakı mərhələdə genişmiqyaslı repressiyaların qarşısının alınması, insan ləyaqətinin qorunması və sosial sabitliyin təmin edilməsi əsas məqsəd kimi göstərilir.

Bu çərçivədə amnistiya cəzayönümlü yanaşmadan bərpaedici ədalətə keçidi, insan hüquqlarına hörmətin praktik ifadəsini, cəmiyyətin parçalanmasının qarşısının alınmasını təmin edən vasitə kimi qəbul edilir. Azərbaycanın Amnistiya aktı məhz bu yanaşmaya uyğun olaraq hazırlanıb və humanitar hüququn ruhunu özündə əks etdirir. Avropa ölkələri, xüsusən Fransa, İtaliya və İspaniya kimi ölkələrdə amnistiya aktları adətən milli bayramlar, konstitusion islahatlar, münaqişədən sonrakı barışıq mərhələləri ilə bağlı qəbul edilir.

Cənubi Afrika Respublikası aparteid rejimindən sonra qəbul etdiyi amnistiya siyasəti ilə beynəlxalq humanitar hüquqda yeni mərhələ yaratdı. Burada əsas məqsəd cəmiyyətin intiqam üzərində deyil, barışıq üzərində qurulması idi. Kolumbiya isə uzun illər davam edən daxili münaqişədən sonra geniş amnistiya proqramları tətbiq edərək minlərlə insanın cəmiyyətə reinteqrasiyasına nail oldu. Azərbaycanın amnistiya təşəbbüsü də postmünaqişə dövrünün çağırışlarına cavab verir. Vətən müharibəsindən sonra atılan bu addım münaqişənin sosial izlərini yumşaltmaq, cəmiyyət daxilində həmrəyliyi gücləndirmək, insan kapitalını qorumaq məqsədi daşıyır.

Polşa, Macarıstan və Çexiya kimi Şərqi Avropa ölkələrində isə keçid dövründə qəbul edilən amnistiyalar hüquqi islahatların ayrılmaz hissəsi olub. Azərbaycanın Amnistiya aktı da hüquqi islahatların davamı kimi çıxış edir və beynəlxalq təcrübədə qəbul olunmuş "insan mərkəzli hüquq siyasəti" modelinə uyğundur. Beynəlxalq müqayisə göstərir ki, Azərbaycan modelini fərqləndirən əsas cəhətlər aktın minlərlə insanı əhatə etməsi, sosial həssas qruplara xüsusi diqqət, güclü dövlət idarəçiliyi ilə mərhəmətli hüquq siyasətinin uzlaşdırılmasıdır. Bu xüsusiyyətlər Azərbaycanı beynəlxalq humanitar hüquq praktikası fonunda müsbət nümunə kimi önə çıxarır.

***Aydın HÜSEYNOV,***
***Milli Məclisin deputatı***

## Prezidentin amnistiya təşəbbüsü cəmiyyətin hüquqi və mənəvi inkişafına töhfə verəcək



**"Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi və "Konstitusiya və Suverenlik İli" münasibətilə hazırlanmış genişmiqyaslı Amnistiya aktı cəmiyyətimizin hüquqi və mənəvi inkişafına töhfə verən mühüm sənəddir. Bu təşəbbüs Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyində əsasını qoyduğu humanizm və ədalət prinsiplərinin bu gün də uğurla davam etdirildiyinin əyani sübutudur".**

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Fatma Yıldırım deyib.

O qeyd edib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəmizdə əfv və amnistiya institutlarının hüquqi əsaslar və humanist dəyərlər üzərində formalaşdırılmasına xüsusi önəm verib, bu sahədə sistemli və dərin islahatların başlanğıcını qoyub. Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə - 1998-ci ildə atılan tarixi addım, yəni ölüm hökmünün ləğv olunması Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması sahəsində dönüş nöqtəsi olub. Bu qərar beynəlxalq ictimaiyyət tərəfindən də böyük rəğbətlə qarşılanıb və Azərbaycanı dünyada humanist dəyərlərə sadiq dövlət kimi tanıdıb. Onun rəhbərliyi ilə həyata keçirilən bu siyasət bir tərəfdən cəza tədbirlərinin hüquqa əsaslanan şəkildə tətbiqinə, digər tərəfdən isə cəmiyyətdən təcrid olunmuş şəxslərin yenidən sosial həyata qayıdışına şərait yaradıb.

"Bu gün həmin ali dəyərlərin daşıyıcısı kimi çıxış edən Prezident İlham Əliyev dəfələrlə bu prinsiplərə sadiqliyini nümayiş etdirib və insan amilini daim dövlət siyasətinin mərkəzində saxlayıb. Eyni zamanda qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da deputatlıq fəaliyyəti dövründə bu irsə sadiqliyini qoruyaraq bir sıra amnistiya təşəbbüsləri ilə çıxış edib. Bu baxımdan təqdim olunmuş Amnistiya qərarının layihəsi həm hüquqi, həm də mənəvi baxımdan yüksək dəyərlərə əsaslanan bir sənəddir. Bu sənəd yalnız hüquqi akt deyil, eyni zamanda Prezident İlham Əliyevin öz vətəndaşına olan inamının və mərhəmətinin təcəssümüdür. Əminik ki, bu təşəbbüs bir çox insana yeni başlanğıc üçün imkan yaradacaq, onların cəmiyyətə inteqrasiyasını sürətləndirəcək və sosial sabitliyə öz töhfəsini verəcək", - deyə Milli Məclisin deputatı vurğulayıb.

## Ombudsman: "Amnistiya aktları sosial ədalətin, mərhəmətin və insan ləyaqətinə hörmətin təzahürüdür"

*"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu siyasətin mühüm tərkib hissəsini cəza siyasətində humanizm, mərhəmət və fərdi yanaşma prinsiplərinin tətbiqi təşkil edir. Əfv və amnistiya institutları məhz bu prinsiplərin hüquqi mexanizmləri kimi çıxış edərək, cəzanın tərbiyəvi mahiyyətinin gücləndirilməsinə və məhkumların cəmiyyətə yenidən islah olunmuş şəxs kimi qayıdışına xidmət edir. Əsası Ümummilli Lider tərəfindən qoyulmuş humanizm siyasətinə sadiq qalan ölkə Prezidenti İlham Əliyevin də hazırkı rəhbərliyi dövründə əfv sərəncamlarının imzalanması və amnistiya aktlarının qəbulu təşəbbüsünün irəli sürülməsi təcrübəsi uğurla davam etdirilir".*

AZƏRTAC xəbər verir ki, bunu İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva 4 saylı cəzaçəkmə müəssisəsində məhkumların azad olunması mərasimində çıxış edərkən deyib.

Səbinə Əliyeva qeyd edib ki, humanist cəza siyasətinin davamı olaraq Prezident İlham Əliyev tərəfindən amnistiya aktı barədə qərar layihəsinin Milli Məclisə təqdim edilməsi təşəbbüsü irəli sürülüb: "Növbəti amnistiya ilə bağlı qanun layihəsinin Milli Məclisə təqdim olunması dövlətin ardıcıl və sistemli humanist siyasətinin davamı kimi qiymətləndirilə bilər. Amnistiya aktları yalnız hüquqi mexanizm deyil, eyni zamanda sosial ədalətin, mərhəmətin və insan ləyaqətinə hörmətin təzahürüdür".

# Amnistiya aktı cəzaçəkmə müəssisələrində icra olunur

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Milli Məclisin qəbul etdiyi amnistiya aktının icrasına başlanılıb.

AZƏRTAC xəbər verir ki, növbəti icra prosesi dekabrın 22-də Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Bakı İstintaq Təcridxanasında həyata keçirilib. Təcridxanada cəzaçəkən 12 məhkum azadlığa buraxılıb.

* * *

Növbəti icra prosesi dekabrın 22-də Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin 7 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsində icra olunub.

Məntəqədə cəzaçəkən 20 məhkum azadlığa buraxılıb.

* * *

Dekabrın 22-də səhər saatlarında Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində saxlanılan məhkumların 22 nəfəri azad edillib. Qadın məhkumlardan 2-si azyaşlı övladı ilə birgə cəza çəkən məhkumlardır.

* * *

Növbəti icra prosesi dekabrın 22-də səhər saatlarında Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisəsində baş tutub. Bu müəssisədə cəza çəkən 3 məhkum azadlığa buraxılıb.

* * *

Dekabrın 22-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində amnistiya aktının icrasına başlanılıb. Naxçıvanda amnistiya aktı 128 məhkuma şamil edilib, 57 nəfər azadlığa buraxılacaq. Bu gün isə ilkin olaraq 15 nəfər azadlığa buraxılır. Onların 2-si Türkiyə, 2-si İran 2-si Türkmənistandan olmaqla 6-sı əcnəbi vətəndaşdır, biri qadındır.







Qeyd edək ki, Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə Milli Məclisə təqdim etdiyi Amnistiya qərarının layihəsi əhatə dairəsinə görə Azərbaycanın müstəqillik dövründə ən genişmiqyaslı amnistiya sənədi kimi qiymətləndirilir.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq. Belə ki, Amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

Amnistiya aktı 4 ay ərzində icra ediləcək.





# Mədəniyyət





## Osman Sarıvəlli - 120

# Xalqın qəlbini oxşayan şair



**120 illik yubileyi qeyd olunan Xalq şairi Osman Sarıvəlli 1905-ci ilin dekabrında Qazax rayonunun İkinci Şıxlı (Sarıvəlli) kəndində anadan olub. Orta təhsilini Qazax Müəllimlər Seminariyasında aldıqdan sonra bir müddət Göyçay rayonunun Qaraməryəm və Bığır kənd məktəblərində müəllim işləyib.**

Sonra təhsilini artırmaq məqsədilə Moskva Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olub. Təhsil aldığı müddətdə bir sıra ziyalılar, ədəbiyyat nümayəndələri ilə yaxın münasibət yaradıb. Sonralar şairin özü qeyd edir ki, "Moskvadakı təhsil illəri mənim həyatımda yeni bir mərhələnin başlanğıcı oldu. Orada klassik və müasir rus poeziyası ilə ətraflı tanış oldum. Rus dili vasitəsilə dünya ədəbiyyatının ən maraqlı nümunələrini öyrəndim".

XX əsr Azərbaycan poeziyasının mənzərəsini göz önünə gətirəndə, tərəddüdsüz deyə bilərik ki, böyük şairimiz Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza ilə bərabər Osman Sarıvəllini xatırlamamaq mümkün deyil. Xalqından, milli-mədəni irsindən ilham alan şairin yazdığı hər bir sətir, Azərbaycan poeziyasının inkişafında misilsiz rol oynayıb. Yurdumuzun gözəllikləri, folklorumuzun müdriklikləri, klassik poeziyamızın incəlikləri şairin yaradıcılığının mənəvi qidasına çevrilib.

O.Sarıvəlli ədəbi yaradıcılığa 1933-cü ildə başlayıb. Həmin ildə "Gənc işçi" qəzetində "Ayaqsız" adlı ilk şeiri çap olunub. Onun "Dəmir sətirlərim" adlı birinci kitabı 1934-cü ildə çapdan çıxıb. Şair 1937-ci ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib.

Bakı Pedaqoji Texnikumunda müəllim, Bakı Teatr Texnikumunda müdir, Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunda müdir müavini, "Ədəbiyyat qəzeti"nin redaktoru, "Uşaqgəncnəşr"də redaktor, Azərbaycan Yazıçılar İttifaqında şeir üzrə məsləhətçi vəzifələrində işləyib.

Sovet rejiminin qanlı-qadalı illəri onun da həyatından yan keçməyib. Qazax rayon NKVD-si Qriqoryan Bakıya göndərdiyi arayışda yazırdı: "AYİ (AYB) İdarə Heyətinin üzvü Qurbanov Osman Abdulla oğlunun atası kənd koxasının müavini olmuş, qayınatası, bibisi uşaqları Türkiyəyə qaçmış, qardaşlarından Qurban Qurbanov 1918-1919-cu illərdə türk ordusunun könüllü əsgəri kimi Qızıl orduya qarşı vuruşmuş, Hümbət Gəncə qiyamının fəal iştirakçısı olmuş, bibisi oğlu Əsəd Nəsibov 1926-cı ildə müsavatçı kimi həbs edilmiş, özü isə xalq düşmənləri Hacıkərim Sanılı və Mikayıl Müşfiqlə yaxın münasibətdə olmuşdur".

Göründüyü kimi, Osman Sarıvəllinin şair taleyi heç də asan olmamış, ömrünün müxtəlif anlarında haqsızlıqlara, təqiblərə məruz qalıb, əzizlərindən bəziləri yaxın və uzaq ölkələrə üz tutub, bəziləri Sibirdə sürgün həyatı yaşayıb, bəziləri isə məhkəməsiz-filansız bir qurşunla "qırmız terror"un qurbanına çevrilib.

O ağır illərdə nəsli bu cür tar-mar edildiyindən, bolşevik rejiminin yerə-göyə sığmayan "əda"larından şair daim repressiya qorxusu altında yaşayıb. Amma nə xoş ki, heç bir qorxu onun ilham pərisini əlindən ala bilməyib.

Ustad şairin şeirlərində torpağa bağlılıq hər misrada hiss olunur. Bu baxımdan, onun 1943-cü ildə qələmə aldığı "Gətir oğlum, gətir" poeması o dövrdə böyük əks-səda doğurur. Xalq mənəviyyatının aynası hesab olunan bu əsər fəlsəfi lirikanın əsl nümunəsi kimi dəyərləndirilir. Səməd Vurğunun "Azərbaycan" şeirindən sonra vətən sevgisini ali hiss, müqəddəs duyğu səviyyəsində bu qədər ehtirasla tərənnüm etmək böyük istedadın qələbəsi idi.

*Kömürdən almaz çək, yarpaqdan ipək,*
*Daşdan gövhər çıxart, buluddan şimşək,*
*Gətir ildırımın məğrur səsini,*
*Qumru bulaqların zümzüməsini,*
*Zəmilərdən sünbül, bağçalardan bar,*
*Dərələrdən vüsət, dağlardan vüqar...*

- deyə şair poemada atanın diliylə söylənilən "gətir!", "yaşat!" kəlmələri xalq müdrikliyinin, milli-mənəvi dəyərlərimizin yaşanılmasına inamdır. Burada kəndin şəhərlə, köhnəliyin yeniliklə qarşılaşdırılması tendensiyası qətiyyən hiss edilmir.

Deyimləri aforizmlərə çevrilən Osman Sarıvəlli xalq yaradıcılığının təbliği, aşıq sənətinin tədqiqi ilə yanaşı, tərcüməçiliklə də məşğul olmuş, Nizami, Xəqani, Viktor Hüqo, Nazim Hikmət, Aleksandr Puşkinin əsərlərini, Sofoklun "Antiqona" faciəsini ana dilimizə çevirib. Folklorumuzun və aşıq yaradıcılığının tədqiqində, eləcə də yaxın dostu - böyük Səməd Vurğun yaradıcılığının külliyyatının hazırlanıb çap edilməsində öz qüvvəsini əsirgəməyib.

Şairin şeirləri axıcı və yaddaqalan olduğundan aşıqların dilindən düşməmiş, sevə-sevə oxumuşlar. Zamanından tutmuş üzü bəri Osman Sarıvəllinin qoşmalarını Azərbaycan aşıqları sevə-sevə oxuyublar.

Xalq şairi Mirvarid Dilbazi şairin zəngin yaradıcılığına yüksək dəyər verərək yazırdı: "Osman Sarıvəlli çörəksiz yaşayıb, məsləksiz yaşaya bilməyən sənətkarlardandır". Onun şeirləri süjetli, vətənpərvərlik lirikası nümunələri hesab olunur. Eyni zamanda o, şair-filosofdur. İnsan, həyat, ölüm onun şeirlərində önəmli bir yer tutur.

*"Döydü yağış məni, döydü qar məni,*
*Minsəm qarışqanı, aparar məni"*

- demiş bu şairin yaradıcılığında boy verən milli-ibrətamiz hikmətlər onu xalqımıza sevdirən ən başlıca amillərdir.

Ömrün cavan vaxtlarında "Hər kim yüz il yaşamasa, günah onun özündədir", ahıl vaxtlarında isə "İndi görürəm ki, həyat öz işini görür, bizi ucaldan illər qocaltmağı da bacarır" - deyən şairin zəngin yaradıcılığı illərdir ki, Osman Sarıvəllini yaşadır və onu unudulmağa qoymur.

Osman Sarıvəllinin Azərbaycan ədəbiyyatında və poeziyasında xidmətləri ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. 1946-cı ildə "Əməkdə fərqlənməyə görə" medalı, 1959-cu ildə "Qırmızı əmək bayrağı" ordeni, 1963-cü ildə "Şərəf nişanı" ordeni, 1975-ci ildə "Xalqlar Dostluğu" ordeni, 1985-ci ildə "Oktyabr inqilabı" ordeni ilə təltif olunub, nəhayət, 1977-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə "Azərbaycanın xalq şairi" fəxri adına layiq görülüb.

Şeirləri ilə xalqın qəlbini ovsunlayan tanınmış şair 1990-cı il iyulun 3-də vəfat edib və doğma kəndində dəfn olunub.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Səhnə xadimləri

# Dərdlərini sənəti ilə ovudurdu

**O, səhnəyə əvvəlcə gözəl səsi ilə gəlib. Nuriyyə Əhmədova müğənni olmaq arzusu ilə böyüyüb. Ailədə ona qədər bu sənəti seçən olmayıb. 1950-ci il dekabrın 26-da Bakıda dünyaya gələn Nuriyyə Əhmədovanın atası hərbçi, anası evdar qadın idi. Ancaq atasının olduqca məlahətli səsi vardı. Nuriyyə Əhmədova da atasına çəkib.**



### Səhnəyə aparan yol

Orta məktəbi bitirib arzularını reallaşdırmaq ümidi ilə sənədlərini Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) verib. Həmin il tələbə adını qazana bilməsə də, çox keçməyib ki, xoş, məlahətli səsinin sayəsində incəsənət aləminin qapıları üzünə açılıb…

1968-ci il idi. Bir gün bağ qonşuları Tofiq Bakıxanov ona deyir: "Səsin var, gəl səni Musiqili Komediya Teatrında işə götürək". Həyəcanla deyilən ünvana üz tutur. Ona sınaq üçün verilən kiçik rolu da həyəcanla ifa edir. Bəyənilir. Nuriyyə Əhmədova teatra qəbul olunur.

Artıq işə başlasa da, olanlara inana bilmirdi… Elə bil həyatında möcüzə baş vermişdi. Hər gün Musiqili Komediya Teatrına işə getmək, tanınmış sənətkarları görmək gənc qızı çox sevindirirdi. Bir gün isə ona aktrisa kimi də səhnəyə çıxmaq nəsib olur. Nuriyyə Əhmədova Musiqili Komediya Teatrında "Məmmədəli kurorta gedir", "Toy kimindir" və başqa tamaşalarda oynayır...



Nəhayət, ali təhsil almaq arzusuna da çatır. 1970-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Aktyorluq fakültəsinə qəbul edilir. Görkəmli sənətkar Adil İsgəndərovun kursunda təhsil almağa başlayır.

Nuriyyə Əhmədova həm oxuyub, həm də teatrda işləyib. Sevmək, ailə qurmaq arzularını özündən uzaq tutub. Bu gənc, bir az oğlansayağı qızdan teatrda çoxları çəkinib. Amma ürəklənib eşq elan edənlər də az olmayıb. Nuriyyə Əhmədova özü də fərqinə varmadan Xanlar İbadovu seçib. Bəlkə ona görə ki, bənzərlikləri çox olub. İkisi də Bakı kəndlərində doğulub-böyümüşdü. Musiqili Komediya Teatrı hər ikisinin ilk iş yeri idi. Xanlar İbadov Asəf Zeynallı adına Musiqi Məktəbini bitirib gələndə Nuriyyə Əhmədova artıq Musiqili Komediya Teatrında çalışırdı.

Xanlar İbadov vokalist idi. O, iki ay sonra Musiqili Komediya Teatrını tərk edib Azərbaycan Dövlət Filarmoniyasında işləməyə gedib. Amma teatrda görüb sevdiyi Nuriyyə Əhmədovanı unutmayıb. 1970-ci ilin dekabrında, soyuq, qarlı, qaranlıq bir qış gecəsində tale onları yenidən qarşılaşdırıb. Tamaşadan çıxıb evə tələsən Nuriyyə xanımı Xanlar İbadov evə yola salıb. Bundan sonra tez-tez görüşməyə başlayıblar. İki il sonra Xanlar İbadovun elçiləri Nuriyyə xanımgilin qapısını döyüblər. Gənclər nişanlanıblar. 1974-cü ildə Nuriyyə Əhmədova institutu bitirib. 1975-ci ildə toyları olub. 1976-cı ildə qızları İlahə, bir il sonra isə oğlanları Əli dünyaya gəlib.

### Taleyin sınaqları ilə üz-üzə...

Çətinliklər çox olsa da, xoşbəxt idilər. Ancaq səadətlərinin üzərinə sanki birdənbirə qara kölgə düşüb. Xoşbəxtlik onları tərk edib. Xanlar İbadov iki dəfə qarın nahiyəsindən əməliyyat olunub, yeddi il oxumayıb. Həkimlər icazə verməyiblər. Nuriyyə Əhmədova işləyib. Öz evləri olmayıb. Ailə qurduqları gündən Xanlar İbadovun analığının evində yaşayıblar.

Nuriyyə Əhmədova Musiqili Komediya Teatrında, sonra bir müddət Tədris Teatrında çalışıb. Televiziyada əyləncəli verilişlərdə, səhnəciklərdə çıxış edib. Aktrisa 1982-ci ildə "Mozalan" kinojurnalında süjetlərə çəkilib. Həmin ildən "Azərbaycanfilm" kinostudiyasının aparıcı aktrisası kimi işə götürülüb. Kinostudiyanın tərkibindəki teatra da qəbul edilib. Leyla Bədirbəylinin bədii rəhbəri olduğu həmin teatrda Nuriyyə Əhmədova "Qanlı toy" və "Laçın yuvası" tamaşalarında rollar oynayıb.

Artıq filmlərdə çəkilir, dublyajlarda iştirak edirdi. Tanınır, sevilirdi. Rejissorlar onu yeni filmlərə dəvət edirdilər. Daha çox utancaq qadın rollarını ifa edən aktrisaya Şahmar Ələkbərovun rejissoru olduğu "Sahilsiz gecə" filmində Azərbaycan qadınını da yoldan çıxaran Roza adlı əxlaqsız erməni qadını rolunda çəkilmək təklif olunanda təəccüblənib. Nuriyyə Əhmədova çox düşünüb. Dönə-dönə ssenarini oxuyub. Əsər müharibənin gətirdiyi bəlalardan, Roza kimi əxlaqsızların belə bir şəraitdə fəallaşmasından bəhs edirdi. Aktrisa qərara gəlib ki, filmdə çəkilsin.

"Sahilsiz gecə" birmənalı qarşılanmayıb. Film böyük müzakirələrə, mübahisələrə səbəb olub. Nuriyyə Əhmədova bu barədə deyib: "Ağır vaxtlar idi. Moskva da milləti qıcıqlandırmaq üçün bilərəkdən o kinonu efirdə tez-tez nümayiş etdirirdi. Azərbaycanda "Sahilsiz gecə"yə görə bizi tənqid, hətta təhqir edirdilər. Şahmar bizə görə çox narahat idi. Bir dəfə mənə zəng edib dedi ki, evdən çıxmamısansa, kinostudiyaya gəlmə. Qaçqınlar kinostudiyanın qabağına yığışmışdılar. Ancaq getdim. Axşam evə qayıdanda bir nəfər yaxınlaşıb mənə şillə vurdu, ağzım, burnum qanadı".

Bu ekran əsəri aktrisaya narahatlıq gətirib. Amma Nuriyyə Əhmədova oynadığı heç bir rola görə peşman olmadığını söyləyib. Çünki onun səhnədə və filmdə canlandırdığı obrazların heç biri real həyatdan uzaq olmayıb. Həmin rolların tamaşaçılar tərəfindən böyük diqqət və maraqla qarşılanmasının səbəbi də bu idi.

Azərbaycan kino sənətinin ən istedadlı aktrisalarından biri olan Nuriyyə Əhmədova "Həm ziyarət, həm ticarət", "Bəxt üzüyü", "Sahilsiz gecə", "Bağ mövsümü", "Bəyin oğurlanması", "Evlənmək istəyirəm", "Fransız", "Hər şey yaxşılığa doğru", "Kişi sözü", "Yuxu", "Zirzəmi", "Yoxlama" və başqa filmlərdə fərqli xarakterli rollar yaradıb.

### "Həyatdan doymuşam" desə də…

Elə bilirdi ki, həyatının ən çətin günlərini yaşayır. Ağlına da gəlmirdi ki, gün gələcək həmin məişət qayğıları və problemlərlə dolu günlərini belə həsrətlə anacaq. Çünki o vaxtlar övladları ilə üzü gülürdü. Bir gün qızı İlahə anasına tələbə bir oğlana aşiq olduğunu söylədi. Oğlan tələbə idi. Qız da oxuyurdu. Onların ailə qurmasına əvvəlcə etiraz etdilər. Oğlan əl çəkmədi. Gənclərə xeyir-dua verməli oldular.

1996-cı ildə nəvəsi Faiq dünyaya gəldi. İlahə uşağın qırxı tamam olanadək anasıgildə qalmalı idi. Körpə iyirmi günlük olanda həyat yoldaşı İlahəni qətlə yetirdi. Hadisə Nuriyyə Əhmədovanın gözləri qarşısında baş verdi. İyirmi yaşlı qızı onun qucağında can verdi.

Məhkəmə prosesində məlum oldu ki, oğlan əvvəldən psixi xəstə imiş. Anası onu müalicə etdirirmiş. O vəfat edəndən sonra nəzarətsiz qalıb. Atası müalicəni davam etdirməyib. Psixi vəziyyəti getdikcə ağırlaşan həyat yoldaşı İlahəni öz övladına qısqanıb, onu qətlə yetirib. Yenə cinayətlər törətməsin deyə həbs edilib.

Dünyanın ən ağır dərdi ilə üz-üzə qaldı Nuriyyə Əhmədova. Övladını itirmişdi...

İlahənin qətlindən sonra Nuriyyə Əhmədova üç gün danışmadı. Sarsılmışdı. Səsi batmışdı. Bir gün İlahənin yadigarını xatırladı. Gedib uşağı ata tərəfdən alıb gətirdi. Sənədlərini düzəltdilər.

O ağır günlərində tutunacaq, başını qatacaq bir şey olmalı idi. Dar günlərində illərini verdiyi sənət harayına çatdı. Həmin vaxt rejissor Vaqif Mustafayevin "Yerlə göy arasında" filminə çəkilirdi. Rejissor dedi ki, filmə çəkilsin, başı sənətinə qarışsın, yoxsa yaşaya bilməz. Vaqif Mustafayev haqlı çıxdı. Nuriyyə Əhmədova sonralar özü də deyirdi ki, o vaxtlar kinoya çəkilməsəydi, bəlkə də heç uşaq da onu yaşada bilməzdi.

Nuriyyə Əhmədova 2007-ci ildə Xalq artisti fəxri adına layiq görüldü. 2004-cü ildən Prezident təqaüdçüsü idi. Yenə kirayə evlərdə yaşayırdı. "Xalq artistlərinin hamısına ev verilib, mən kirayələrdə qalmışam", - deyə gileylənirdi. Artıq yeganə oğlu ailə qurmuşdu. Nuriyyə Əhmədova nəvəsi Faiqlə birlikdə yaşayırdı. Həyat yoldaşı qohumlarıgildə qalırdı. Onların ayrıldıqları barədə söz-söhbətlər dolaşırdı.

Otuz yeddi yaşlı oğlu Əlini də 2014-cü ildə uzun sürən xərçəng xəstəliyi ondan aldı. Nuriyyə Əhmədova övladlarının cavan yaşlarında dünyadan köçməsində özünü günahkar bilirdi. Anasının xeyir-duasını almadan bu sənəti seçmişdi. Aktrisa olduğuna görə anası onu son nəfəsinə qədər bağışlamamışdı. Nuriyyə xanım deyirdi: "Məni anamın qarğışı tutdu. Bu sənətin xeyrini görmədim. Qonorarım yaxşı olurdu, ancaq haradan gəlib hara gedirdi, bilmirdim. Balalarımı zülümlə saxladım, onların da xeyrini görmədim".

"Həyatdan doymuşam" desə də, yaşamağa özündə güc tapmağa çalışırdı. Çünki onu bu dünyaya bağlayan nəvəsi var idi. Faiqi beləcə taleyin ümidinə buraxıb getmək onun üçün ayrı bir dərd idi. Ancaq sanki uğur onu birdəfəlik tərk etmişdi. 2014-cü ilin 4 aprelində sərnişin avtobusundan düşərkən yıxıldı. Ağır vəziyyətdə 3 saylı Şəhər Klinik Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirildi. Yataq xəstəsi oldu.

2015-ci ilin 10 oktyabrında 65 yaşlı aktrisa kəskin ürək tutmasından xəstəxanada dünyasını dəyişdi. Kirayə qaldığı evdən son mənzilə yola salındı. Mərdəkanda oğlunun yanında dəfn edildi.

O, həyatın hər üzünü tanıdı. Ən yaxın adamlarının etibarsızlığını da, sonunadək vəfalı qalan dostlarının qayğısını da gördü. Bir də sevdiyi, ürəyini, ömrünün az qala yarısını verdiyi sənəti ona heç vaxt dönük çıxmadı. Həyatda olduğu kimi, ölümündən sonra da Nuriyyə Əhmədovanın adını yaşadan da məhz o oldu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Əməkdar incəsənət xadimi İmruz Əfəndiyevanın 90 illik yubileyi qeyd edilib



**Görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, Prezident təqaüdçüsü, professor İmruz Əfəndiyevanın 90 illiyinə həsr olunan yubiley tədbiri keçirilib.**

Bu barədə Azərbaycan Bəstəkarlar İttifaqından məlumat verilib.

Bildirilib ki, tədbirdə çıxış edən Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə İmruz Əfəndiyevanın Azərbaycan musiqişünaslıq elminin tədqiqi və təbliğindəki səmərəli fəaliyyətindən söhbət açıb.

O, görkəmli musiqişünasın milli musiqişünaslığın aktual məsələlərinə dair çoxsaylı monoqrafiyaların, topluların və elmi məqalələrin müəllifi olduğunu qeyd edib. "İmruz Əfəndiyevanın bəstəkar və ifaçılar - Oqtay Zülfüqarov, Emin Sabitoğlu, Vasif Adıgözəlov, Sevda İbrahimova, Telman Hacıyev, Rəşid Behbudov və başqalarının yaradıcılığı ilə bağlı monoqrafiyaları tədqiqatçılar tərəfindən böyük rəğbətlə qarşılanır. İ.Əfəndiyeva 1968-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. Hazırda Ağsaqqallar Şurasının üzvü və "Uşaq musiqisi" bölməsinin sədridir. O, İttifaqda keçirilən tədbirlərdə, konfranslarda və "dəyirmi masa"larda fəal iştirak edir", - deyə F.Əlizadə əlavə edib.

Tədbirdə Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Elnara Dadaşovanın "İmruz Əfəndiyevanın yaradıcılıq fəaliyyətində uşaq musiqisinin problemlərinə münasibət", Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi nəzəriyyəsi" kafedrasının müdiri, professor Könül Nəsirovanın "Şərəfli ömrün anları", Bəstəkarlar İttifaqının katibi, sənətşünaslıq üzrə elmlər doktoru, dosent Leyla Zöhrabovanın "İmruz Əfəndiyevanın tədqiqatlarında elmi axtarışlar", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehparə Rzayevanın "İmruz Əfəndiyeva - 90: Elmin fədaisi" mövzularında məruzələri dinlənilib.

# Heydər Əliyev Mərkəzində "And və Qafqaz dağları arasında təxəyyül dünyası" sərgisinin açılışı olub



**Heydər Əliyev Mərkəzində perulu rəssam Sol Alexonun "And və Qafqaz dağları arasında təxəyyül dünyası" (The Imaginary World between the Andes and the Caucasus) adlı sərgisinin açılışı olub.**

Sərgidəki əsərlərin əsas qəhrəmanları And yaylasının rəmzinə çevrilmiş alpakalardır. Sol Alexonun rəsmlərində onlar insani duyğularla təsvir edilir.

Açılış mərasimindən əvvəl perulu rəssam Sol Alexo jurnalistlərə bildirib ki, Peru dünyada alpakaların məskəni kimi tanınır. Onun əsərlərinin böyük bir hissəsini məhz alpakalar təşkil edir və rəssam bu obrazları yaradıcılığında müasir üslubda təsvir edir.

Rəssam bildirib ki, Bakının və Şamaxının tarixi abidələri, görməli məkanlarından ilhamlanaraq sərgi üçün yaradıcılıq nümunələri ərsəyə gətirib və alpakaları həmin ərazilərdə təsvir edib. O, həmin yerləri gəzərkən tamamilə fərqli duyğular yaşayıb və yeni ideyalar əldə edib.

Sol Alexo And və Qafqaz dağlarının təbiətindən ilhamlanaraq yaratdığı əsərlərdə alpakaları həm rəmzi, həm də emosional mənada təsvir edib. Onun sözlərinə görə, əsərlərdə bəzən tək, bəzən cüt təsvir olunan alpakalar ətraf mühitlə əlaqəni nümayiş etdirir.

Sənətkar əlavə edib ki, bu kolleksiya onun üçün xüsusi əhəmiyyət daşıyır və gələcəkdə Azərbaycanla bağlı yeni yaradıcılıq işləri ərsəyə gətirə bilər.

Sonra qonaqlar "And və Qafqaz dağları arasında təxəyyül dünyası" adlı sərgi ilə tanış olublar.

Ekspozisiyada Sol Alexonun müxtəlif əsərləri sərgilənir. Bunların sırasında rəssamın xüsusi olaraq Bakı sərgisi üçün yaratdığı rəsmlər də var.

# Ermənistan vətəndaşlarının məhkəməsi təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 22-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Z.Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

Qeyd edilib ki, ötən məhkəmə iclası zamanı fasilə elan olunduğundan təqsirləndirilən David Babayan çıxışını indiki məhkəmə iclasında davam etdirəcək.

D.Babayan çıxışında ittiham tərəfinin çıxışında bildirdiklərinə əks dəlillər səsləndirib. O, təqsirləndirilən şəxslərin günahsız olduğunu deyib. "Mən özümü heç bir maddə ilə günahkar hesab etmirəm", - deyə D.Babayan bildirib.

O, çıxışında müdafiəçilərə və tərcüməçilərə təşəkkür edib.

Təqsirləndirilən Levon Mnatsakanyan son sözünü rus dilində etmək istədiyini deyib. Ona çıxışını rus dilində etməyə şərait yaradılıb.

Təqsirləndirilən şəxs deyib: "Qarabağ (qondarma rejimi nəzərdə tutur - red.) Ermənistandan onun təhlükəsizliyinin qarantı kimi çıxış etməyi xahiş etdi və bu dövrdən də təmas xəttində bütün əməliyyatlar Ermənistan Respublikasının baş qərargahı (silahlı qüvvələrin baş qərargahı nəzərdə tutulur - red.) tərəfindən hazırlanmış planlara uyğun aparılırdı. Burada məhkəmə iclasları zamanı qeyd etmişdim ki, mən 1992-ci ildə hərbiyə çağırılmışam. Zabit rütbəmi nəzərə alaraq, məni batalyonun komandir müavini təyin etdilər. Bu vəzifəyə təyin edilmək üçün başqa heç bir şey tələb olunmurdu. Lakin ittiham tərəfi iddia edir ki, məni başqa hansısa parametrlərə görə təyin ediblər".

Təqsirləndirilən şəxs müharibədə onlar tərəfdən muzdluların döyüşməsi barədə ittiham tərəfinin dediklərinə də münasibət bildirib: "Bildiyim qədər onlar muzdlu olmayıblar. Onlar hamısı könüllülər idi və onları heç kəs xidmətə cəlb eləməmişdi, onlara pul verilmirdi".

L.Mnatsakanyan məhkəmədə onun əleyhinə ifadə vermiş zərərçəkmiş İlham Məmmədovun dedikləri barədə də danışıb (Xatırladaq ki, İ.Məmmədov oktyabrın 2-də keçirilmiş məhkəmə iclası zamanı ifadəsində Ermənistan silahı qüvvələrinin hərbçiləri tərəfindən döyüldüyünü, işgəncələrə məruz qaldığını, onu döyən zabitlər arasında Levon adlı zabitin xüsusi qəddarlıq nümayiş etdirdiyini deyib. Zərərçəkmiş şəxs dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavabında L.Mnatsakanyanı





göstərərək qəddarlıq edən şəxsin o olduğunu söyləyib - red.). Deyib ki, İ.Məmmədova işgəncə verilməyib.

O, 2020-ci ildə 44 günlük müharibə zamanı Şuşakənddə hərbi hücumun planlaşdırılmasında iştirak etməsi barədə ittiham tərəfinin dediklərini də inkar edib, ümumiyyətlə 2020-ci və 2023-cü ildə heç bir hərbi əməliyyatda iştirak etmədiyini söyləyib. Təqsirləndirilən şəxs deyib: "Bəli, mən həqiqətən orada (Şuşakənddə müşavirə keçirilən məktəbdə - red.) olmuşam. Lakin mən çox gec, müşavirə başladıqdan sonra gəlmişəm. Müşavirəyə mənim aidiyyətim yox idi. Mən ora dəvət olunmamışdım. Həmin məktəbdəki kabinetdə mən ətraf kəndlərin mülki müdafiə qərargahlarının rəhbərləri ilə mülki müdafiə ilə bağlı məsələləri müzakirə edirdim. Əhalinin oradan təxliyə olunmasını danışırdıq. Onlar (müşavirə keçirənlər - red.) isə ora gəlmişdilər və xahiş eləmişdilər ki, iki saatlıq müşavirə keçirmək üçün otaq ayrılsın. Sədr isə onlara həmin kabineti təqdim eləmişdi. Yəni mənim olmamağımdan istifadə edərək işlətdiyim kabineti təqdim eləmişdi. Mən gələn vaxt artıq orada müşavirə keçirilirdi. Həmin otağa daxil oldum və Artur Ağabekyanla kənarda oturdum. Bu, sadəcə, bir təsadüf idi.

Müşavirədən mənə aydın oldu ki, orada üç ehtiyat batalyonu, bir tank batalyonu, bir artilleriya divizyonu döyüş üçün hazırlanıb. Həmin əməliyyat nəticəsində yol bağlanmalı idi. Hansı ki, orada təchizat işləri görülürdü, yəni hərbiçilər təchizatla təmin edilirdilər. Şuşaya hücum hazırlayan silahlı qüvvələrin məsul şəxsi Samvel Babayan idi. Onlar bütün məsələləri müzakirə etdilər. Həmin əməliyyatın vaxtını müəyyən etdilər və çıxıb getdilər. Vaxtı ertəsi gün saat 5-ə təyin etmişdilər. Təşkilatçılar getdikdən sonra iştirakçılar öz narazılıqlarını bildirməyə başladılar ki, hazırlıq işləri tam həyata keçirilməyib, tam hazır deyillər. Onlara vaxt verilməyib ki, bu əməliyyata normal şəkildə hazırlaşa bilsinlər, bu səbəbdən də iştirakdan imtina edirlər. Mən soruşdum ki, nəyə görə onlar bunu indi deyirlər, müşavirə keçirilən vaxt niyə deməyiblər? Onlardan bir cavab ala bilmədim və onların işinə də qarışmadım. Fikirləşdim ki, bu, onların öz işləridir".

Təqsirləndirilən şəxs 2016-cı ildə baş vermiş Aprel döyüşləri barədə danışarkən həmin vaxt "ordu komandanı" (Ermənistan silahlı qüvvələrinin ən böyük birləşməsinin komandiri - red.) olduğunu deyib. O, Aprel döyüşləri ilə bağlı ittiham tərəfinin dəlillərini və zərərçəkmişlərin dediklərini inkar edib, Azərbaycan hərbçilərinin mövqelərinə hücum etmədiklərini deyib.

Məhkəmə prosesi dekabrın 23-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Səssiz inkişaf edən damar xəstəliyi

**Gündəlik həyatımızda çox vaxt üzərindən səssizcə keçdiyimiz bəzi sağlamlıq problemləri var ki, yalnız irəliləmiş mərhələdə özünü ciddi fəsadlarla büruzə verir. Onlardan biri də damar xəstəlikləri, xüsusilə varikozdur. Əksər hallarda ayaqlarda yaranan ağırlıq, yorğunluq, axşam saatlarında şişkinlik və ya estetik baxımdan narahatlıq yaradan damar torları ciddi qəbul edilmir. Halbuki bu əlamətlər gələcəkdə həyat üçün təhlükə yarada biləcək ağırlaşmaların ilk siqnalları ola bilər.**



Əslində bu xəstəliyin tarixi çox qədim dövrlərə təsadüf edir. Onunla hətta Hippokrat, İbn Sina, Qalen kimi həkimlər mübarizə aparmışlar. Varikoza qadınlarda daha çox təsadüf edilir. Statistik məlumatlara əsasən, dünyadakı qadınların 89 faizi bu problemlə üzləşir.

### İrsi meyillilik olduqda risk daha da artır

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-cərrah Zülfiyyə Vahabova bildirir ki, varikoz qan dövranının pozulması nəticəsində damarların genişlənməsi və elastikliyinin itirilməsi ilə xarakterizə olunan bir vəziyyətdir: "Əsas səbəb damar qapaqlarının zəifləməsi və qanın geriyə doğru axınının qarşısının alınmamasıdır. Nəticədə qan venalarda toplanır, durğunluq yaranır və damar divarları genişlənməyə başlayır. Damar xəstəlikləri, əsasən, arterial və venoz mənşəli olmaqla iki qrupa bölünür. Ateroskleroz, periferik və yuxu arteriyalarının xəstəlikləri, dərin vena trombozu və varikoz bu sahədə ən çox rast gəlinən patologiyalardır. Varikoza daha çox 35-50 yaşlı insanlarda rast gəlinir. Uzunmüddətli ayaqüstü və ya oturaq iş rejimi, artıq çəki, ağır yüklərin qaldırılması, qeyri-sağlam qidalanma, hormonal dəyişikliklər, dar geyim və hündürdaban ayaqqabılardan istifadə bu problemin yaranmasında əsas rol oynayır. Günün böyük hissəsini kompüter arxasında keçirən, az hərəkət edən insanlarda aşağı ətraflarda qan dövranı zəifləyir, damarlarda durğunluq yaranır. Nəticədə damarlar tədricən genişlənir və xəstəlik formalaşır. İrsi meyillilik olduqda isə risk daha da artır".

Varikoz xəstəliyi tədricən və gizli şəkildə inkişaf edir. Mütəxəssisin sözlərinə görə, ilkin mərhələlərdə əlamətlər az və qeyri-spesifik olur. Xəstələr əsasən ayaqlarda ağırlıq, tez yorulma, yanğı hissi, baldır əzələlərində gecə qıcolmaları və axşam saatlarında şişkinlikdən şikayətlənirlər. Bu narahatlıqlar xüsusilə isti havalarda və günün sonunda daha qabarıq hiss olunur. Xəstəlik irəlilədikcə patoloji damarlar gözlə görünən hala gəlir. Ayaqlarda göy-yaşılımtıl rəngli, qıvrım və şişkin damarlar - varikoz düyünləri əmələ gəlir. Sonrakı mərhələlərdə dərinin rəngi dəyişir, göyərmə yaranır, trofik yaralar formalaşır. Müalicə olunmadıqda varikoz xroniki venoz çatışmazlıqla ağırlaşır və hətta tromb yaranma riski artır ki, bu da həyati təhlükə deməkdir.

### Ev şəraitində aparılan "müalicələr" vəziyyəti daha da ağırlaşdıra bilər

Müasir tibbin imkanları varikozun müalicəsini əvvəlki illərlə müqayisədə xeyli asanlaşdırıb. Zülfiyyə Vahabova deyir ki, damar xəstəliyinin diaqnostikasında əsas müayinə üsulu rəngli dopplerdir. Bu zaman damarlar müayinə edilir, mövcud vəziyyətə görə müalicə təyin edilir. Müasir təbabət damar xəstəliklərini ağrısız, narkozsuz müayinə etməyə imkan verir. Əgər ayaqlarda ağrı, şişkinlik və damar torları müşahidə edilərsə, mütləq həkimə müraciət olunmalıdır. Çünki bəzi hallarda varikoz gözlə görünmədən inkişaf edir və yalnız müayinə zamanı aşkarlanır. Xalq təbabəti və ev şəraitində aparılan "müalicələr" isə vəziyyəti daha da ağırlaşdıra bilər.

"Damar genişlənməsinin qarşısını almaq üçün bir sıra profilaktik tədbirlərə əməl etmək tövsiyə edilir. Fiziki aktivliyi artırmaq, üzgüçülük, qaçış, velosiped sürmək, artıq çəkidən azad olmaq, dar geyimlərdən və hündürdaban ayaqqabılardan uzaq durmaq vacibdir. Hamiləlik dövründə və ya uzunmüddətli gərgin iş zamanı kompression damar corabları geyinmək faydalıdır. Qida rasionunda vitamin C və P ilə zəngin məhsullara - albalı, yaşıl bolqar bibəri, alma, moruq, ərik, sitrus meyvələrinə üstünlük verilməli, şirniyyat və qənnadı məmulatlarının qəbulu azaldılmalıdır. İş gününün sonunda ayaqlara kontrast duş tətbiq etmək də qan dövranını yaxşılaşdırır. Lakin qeyd etmək lazımdır ki, bu tədbirlər varikozun yaranmayacağına 100 faiz zəmanət vermir. Çünki xəstəliyin kökündə duran səbəblər çoxşaxəlidir. Buna görə də ilkin mərhələdə aşkarlama məqsədilə ildə ən azı bir dəfə fleboloq müayinəsindən keçmək tövsiyə edilir", - deyə həkim-cərrah qeyd edib.

***Ülkər XASPOLADOVA ,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Vahid Məmmədova anası

**MİRVARİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Müəllimlər İnstitutunun Pedaqoji fakültəsinin dekanı Samirə Həsənova Naxçıvan şəhərindən Hüseyn Məşdi oğlu Əliyevə bacısı, Naxçıvan şəhər 5 nömrəli uşaq musiqi məktəbinin müəllimi

**HƏQİQƏT ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı Kamal Qafarova əzizi

**ELMİRA QASIMLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi nazir müavini Azər Bayramova əzizi, professor

**FİKRƏT İSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Xocavənd Rayon Statistika İdarəsinin rəisi

**FƏRNAD TAHİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Vidadi Yusifli, Əsəd Babayev, İntiqam Soltan, İsrafil Bəkirov, Gəray Göyyurd, Mahir Sadıxov, Rafiq Hüseynov və Hidayət İsmayılov dostları Fəxrəddin Şirəliyevə qardaşı

**VİDADİ ƏHMƏD OĞLU ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4121**
**Sifariş 2601**

**Qiyməti 60 qəpik**